AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT
VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ

17-1789

# NOVRUZ:

## ƏN'ƏNƏ VƏ MÜASİRLİK

*NOVRUZ BAYRAMINA HƏSR OLUNMUŞ ELMİ
KONFRANSIN MATERİALLARI
(17 MART 2001)*

*1-ci BURAXILIŞ*

KİTABXANASI

BAKI
Nəşriyyat-Poliqrafiya Mərkəzi - 2001

REDAKSİYA HEY`ƏTİ: *SOLMİNA DADAŞOVA*
*Pedaqoji elmlər namizədi, dosent*

*ƏZİZƏ CƏFƏRZADƏ*
*Filologiya elmləri doktoru, professor*

*NİZAMƏDDİN ŞƏMSİZADƏ*
*Filologiya elmləri doktoru, professor*

*VAQİF SULTANLI*
*Filologiya elmləri doktoru, professor*

*OQTAY SULTANOV*
*Pedaqoji elmlər namizədi, dosent*

*ASLAN SULTANOV*
*Dosent*

TƏRTİB EDƏNİ, NƏŞRƏ HAZIRLAYANI VƏ ELMİ REDAKTORU:
*sənətşünaslıq namizədi MÜBARİZ SÜLEYMANLI*

NOVRUZ BAYRAMINA HƏSR OLUNMUŞ ELMİ KONFRANSIN MATERİALLARI. Bakı, 17 mart 2001.

$Ə\,\frac{4702060200}{104 - 2000}\,2000$

© *"T" Нәшријјат-Полиграфија Мәркәзи - 2000*



*Məhəmməd Əmin Rəsulzadə*

# Novruz münasibətilə

Novruz bayramının şəmsi hesabı ilə bir yerdə bərqərar olması və sair müsəlman yövm məxsuslarının (xüsusi günlərinin) qəməri olaraq yer dəyişdirməsi nəticəsində neçə illər idi ki, Novruz məhərrəmdən çıxdıqdan sonra da aləmi-isalamın bir-biri üstündən giriftar olduğu müsibətlər bu gözəl bahar bayramını buludlandırdı.

Hələ keçənilki Novruz nə qədər tə`siramiz idi. Balkanlardakı qəssablıq, orada axıdılan müsəlman və türk qanı, orada icra olunan vəhşət, kimsədə bayram etmək hissiyyatı qoymuyordu.

Minahülhəmd (Allaha şükür) bu ilki Novruz bu kimi fəci təsadüfdən biri oldu. Demək olar ki, neçə ildən bəri yaxşı bir Novruz görməyən gözlərimiz bu dəfə bir az sevinc nurları ilə işıqlandı.

Novruz hər nə qədər bir İran ən`ənəsi isə də, bu gün demək olar ki, islam aləminin hər tərəfində bir mövqeyi-məxsusi vardır. Bütün Türkistan Novruza İran qədər tə`zim edər. Türkiyə, Hindistan dəxi Novruza biganə deyildirlər. Novruz münasibətilə İstanbul qəzetlərində xüsusi məqalələr oxunar. Bə`zi təriqət ərbabının bu günə məxsus ayinləri də vardır.

Sonra martın 8 və ya 9-da (20 və 21-də) sübh uyqudan qalxarkən ailə əfradı bir-birlərinə şirni (şəkərləmə) verərək bu təbiət bayramını böyləcə təsdid edərlər. Və təzə ilin ailələri üçün mübarək olmasını dilərlər.

Hər millətin tarixindən başqa bir də tarixdən əvvəl tarik (tərk edilən) bir dövriyyəyə məxsus əsatiri vardır. Novruz dəxi ta qədim İran əsatiri içində görünür. Məzkur əsatirə nəzərən Novruz Cəmşidin yadigariədd olunar (sayılır). Fəqət bu günki şəkli ilə o, elmən məchul bir dövr və şəxsə mənsub olmaqdan ziyadə, tarixən mövcud olan bir sultana mərbutdur ki, o da türk hökmdarlarından Cəlaləddin Məlik şah Səlcuqidir.

Cəlaləddin elm və fənnə ziyadəsilə əhəmiyyət verərdi. Elm və fənnə etdiyi xidmətlər miyanında mükəmməl bir tarixi-şəmsi dəxi vücuda gətirmişdir. Bu tarix Cəlali namilə məşhurdur. Tarixi-cəlalidə Novruz il başıdır və ya bayramdır.

Demək ki, Novruz hər nə qədər bir İran ən`ənəsi isə də, onun elmən təsbiti yenə bir türk hökmdarının köməyi ilə olmuşdur. Bu xüsus və tarixdə mövcud olan bu kimi xüsuslar, bu gün "türkçülük olsun" - deyə İran yadigarı hər nə varsa hamısını inkar edənlərlə, "farsçılıq olsun" - deyə turanlı olan hər bir şeyi inkar edən kütbeyin mütəəssiblər (təəssübkeşlər) üçün ələbəttə bir vəsileyi-intibah ola bilər. Bu də vəsileyi-intibah olmazsa bolqar-yunan ixtilafından kimlərin faiədmənd olduqlarını nəzəri-e`tinaya alsınlar da; fars-türk ixtilafından hər halda nə farsın, nə də türkün fayda görməyəcəyini dərk etsinlər.

Mətləbdən uzaq düşdük. Bəhsimiz bu ilki Novruzda idi. Builki Novruz Bakıda qayət mütəntən (təntənəli) keçdi. Fəqət rus pəhrizinin böyük həftəsinə təsadüfi etməsəydi, daha da mütəntən keçəcək idi. Pəhrizin böyük həftəsində bütün teatrxanalar bağlı olduğundan Novruz münasibətilə veriləcək teatr tamaşalarından bakılılar məhrum qaldılar. Bu cəhətdən Novruz həyatı olduqca sönük keçdi. Demək ki, hər nə qədər cüz`i olsa da, rusiyalılar üçün Novruz yenə də təsadüfsüz deyil idi.

Bu təsadüfi qabaqlamaq üçün idi ki, "Nicat" cəmiyyəti Novruz münasibətilə verdiyi "Şərq gecəsi"ni bayramdan iki gün əvvəl verdi.

Bu vaxta qədər gördüyüm müsamirələrdən - türk müsamirələrindən "Nicat"ın tərtib etdiyi "Şərq müsamirəsi" qədər milliyyət nöqteyi-nəzərindən mükəmməlini bilmiyordum. "Nicat" bizim milli səhnəmizə bir çox xidmətlər etmişdir. Görünür ki, bu cəmiyyət o gözəl ən`ənəsindən daha küsməmişdir və köhnə qüvvətlərindən çox şeyi itirməmişdir.

Bir zaman vardı ki, biz daim Qərbə bənzəmək istər, sənət ilə musiqimizdə avropalıları kor-koranə təqlid edərdik. Fəqət bu təqlid məəttəəssüf tamamilə avropalılar içində münhəll (ərinmiş) olub da yox olmaqdan ibarət olardı. Hətta indi də bir çox hallarımız böylədir.

Fəqət "Nicat"ın "Şərq gecəsi"ndə tərtib etdiyi proqram göstərdi ki, avropalıları təqlid etməni yavaş-yavaş öyrəniyoruz. Avropalılardan sənətə rağe (aid) olan xüsuslarda ancaq şəkil və tərtibi almalıyıq, yoxsa mə`na ilə ruh milli qalmalıdır. Vəilla (yoxsa) vücuda gətirəcəyimiz ədəbiyyat, musiqi və sənət gülünc bir hal almış olar, millilikdən çıxar, başqalarının natamam bir kopiyası olar.

Bu gecədə gərək orada olan əcnəbilər və gərək millətimizdən uzaq düşən intelligentlərimiz buradan nəticə olaraq bir çox şeylər öyrənərdi.

Onlar görürdülər ki, musiqi və sənətdən məhrum hesab etdikləri türk avamında (xalqında) nə qədər mahir sənətkarlar var və bu avam içərisində nə gözəl şe`r və sənət əşkali (növləri) mövcuddur.

Maarifin yüksək dərəcəsindən hissimənd olan P.Qriqorinin çaldığı kamança hər kəsi məbhut (heyran) edəcək dərəcədə idi. Onun mahiranə bir surətdə sızlayan telləri bu qədər məharətin ancaq bir injener qədər tənvir edənlərə məxsus olacağı haqqında bir fikir oyandırmışdı - zənn edərim. Fəqət sonra Mirzə Abdullanın çaldığı "ney" bu təsəvvürlərin hamısını qətiyyən uçurtdu. Tamaşa zalı o qədər valeh və sakit olmuşdu ki, bir milçək uçsaydı

qanadının səsi eşidilərdi. Gözlər yumulsaydı - çalınan bir ney deyil, gözəl bir xanəndə səsi olduğu eşidilərdi. Əlbəttə, bu dərəcə ali sənətkarlar yetişdirə bilən bir xalq (avam) dirəxşan (parlaq) bir istiqbaldanədd olunamaz.

İştə bu millilik və camaat ruhuna doğma olması həsəbi ilə "Nicat"ın müsamirəsi birinci idi. Müsamirə müsəlman xanımları tərəfindən bilaistiqlal idarə olunmaq hesabi ilə də ikinci idi. Deməк ki, yavaş-yavaş iflic halından çıxıyoruz. Mədəniyyətimiz səhhəti-vücud hasil etməyə başlayır, ruhumuz da, vücudumuz da sağalıyor.

Builki Novruz demək ki, sənayei-nəfisəmizə bir Novruz, digər dəxi nişan veriyor ki, bu da millət və xalqa tərəf getməkdən və onun ruhunda olan böyük vədiələri (əmanətləri) çıxarıb elmi və fənni bir şəkilə salmaqdan, çayxana və toyxana bucaqlarından ədəbiyyat salonlarına və teatro səhnələrinə köçürməkdən ibarətdir.

Bu nöqteyi-nəzərdən "İttihad" mədrəsəsində Novruz münasibətilə təşkil olunan teatro və musiqi məclisi də şayani-diqqətdir.

"Nicat" şagirdlərinin musiqi dəstəsi demək olar ki, Bakıda bütün əfradi (üzvləri) müsəlman cavanlarından mütəşəkkil bir musiqi hey`ətidir. Əlbəttə, bu xüsus tərəqqi etdikdə gözəl nəticələr hasil olacaq.

Eşitdiyimizə görə, "Nicat" bir skripka hey`əti də vücuda gətirmək üzrədir. İnşaallah, müvəffəq olar və gələn Novruzda ona da tamaşa edərik.

İndilik Novruzumuz mübarək!

*"İqbal", 13 mart 1914, N599*

***Təqdim edəni professor***
***Şirməmməd Hüseynov***

## *QURTULUŞ*

Dünyanın ilk sahibi olan hər böyük millət kimi türklər də soylarının qüvvətini bir əfsanənin qaynağından almışlar ("XƏLQƏ DOĞRU" həftəliyi, sayı 51).

Türklərdən Budda dinində olanlar özlərinin Budda anasından olduqlarını söylərlər. Müsəlman olan türklər də Yafəsin yeddi oğlundan biri olan Türkün nəslindən gəldiklərini iddia edirlər.

Türkün beşinci əsrdə Moğol və Tatar adı ilə iki oğlu varmış. Moğol xanın 4 oğlundan birisi də Qara xan imiş.

İştə bu zamana aid olaraq moğollar arasında bir əfsanə vardır. Bu əfsanəyə görə Moğol hökmdarı İlxan, tatarların xanı Siyunc ilə müharibə edir. Siyunc xan qırğızlarla ittifaqda olduğundan İlxanı məğlub edir. İlxan bütün qoşunu ilə bir yerdə qılıncdan keçirilir. İlxanın ən kiçik oğlu Qəyan, kiçik kürəkəni Tuğuz və iki qız ancaq təhlükədən qurtara bilirlər. Bunlar dağlardan aşır, çayları, dərələri keçirlər. Bir çəmənlikdə özlərinə rast gələn bir ala keçini qovalayıb arxasından gedirlər. Keçini qovlamaqda ikən özlərini meyvəli, güllü, otlu bir yerdə görürlər. Burada keçi bunlardan qaçmır. Dördü bir yerə gəlib yerləşirlər, burada qalırlar. Örəyüb artırlar. Uşaqları çoxalır. Bir nəsil vücuda gəlir. Aradan 400 il keçir. Artıq bu yer bunlara darısqallıq edir. Bir yana çıxmaq istəyirlər. Fəqət yol tapmırlar. Yol axtarmaq düşüncəsi ilə məşğul ikən bir gün bir qurd görürlər. Bu vəhşi heyvanın haradan gəldiyini araşdırarkən kiçik bir dəlikdən çıxdığını görürlər. Gəlib baxırlar bu dəliyin ətrafı keçilməz dağdır. Bir dəmirçi bu dağların dəmirdən, misdən töküImə filiz olduğunu görür. Od vurub dağı əridir. Türklər yenidən ətrafa yayılır. V əsrdə bütün aləmi dəhşətə gətirirlər.

Bunlar yol tapdıqları günə Yeni gün deyirlər. Və bu günün şərəfinə hər il şənliklər qurulur. Yeddi bətni bəsləyən bu yurdun adı Ərgənəkon (ərgənədağ beli, kon-qonaq) qalır. Qurda bir xilaskarlıq timsalı verilir. Dağdan çıxdıqları zamandakı xanlarının adı Pürtəcənəbuz qurd olur.

Bu əfsanəni moğol dilindən başqa çinlilərin-tarixi də qeyd edir. Çin tarixlərində bu əfsanənin günü belə göstərilirmiş.

Türklərin tilsimlənmiş mühasirədən çıxdıqları gün martın 9-u imiş. Moğollarda və əski türklərdə martın 9-nu bayram saxlamaq adəti şübhəsizdir. Demək, Novruz əslən türklərdə yabançı bir şey deyildir.

Qurd ilə 9 rəqəminə türklərdə və türk asari-tarixiyyəsində böyük bir ehtiram görülür.

Qədim türklər bayraqlarının başına qızıldan bir qurd başı taxırdılar. "Ayıq" təxəllüsü ilə yazan "Xəlqə doğru" mühərririnin iddiasına görə Osmanlı kəndlərində 9 rəqəminə qarşı bir hörmət hissi var. Əkin biçildiyi vaxt kəndlilər qəmələrini doqquz-doqquz yığar, adına da 9 cun deyərlərmiş. Padşahlar verdikləri hədiyyələri 9-9 verərlərmiş. Osmanlıda vəzirlik dərəcəsini göstərən tuğ 1,2,3,4 ikən padşahın tuğu 9 ədəd olub, çadırının qabağında doqquz tuğlu bir bayraq dalğalanırdı.

Qədim türklər xan götürdükləri (seçdikləri) zaman onu bir səccadə üzərinə oturdurdular. Və hörmət əlaməti olaraq bir-neçə dəfə qaldırırmışlar, hörmətlərinin dərəcəsini çoxaltmaq istədikdə 9 dəfə yüksəldirmişlər.

"Qurtuluş", "qurtulmaq" kimi sözlər, heç şübhə yoxdur ki, "qurd" sözündən yaranır. Dilçilər bu kəlmə ilə yuxarıda bu münasibətlə zikr olunan əfsanə arasında bir rabitə görərlər. "Qurtuluş" demək "nicat" deməkdir. Fəqət türkcə kəlmə bə`zən o qədər işlənməmiş qalaraq arxaikləşmiş ki, mə`nasını

bir türkə anlada bilmək üçün mütləqən ərəbcə, farsca, yaxud ruscanın köməyinə ehtiyac göstərmək məcburiyyətindəyik.

Şübhəsiz ki, bu təbii olmayan hal əfsanədəki "Ərgənəkon" tilsiminə bənzər. "Ərgənəkon"dakı türkləri Pürtəcənəbuz qutardı.

Zamanımız milliyyət əsridir. Milli bir ruh və məslək sahibi olan gənclik cəhalətdə və qəflətdə yaşayan millətimizin xilaskar qurdudur. Yenicə tə`sis olunan "QURTULUŞ" doğma türkcəsi ilə sevdiyi türk dilinə və türk elinə xidmət qəsdi ilə müasir bir qurd xidməti göstərəcək, bununla bir azca xidmət edə bilərsə, əlbəttə, iftixar edə bilər.

*"Qurtuluş", N1, oktyabr, 1915*

*Təqdim edəni Vaqif İslamoğlu*

## NOVRUZ BAYRAMI

"Vətən" qəzetəsinin sənət və ədəbiyyata ayırdığı bir səhifədə ədbiyyatçılardan Əbdülhaki Gölpinarlı "Novruz-Yenigün" başlığıyla əski İstanbul qəzetələrinin mutad "Novruziyyə"lərini xatırladan gözəl bir məqalə nəşr etdi.

Mövlanənin, Füzulinin, Nədimin və xalq şairlərinin təbiətin yeniləndiyini, baharın gəlməsini övererk, Novruza sevinən parçalarını nəql edən bu yazıda, "bütün bayramların inancla, xatirəylə, gələnəklə, duyğuyla sıx ilgisi olduğu qeyd ediliyor, fəqət bir bayramdan başqa heç birinin təbitlə dərin bir bağı yoxdur" deniliyor.

Konu, Azərbaycan ağzıyla söyləsək, Novruzdur. Novruz bayramının bütün bayramlar kibi: - Gölpinarlının ifadəsiylə - "kitablardan-kitablara, beyitlərdən-beyitlərə, ağızlardan ağızlara keçən, oxunan və söylənən masal ünsürləri vardır, gələnəklərdə yıkılmaz, sarsılmaz yeri vardır, hətta Müslümanlıqdan sonra o günə əklənən təsadüflərlə İslami hüviyəti vardır, amma əsil xarakteri gerçək, tam bir gerçək təbiət bayramı olmuşdur".

Klassik Şərq ədəbiyyatının domyadan tərənnüm etdiyi Novruzun türlü kültürlərin qarşılaşdığı Azərbaycanda özəl bir yeri vardır. Novruz gələnəgini masallardakı Cəmşidin taxta çıxmasına bağlayan İran rəvayəti, bu cülus mərasimini Azərbaycanda təsəvvür edir. Klassik sözlük Bürhan-i Qatinin yazdığına görə, Cəmşid dünyanın hər tərəfini gəzmiş, Azərbaycana gəlmiş,



burasını bəyənmiş, gündoğuşa baxan yüksək bir təpənin üstündə bir taxt qurduraraq, şahanə əlbəsələr geymiş olduğu halda bu taxta cülus etmişdir. Başında qaşlı-daşlı və şaşalı bir tac vrmış. Günəş tulu edib işığı bu tac və taxta düşüncə bütün o yerləri nura qərq etmiş və hər kəs bu durumu xeyrə yoraraq, olduqca sevinmiş və bu günü Yeni gün (Novruz) diyə e`lan etmişlərdir".

Sasanilər dövründə mutad olan Novruz gələnəyi Yezdigərd zamanında ilqa edilmişdir. Ərəb istilası üzərinə Müslüman olan İranda bu gələnək ihmal edilmiş. Sünni İran Novruzu bilməmişdir. İrani Türklərdən mütəşəkkil əsgəri bir qüvvətlə zorlayaraq Şiə yapan Səfəvilər, bu gələnəyi ihya etmişlərdir. Şiəliyin tə`siriylə "Cəmşid"in taxtına "Həzrəti Əli" çıxmışdır.

Ustad Köprülü 1927 tarixli "Həyat" dərgisinin I cild 18-ci sayında yazdığı "Novruz" məqaləsində Üçüncü Əhməd zamanında Səfarətlə İrana göndərilən Dürri əfəndinin Səfəvilər sarayındakı Novruz mərasimi haqqında verdiyi mə`lumatı nəql ediyor.

Müstəqil Azərbaycan Hökuməti zamanında Novruz, milli bir bayram olaraq rəsmən tə`sit olunuyordu. O gün bütün millətlə bərabər dövlət müəssisələri də çalışmazdı. Hökumətcə mərasim yapılaraq, ordunun keçid rəsmi icra olunuyordu. Bu münasibətlə Azərbaycan Kültür Dərnəyinin tərtib etdiyi 21 mart tarixli toplantıda 1920-də icra olunan Novruz rəsmi keçidinin bir xatirəsi anıldı.

Milli Hökumətin qurulmasına takaddüm edən illərdə də şəkilləşən milli hərəkət və ümumi Türkçülük davasında Novruz və ya Yeni günün özəl bir yeri olmuşdur. Türkçülük və milliyyətçilik yoluna girən Azərbaycanda Novruz bayramı Cəmşid və ya Şiə Səfəvi gələnəklərinə deyil, Ərgənəkon əfsanəsinə bağlanıyor və adına da Qurtuluş Bayramı deyilirdi. Əslərcə kəndiləri çevirən dağlar arasında məhsur qalan türklər bir dəmirçinin mərifəti və Bozqurdun dəlalətiylə əsarətdən qurtularaq geniş dünyaya qovuşmuş və hür olmuşlardır. 9 martda vukubulan bu uğurlu hadisə, yeni təqvimlə 21 marta təsadüf edən bir Yeni gündə, bir Novruzda olmuşdur.

Azərbaycanda Qurban və Ramazan bayramlarından daha parlaq bir surətdə icra olunan bu bayramın milliyyətçi mətbuat və nəşriyyatdakı adı "Yeni gün" və ya "Qurtuluş Bayramı" idi. Azərbaycan gəncliyinin Çarizmə qarşı girişdiyi gizli qurtuluş hərəkətində, bu bayrama tahsis olunan özəl toplantılarda Ərgənəkon lejanı anlatılıyordu. Eyni zamanda Bakıdakı "Müslüman Xeyriyyə Cəmiyyətinin" təşəbbüsüylə "İsmailiyə" binasının möhtəşəm salonunda ümumi bir bayramlaşma mərasimi tərtib olunuyordu.

Bunlardan Çarlığın devrildiyi 1917 ilinə təsadüf edən Novruz bayramlaşması çox həyəcanlı olmuşdur. Bu bayramlaşmada hürriyyətin istibdada qələbəsini, iyilik ilahi Hürmüzün kötülük ilahi Əhrimənə qələbə çalmasıyla müqayisə etmiş olduğumu arkadaşımız Ə.Vahab Yurdsevər mənə son günlərdə

bir vəsilə ilə xatırlatmışdı.

İran-Turan gələnəklərini kəndisində məzcedən Novruz bayramı Azərbaycandakı özəlligiylə masaldan ziyadə gerçək bir təbiət, həyat və hürriyyət bayramı olaraq, xalq kütlələrinin adət və ən`ənələrində yer almaqda və əsil dəyəri də bu nöqtədədir. Qəməri təqvimə tabi, Qurban və Ramazan bayramaları bə`zən qışa, bə`zən bahara, bə`zən yaza, bə`zən də güzə rastlarlar. Halbuki Novruz bayramı sabit bir tarixdə tə`sid olunmaqdadır. Qaranlıq və soyuq qışdan aydınlıq və ilıq bahara çıxışla Novruz bayramı gəlmiş olur. Ötəkiləri dini bəsit birər mərasimlə tə`sit edən Azərbaycan, bərikini sözün tam mə`nasıyla, yeni bir gün, yeni bir həyat başlanğıcı kimi qarşılar.

Bu bayramda hər şey yenilənir; hələ cocuqlara mutlaka yeni əlbəsələr geydirilir; yavrularını sevindirmək üçün ən fəqir ailələr belə bütün imkanlarını sərf edirlər. Türkiyədəki Şəkər bayramı kimi, Azərbaycandakı Novruz bayramı da üç gün davam edir. Bütün ailələr bir-birilərini evlərində ziyarət edir, bayramlaşırlar. Süfrələri hər türlü şəkərləmələrlə donatılmış bulunan evlərin qapıları bütün bayram günlərində ziyarətçilərə açıq bulundurulur.

Bayrama takaddüm edən dörd həftənin "üskü" tə`bir olunan çərşənbə günlərində "Tonqar" deyilən atəşlər yakılır və gənclər bu atəşlər üzərindən atılır, əylənirlər. Kəza maskara kılıklara girərək qapı-qapı dolaşan "kos-kosa"ların (Karnaval) halı da çox əyləncəlidir. Əsil bayram günlərində isə çocukların birər qrup təşkil edərək, ailədən ailəyə gedərək xor

halında:

"Gəldi Novruz bayramı, açıldı güllər, lalələr,

Səbzəpuş oldu çəmənlər, bülbül eylər nalələr..."

Matlaiylə başlayan br "Novruziyyə" oxumaları vardır ki, bu kəndi başına bir şe`r, bir bahardır.

Fəqət bütün bunlar şimdi birər mazidir. Yuxarıdakı hekayədə zatən tazi sıyğası anlatılmalıydı: Çünki Sovet istilası altındakı Azərbaycanda Novruz gələnəyinin halı, tıpkı Şəmsəddin Sami bəy Mərhumun "Kavei Ahəngər" (Dəmirçi Gavə) pyesində təsvir etdiyi Novruz səhnəsi halındadır. Bu pyesdə bahar və günəş kultunu, bir novruz günündə tə`sit edən insanlar, qorxunc bir istibdad rejimi quran Zuhhakın qan içən cəlladları tərəfindən tə`qib olunuyorlar.

"Novruz günüdür, günəş doğuyor!" - deyib təbiətə tapan hürriyyət mö`minlərini nasıl Zuhhakın cəlladları yaxalayıb boğazlayırdılarsa, hürriyyət və istiqlal aşiqi çağdaş Azərbaycanlılar da bu günün Zuhhak rejimi, yə`ni KQB idarəsinin eyni zülm və tə`qibatına mə`ruz qalıyorlar. Novruz bu günkü Sovet əsiri Azərbaycanda da məmnu günlərdəndir. Gözəl bir təbiət və təbii qurtuluş bayramı, milli bir xalq gələnəyi olduğu üçün, Novruz mencdilmişdir. Bu yasaq ona bütün özəllik və gözəllikləri üstündə, yeni bir mə`na və



əhəmiyyət bağışlamış, bizi onu özləməyə daha qüvvətli bir vəsilə vermişdir.

Əvət, zamanın axışı və şərtlərin dəyişməsiylə kültürəl, siyasi və dini türlü hadisələrdən müteəssir olan, bütün insanlığa şamil təbiət bayramı Novruzun Azərbaycan xalq gələnəyində sarsılmaz bir yeri vardır. Gerçək bir təbiət, yenidən doğuş, qurtuluş və yenilənmə simvolu olan bu gün, Azərbaycan folkloruna mal olmuş, həqiqi bir gələnək halını almış və xalq bayramı olmuşdur.

Bir millətin təşəkkülündə dil, din, tarix qədər gələnəyin də önəmli bir rolu vardır, hətta bə`zi sosioloq və filosoflar bu sonuncuya bilxassə əhəmiyyət atfediyorlar.

Çağdaş Demokrasi anlayışı baxımından ihmali caiz olmayan xalq gələnəyinə, insanlıq ideallarına əngəl olmaması şərtiylə, önəm vermək, onu təşviq etmək bir zərurət, bir vəzifədir.

Yaxın bir gələcəkdə Hürmüzə mukaddər olan bir zəfər günündə, Sovet "Ərgənəkonu"ndan qurtulacaq Azərbaycanda yeni bir günün gələcəyinə - Novruzun təkrar bayram ediləcəyinə şübhə etmiyəlim.

Novruz gələnəyinin il təhvili deyilən bir mərasimi vardır. Əski ilin yeni ilə keçdiyi, gecə ilə gündüzün tam müsavi olduğu saata təhvil saatı deyilir. Təhvil saatında bütün ailə əfradı "Xonça" tabir olunan bir süfrənin başına toplanırlar. Mumlar yakılır. Ailə rəisi Novruz duasını oxuyur. Dua budur:

"Ya Mukallibel kulubi vel absar,

Ya Müdəbbirel leyli ven nahar,

Ya muhavvilel holi vel ahval,

Havvil halena ila ahsenil hal!"

Mə`nası belədir:

Ey qəlbləri və gözləri dəyişdirən, ey gecəni və gündüzü təqdir edən, ey hal və şərtləri başqalaşdıran Allah, bugünkü durumumuzu daha iyi bir duruma inqilab etdir!".

*"Azərbaycan" (Ankara) dərgisi,*
*sayı: 12 (24) mart 1954*

*Təqdim edəni sənətşünaslıq namizədi*
*Mübariz Süleymanlı*

## ƏZİZƏ CƏFƏRZADƏ
*Filologiya elmləri doktoru, professor*

# İLİN ƏZİZ GÜNÜ

Müsibət günləri o qədər ağır keçirdi ki, Novruz bayramını təkcə uşaqlar deyil, böyüklər də qəlblərinin dərinliyində bir həsrətlə arzulayırdılar. İnsanın üzü təkcə bu bayramda gərəyincə gülə bilirdi. Bayramı hazırlıq, vallah, deyə bilərəm ki, bütün ili gedirdi. Necə? Necəsi yoxdur ki, bayram xərclərini ödəyə bilmək üçün qəpcyi-qəpek üstünə qoymalı olanlar, uşaqlarının əyin-başını təzələmək, balacalarını sevindirmək, qonum-qonşudan geri qalmamaq, əziz günü ürəyincə qarşılaya bilmək üçün şübhə yoxdur ki, pul lazım idi. Doğrudur o zamanlar kasıba, fağıra əl tutan, ianə verən, vaxtilə xalqımızın mərd qızı Xurşidbanu Natəvanın, Hacı Zeynalabdının etdiyi kimi bayrama xeyli qalmış mə'lum kasıb evlərinə bayramqabağı xərc üçün pul və ya pal-paltarlıq göndərilirdi. Amma bu hamıya nəsib olmurdu. "Şapalaqnan üz qızardan" elə ailə başçıları tanıyırdım ki, ölsə də başqa daha fağır külfətə çatmalı olan ianəni qəbul etməmək üçün əlindən gələni də, gəlməyəni də edirdi. Bu əziz gündə qəmdən nəyə danışaq? Yaxşısı, adətlərimizdən danışım ki, yadında yaxşı qalsın. Sən də qızına, o da nəvənə öyrətsin. Gözəl adətlərimiz var idi. Bayrama hazırlıq, dedim ki, xeyli əvvəldən başlayırdı.

Atalar oğul uşaq üçün paltarlıq və ya hazır geyim alıb anaya tapşırırdı. Xına bu bazarlıqların içində xüsusi yer tuturdu. Ana da yavaş-yavaş bu parçalardan uşaqlara paltar tikirdi.

Əslində dörd çərşənbə var. Amma analar bu çərşənbələrin sayına ikisini də əlavə edirdi. "Yalançı çərşənbə", "Xəbərçi çərşənbə", bu çərşənbələrin xuşgabarı çox olmazdı (quru meyvəsi), Şam-zad da çox yandırılmazdı. Xörəyi də yüngül çilovdan-zaddan olardı.

Ən qədim anlayışlarla bağlı çərşənbə dörd idi.

1-ci çərşənbə "Suya baxırdı" - nəfəsi suları oyadırdı. Bu çərşənbədən başlayaraq şam yandırmaq, əlvan yumurta boyamaq, tonqal qalamaq, lopa yandırmaq başlanırdı. Su dolu camın üstünü örtüb "üzük falına baxardılar". Vəsf-halın bayatıları məhz bu fal üçün idi.

*Eləmi əli bağlar*
*Döşənib xəli bağlar*



*Sidqi dürüst olanın,*
*Kəmərin Əli bağlar.*

*Eləmi dalda yeri,*
*Meh vurar dalda yeri,*
*İki könül bir olsa*
*Tez tapar dalda yeri.*

*Ağac başında Əli*
*Altında yaşıl xəli,*
*Allah muradın versin,*
*Ya Məhəmməd, ya Əli!*

kimi vəsfhallar kimin üzüyünə çıxsaydı, *muradına* irişməliydi. Sevinərdi, belə qaydaydı. İnam vardı. Bir şeyə də ki, inadın, niyyətin hara, mənzilin oradadı.

2-ci çərşənbə "oda baxırdı". Şamlar hərənin öz adına yandırılır, tonqallar qalanırdı. Od nəfəsi havanı isidir, insanı günahlardan təmizləyirdi axı. Oğlanlar-qızlar ürəklərində niyyət tutub tonqalın üstündən atılır, gülüşərək deyirdilər, "ağırlığım, uğurluğum tökülsün".

*Piləmbəri,*
*Baxtı bəri*
*Baxtım açılsın!*

3-cü çərşənbə "torpağa baxırdı". Səməni üçün buğda aradılıb islağa qoyulurdu.

*Səməni,*
*Saxla məni,*
*İldə göyərdərəm səni.*

Bu çərşənbənin nəfəsi torpağı oyadırdı, gələcək qarşıdakı ilin taxıl məhsulu, ilin ruzusu bu çərşənbəyə, onun anamız torpağa verdiyi nəfəsə bağlıydı.

4-cü çərşənbə "küləyə baxırdı" - havaya nəfəs verirdi, nəfəsilə otlar, çiçəklər, torpaqlardan baş verir, qarı itələyib boylanan, yaza həsrət güllərini boynu bükük bənövşələr əvəz edirdi. Çox yerdə "İlaxır çərşənbə" də adlanan bu gün, deyərdim ki, bayram axşamı kimi çox əziz tutulurdu. Qızlar qulaq falına çıxırdı:

*Quzum bulağa çıxıb,*
*Enib bulağa çıxıb,*
*Siz allah, xoş söz deyin!*
*Yarım qulağa çıxıb.*

Söz arasında onu deyim ki, Novruz bayramı ərəfəsində, xüsusilə çərşənbələrdə, ələlxüsus İlaxır çərşənbədə narahat söz danışmaq olmazdı. Axı, kim isə bunu eşidər, falı pis alınar, bütün il uzunu nə narahatçılığı olsa, həmin sözə bağlardı. Axı falına pis söz çıxıb. Söyüş, qarğış, nifrin... kimi mənfiliklər qətiyyətlə qadağan idi və pislənərdi. Belə söz ağzından çıxan adamı dar-dar danlayardılar "Xalxın niyyətinə bəd fal açma" deyərdilər.

Axır çərşənbə əzizləri yada salar, xörək, xonça payı göndərərdilər. Valideynlərdən başqa heç yerə qonaq getmək olmazdı. Bu axşam və bayram axşamı mütləq hərə öz ocağının başında əyləşib, öz çırağını yandırmalıydı. Əzizlərin ruhu gəlib ocağın işığını görməsə, ailə başçısına "qarğış, nifrin edərdi". Hərə öz evində ailəsini başına toplayıb, əlvan xonça ətrafında şamların işığında, ləzzətli xörəklərlə şam edərdilər. Al xınalı əllər zəfəranlı plovu boşqablara çəkəndə, adamın iştahı artırdı.

Bayram axşamı əzandan xeyli əvvəl qəbr üstə gedib, əziz valideyn və başqa qohumları yada salmaq, qəbr üstə şam yandırıb diləçilərə şirniyyat paylamaq, ölənlərin ruhuna yasin oxutdurmaq adət idi. Amma qəbirdə yatan nə qədər əziz, yaxın olsa da, bayram axşamı şivən salıb, oxşamaq, ağı deyib ağlamaq yaramaz. Təəssüflə, rəhmətlə yad etmək lazımdır, vəssalam!

Novruz bayramı həm folklorumuzda, həm də poeziyamızda özünə müəyyən, layiqli yer tutub, ayrıca, geniş mövzudur. Amma bu əziz bayramdan, bu qədim bayramdan, bu qanımıza hopmuş bayramdan yazan şairlər içərisində ikisinin adını xüsusilə qeyd etmək istəyirəm. Əgər incə, romantik ruhlu şair Abbas Səhhət

*Gəldi Martın doqquzu,*
*Bayram etdik Novruzu.*

(köhnə stillə martın 9-na düşürdü) misraları ilə başlayan şe`rində vurğun-vurğun təbiətin gözəlliklərindən, təbiət mənzərələrinin Novruzun gəlişi ilə dəyişdiyindən, baharın təbiətə əlvan bayram libası geydirməsindən danışırdısa, uşaqların qəlbində romantik bir nəş`ə oyadırdısa, inqilabın alovlu satiriki Mirzə Ələkbər Sabir evlərində gur şamlar yanan, mətbəxlərindən quzu pilov, fisincan ətri qalxan, uşaqlarına zər-ziba geyindirən varlılarla zə-



manəsinin binəsiblərini qarşılaşdırır, əğniyalara qarşı bir üsyan qaldırırdı:

***Ey tökən mollaların kamına şərbət Novruz,***
***Əğniyalarla quran məclisi-işrət Novruz.***
***Səndə hər kəs sevinir, bəs niyə ancaq füqəra***
***Çəkir övladını gördükcə xəcalət, Novruz?!***

Bu epiqramması ilə səsləşən son şe`rlərindən birində dərin istehza ilə deyirdi:

***On bir ay nalə çəkib, ağlayıb ah-vay edərik,***
***Bir ayı ləbləbi-kişmiş yeyib oxqay edərik.***

- deyə xalqın cəhalətdə saxlanmasına qarşı e`tirazını bildirirdi.

Çərşənbələrin, bayram axşamının öz xörəkləri var. Hərə öz sınağına görə bişirər xörəyi. Amma İlaxır çərşənbə və bayram axşamında turşulu pilov bişirmək olmaz. Yə`ni narqovurma, turşuqovurma, sirkəpilov, zirincpilov bişirilməz. Bizim covqanın sınağı belədir. Yalançı çərşənbədə mərcipilov, xəbərçi çərşənbədə - Lobyaçilov balqabağnan, Birinci çərşənbədə (su) - narqovurma, ya turşuqovurma, ikincidə (od) paxlapilov, üçüncüdə (torpaq) səbziqovurma. İlaxır çərşənbədə çığırtma və ya şirinpilov, kişmiş qaysıyla, bayram axşamı toyuqpilov, amma turşməzə ləvəngi ilə deyil, şirin kişmiş qatla touyğu doldurub aşın altına qoyulan növündən.

Bayrama bir neçə gün qalmış şəkərbura, paxlava, badamburma, ballıbadı, şəkərtıxma, badamlı-püstəli halva, ədavalı halva və s. bişirilər. Yalnız hüzür olan "Qarabayram" keçirməli olan evlərdə şorqoğalı, külçə və umac hazırlanar. Belə qəmli olmayan evlərdə şorqoğalı bişirilməz. Bişiriləni də qəbr üstündə halva-külçə ilə birlikdə paylayarlar. Şorqoğalı bayram süfrəsi üçün hesab olunmaz.

Bayrama, hələ İlaxır Çərşənbəyə bir-iki gün qalmış evlər-eşiklər tərtəmiz təmizlənir, divarlar ağardılar, ilin pasından arınar, pal-paltarlardan biri də çirkli qalmamalıdır. Kəsafət hesablanar, "bayram küsər yoxsa". Bir gün irəli hamı hamamlanar, təzə bayram paltarı geyər, əllər-ayaqlar hənalanar, xınanı qızlar lap "qızyığdıdakı" kimi bir yerə toplanıb xına yaxarlar: saçlarına, əl-ayaqlarına isə müxtəlif alxına naxışları salarlar, qarılar, qocalar "fındıqca" xına yaxar, yə`ni yalnız barmaqlarının birinci buğumunu xınalayarlar. Bütün əl-ayaqlarını yox.

Bayramaxşamı pilovundan, müxtəlif şirniyyatdan xonça tutub əzizləri, xüsusilə nəslin yaşlı nümayəndələrini təbrikə getmək vacib idi. Küçələrdə əli bağlamalı cavanlar görünərdi. İlaxır çərşənbədə, eləcə də bütün başqa

çərşənbələrdə "yaylıq sallamaq" adəti var idi. Həmin qurşaqlara, yaylıqlara hədiyyələr, şirniyyat, bayram yemişi yığardılar. Bayram yemişi əsasən, quru meyvələrdən ibarət idi: alma qaxı, armud qaxı, gavalı, zoğal qurusu, alana (içi şəkərli qoz doldurulmuş incir və ya qaysı), buna bə`ziləri miyanpur da deyirdi. Xüsusi qovurğa qovurulurdu, yə`ni təmiz arınıb yuyulmuş buğdanı qovurur, içərisinə küncüt, çətənə, xırdalanmış qoz və fındıq, badam qatırdılar. Qocalar üçün həmin qovurğanı əl dəyirmanında (girgirə) çəkib, üstünə bəkməz (doşab) gəzdirərdilər, yumşaq olardı, qaşıqla yeyərdilər dişi olmayanlar.

İltəhvil vaxtı, yə`ni gecə ilə gündüzün tarazlaşdığı o anı anam xüsusi marağımıza səbəb olan hazırlıqla başlardı. Naxışlı mis məcməimizin ortasına əsil çinidən olan qədim lacvərdi kasamızı qoyar, içərisinə zə`fəranla adlarımızı yazardı. Sonra onun dövrəsinə bir quru balıq qoyar və yeddi qisim "s" hərfilə başlayan şey düzərdi: piyalədə SU, SƏMƏNİ, SÜMBÜL, SÜD, SƏNGSİTARƏ (ay başı) boyunbağı, üzü qozla bəzənmiş SUCUQ nimçəsi, SÜRMƏ. "S" ilə əşya və ya ərzaq tapmaqda çətinlik çəkəndə zarafata keçər, təklif edərdik:

- Ana, sirkə, sarımsaq, soğan...
- Olmaz! Turş, acı şeyləri yeni İltəhvil xonçasına düzməzlər.
- Onda "S" ilə səmək - balıq ərəbcə sıynan başlayır da...

Gülümsərdi, amma bizə heç nə deməzdi. O qorxunc, o ağır, o çətin 1937-39-cu illərdə çoxlarının Novruz bayramı adını çəkməyə dili belə gəlməyən vaxtlarda analarımız, qapı-pəncərəni yad gözlərdən bərkidib bizi süfrə başına, Novruz bayramı süfrəsinin dövrəsinə yığar, yavaş səslə də olsa hər birimizin bayramını təbrik edər, bu gözəl ən`ənəni unutmağa qoymaz, qoruyardı. Bax, bu bayram xalqımızın qəlbinə, şüuruna, məişətinə belə daxil olub; onu heç nəylə unutdurmaq olmaz.

Küsülülər mütləq barışar, kiçiklər böyüklərin görüşünə gedər. Amma belə də olurdu ki, qohumun ailə başçısı yoxdursa, nəslin böyüyü həmin külfəti özü gedib yoxlayır, bayramlaşır, kiçiklərin gəlməsini gözləmirdi. Çünki həmin ailənin "qəlbi sınıqdır, könül tikmək isə savabdır".

Bayram günlərində nəslin böyüklərini əvvəlcə, ehtiyacı olanları isə bundan sonra, amma mütləq yoxlar, bayramlaşar, hədiyyə verər, könül almağı bacarardılar.

Bayramlaşmalar kişilər arasında üç gün, qadınlar arasında on gün, bə`zən bir ay çəkərdi. Elə görərdin ki, dosilar, rəfiqələr, ailə üzvləri dəstə-dəstə bu evdən o birinə keçdi və bayramlaşdı. Şirniyyat evlərdə o qədər çox olardı ki, görüşlərin çoxundan şirniyyat dadmalı olanlardan bə`zisi "Bayrambəyi" olub xəstələnərdi də. Belə yüngül "xəstəliyə" zarafatla gülərdilər.



17789

Novruz günlərində səməniyə xüsusi qulluq edərdilər. Səməni həm külfət üçün, həm də əzizlənənlərin adına tökülərdi xüsusi mis sini və boşqablara. Onlara elə qulluq edərdilər ki, "ömrü uzun" olsun, tez saralıb-solmasın. Hər səhər su səpər, altının kiflənmiş rişələrini təmizlər, çox uzanıbsa ucun kəsər, saralanda sərin yerə, gec çıxanda isti yerə qoyardılar. Səməni evdə on iki gün qalmalıydı. On üçüncü gün anam əlimizdən tutub bizi "səməni axıtmaq" seyrinə apardı. Yüngül yemək götürər, səmənilərimizi təmiz dəsmala büküb aparardıq. Mütləq axar su, çay qırağı, Bakıda isə dəniz kənarına gedərdik. Səmənilərimizi axar suya buraxardıq. Bir dəfə də: "Səməni, saxla məni, ildə göyərdərəm səni" deyib yola salardıq. Səməni bərəkət rəmzidi, çörək, ne`mət, ruzu rəmzidir, axı. Onu zibilliyə atmaq olmaz! "Günahdı" deyərdilər. Pak suya axıdardılar. Sonra da sahildə, göy otların üstündə süfrə salar, birlikdə yüngül nahar edər, gəzişər və təzəcə boy verən yamyaşıl otlardan barmağımıza uyğun bir tutam tutar, ucunu yüngülcə burub üstünə xırdaca bir daş qoyar, "mənim sarılığım sənin, sənin təzə-tərliyin mənim" deyərdik. Bu bizim Novruz bayramındakı son diləyimiz idi, son ibadət kimi.

Bəlkə də anam yalnız öz kiçik yerli adətlərindən danışırdı, Vətənimizin başqa ellərində, kənd və şəhərlərində başqa daha gözəl, görməli, saxlamalı adətlərimiz var. Hamısını öyrənməliyik ki, heç biri unudulmasın. Əslində hamısı bir-birinə bağlı olan bu adətlərdə xalqımızın, ulu baba və nənələrimizin ürəyi, arzu və diləkləri mühafizə olunmuşdur. Keçmişi olmayan xalqın gələcəyi də yoxdur deyiblər. Biz də deyək iki olsun, üç olsun, istəməyənlərin könlü puç olsun.

Amma bircə şeyi də yada salmaq lazımdır. Çox deyirlər ki, bu bayram da dinidir. Amma "deyil" deyənlər çoxdur. Bizim bircə sübutumuz budur ki, əgər dini bayram olsaydı, Qurban bayramı kimi, Qədir gecəsi, Oruc bayramı kimi onun da namazı olardı, duası olardı. Halbuki, dünyamızda yeganə bayramdır ki, nə rəsmi, qeyri-rəsmi namazı var, nə duası. Namazı da, duası da bizim istəklərimiz, millətimiz, xalqımız üçün xoş olan arzularımızdır. Üzü gülər bayram yurdumuza xoş gəlir. Həmişə gəlişi qəlblərimizdə işıq, evlərimizdə şam, doqqazlarımızda tonqal yandırıb. Əbədi olsun.

...AŞASI

*NİZAMƏDDİN ŞƏMSİZADƏ*
**Filologiya elmləri doktoru, professor**

# ÜNSİYYƏT BAYRAMI

Yarandığı gündən bütün bəşəriyyət ünsiyyətə can atır. Şərq-türk təfəkküründə ünsiyyətə çatmağın ali formalarından biri Novruz mərasimidi. Kökü insanın yaranış, yer-göy haqqındakı əski təsəvvürlərə dayaqlanan, nəğmə və deyimləri mifik təfəkkürümüzün zoomorfik və kosmoqonik anlayışlarında təcəssüm tapan Novruz adi bayram deyil, tarixi-fəlsəfi bir özünüifa tərzidir. Ünsiyyət aliliyi-idrakın aliliyidir. Bu baxımdan Novruz cəmiyyətçiliyimizin, milli-mə`nəvi birliyimizin qədimliyini təsdiq edən ünsiyyət mərasimidir. Bu mərasim icra olunarkən nəinki uzaq-uzaq əqidə və düşüncə sahibləri səmimi bir əlaqəyə girir, hətta küsülülər barışır, qan düşmənləri doğmalaşır.

Tarixin təcrübəsi göstərir ki, azad cəmiyyət azad ünsiyyətdən başlanar. Ən amansız köləlik fikrin köləliyidir. Şüurun məhbəsi olan yerdə ruhun qanadları qırılar, insana ünsiyyət baş tuta bilməz.

Novruz bayramının keçirilməsi təkcə iqtisadi imkanları yox, həm də cəmiyyətin, insanların mə`nəvi-psixoloji halətini əks etdirir.

Novruz təsərrüfat, iqtisadi dirçəliş, iqtisadi təməl, əkinçilik - insanın torpaqla təmas bayramıdır. Onun nəğmə və şərqilərində, ayinlərində əməyə çağırış, bərəkət və bolluq təşnəsi ifadə olunur. Beləliklə də Novruz fəlsəfəsində həyat haqqında konsepsiya, sevinc və xoşbəxtlik barəsində ideal öz əksini tapıb.

Təbiətin, torpağın oyanışı-insanın oyanışı deməkdir. Belə ki, Novruz mərasimləri, xüsusilə günəşə, suya, işığa müraciət əsasında yaranmış, şərqi və şe`rlər göstərir ki, Novruz idrak anlamıdır, rəmz bayramıdır. Səməni dirçəliş, təzələnmə rəmzidir.

Novruzda qalibiyyət təntənəsi var: yaz qışa qalib gəlir, isti soyuğu məğlub edir, insanın qanı istilənir, o qan yaddaşının enerjisi ilə təbiətlə, ünsiyyətə girir, ona qovuşur. Baharın nəfəsi olan Bənövşə qalibiyyət nişanəsidir.

Görün təbiətin qüdrətli tərənnümçüsü H.Arif necə ilhamla yazıb:

***Sellər haray çəkir, çaylar gur axır***
***Açır yaxasını göy meşələr də***
***Qar altdan başını qaldırıb baxır***
***Yazın ilk sovqatı bənövşələr də.***



Novruz insansevərlik, humanizm bayramıdır. Ona görə də insanın milli ruhunu dustaq edən, onun əbədi və əzəli arzularını buxovlayan totalitar cəmiyyət və total ideologiya onu qadağan edə bilmədi.

Novruz şifahi bədii düşüncəmizin, el ruhunun qüdsiyyət bayramıdır. Professor Azad Nəbiyev çox doğru deyir: "Bu bayramın dinlərdən çox-çox əvvəl qədim insanların bolluq, bərəkət, qüdsiyyət, əmək, əkinçilik və məişət həyatı ilə bağlı yarandığını əks etdirən solmaz şəfəqləri zaman keçdikcə daha qüdrətli şö`lələnməkdədir..." Beləliklə, Novruz xalqın yaddışdan süzülən ulu sözün yükündən tutmuş söz-sənət, çal-çağır bayramıdır. Novruz sözümüzün, musiqimizin, rəqsimizin-sevinən ruhumuzun mərasimidir.

Novruz ruh və qan bayramı, sevinən ruhumuzun-qaynayan qanımızın güc və hüsn aldığı intibah günüdür.

***Novruz, Novruz, al Novruz.***
***Novruz, Novruz, qal Novruz***
***Novruz, Novruz xoş gəldin***
***Dolu gəldin, boş gəldin***
***Quru gəldin, yaş gəldin***
***Novruz, Novruz xoş gəldin.***

Novruz insanın təbiətə qovuşma, onun idrak məqamını əks etdirir. Burada torpağa məhəbbət ən parlaq hissdir.

Novruzda gecə və gündüz bərabərləşir, təbiətin harmoniyası bərpa olunur. Buna görə də Novruz vaxt, zaman, ömür bayramı hesab oluna bilər.

***Hecələr, hücələr***
***Uzanır gündüzlər***
***Qısalır gecələr***
***Sallanır torbalar***
***Bacadan***
***Uşaqlar pay istər***
***Ucadan:***
***- Xanım bacı dursana***
***Torbanı doldursana.***

Novruz ayinlərində və mərasim nəğmələrində əslə, kökə qayıdış, milli mənliyi uca saxlamaq qayəsi əks olunur. Novruz süfrəsi - milli bərəkət rəmzidir.

Novruz həm də nur, işıq və sevgi bayramıdır. Çünki dünyada ən böyük mədəniyyət insan ünsiyyəti, onun isə zirvəsi sevgi və eşqdir. Novruz sevgisi

ilahi nur və işıq üstə köklənib. Tonqallar və şamlar bu nur və sevginin ifadəsidir. Novruzu nur kimi qəlbində və əməllərində xalq üçün yadların və yağıların qəzəbindən qoruyub saxlamış Şıxəli Qurbanov necə də gözəl deyib:

***Şamlar, bayram şamları,***
***Bu bayram axşamları***
***Məni də yandıraydı***
***Sizi yandıran əllər.***

Gəlin qəlbimizi VƏTƏN üçün şam kimi yandıraq. Qoy bütöv Azərbaycanın hər obasında Novruz şamları yansın, onu AZADLIQ nuruna qərq etsin.

***VAQİF SULTANLI***
***Filologiya elmləri doktoru, professor***

# TƏLXƏKLİK VƏ TƏLXƏK OBRAZI

Təlxəkliyin tarixi qədim dövrlərə gedib çıxdığı kimi, ədəbiyyatımızda təxək obrazının da bir çox klassik nümunələri vardır.

Qədim və orta əsrlərdə istər Şərqdə, istərsə də Qərbdə hökmdar saraylarında təlxəklər müəyyən səlahiyyət sahibi olmuş, bir sıra mühüm dövlət vəzifələri onların əlilə icra edilmişdir.

Təlxəklik ilkin çağlarda ciddi funksiya daşımış, sonralar tədricən əvvəlkindən kəskin surətdə fərqlənən yeni məqam və mahiyyət kəsb etmişdir. İlk dövrlərdə ciddi məqam sahibi olan təlxəklər, sonralar hökmdarı və saray məclislərini şənləndirmək vəzifəsini icra etmişlər. Buna görə də bu gün dilimizdə işlənən təlxək məfhumu klassik mə`nasından büsbütün fərqli səciyyə daşımaqdadır.

XI və XV-XVII əsrlər Şərqdə təlxəkliyin çiçəkləndiyi dövrlər olub. Təlxəkliyin saraylarda gücləndiyi dövrlərdə bu xalq arasında da yayılmış və təlxəklər kənd-kənd, mahal-mahal gəzərək xalqı əyləndirməklə pul qazanmışlar. Bu cür təlxəklərin repertuarında şən mahnılar, gülüş doğuran dramatik səhnələr, əyləncəli söhbətlər əsas yer tutmuşdur.



Lakin XVIII əsrdən e`tibarən təlxəklik tədricən tənəzzül keçirməyə başlamışdır. Bununla belə XX əsrin əvvəllərinə qədər Şərq hökmdarlarının saraylarında təlxəklər fəaliyyət göstərmişlər.

Qeyd edək ki, saraylarda saxlanan, hökmdarla tez-tez ünsiyyətdə olan təlxəklər hər adamdan seçilməzdi. Təlxəklər gülüş doğurmaq bacarığından əlavə, hazırcavablığa, dərin mə`lumata, bilik və savada malik olmalıydılar. Onlar incə zövqlü olmalı, tükü-tükdən seçməli, fikirlərini eyham və sətiraltı mə`nalarla ifadə etməyi bacarmalıydılar. Bu gün xalq arasında işlənən "Sözün doğrusunu zarafatla deyərlər" kəlamının arxasında təlxəklikdən gələn məzmun və funksiya gizlənməkdədir.

Təlxəyin söz savaşında hökmdar da daxil olmaqla məclisdəkilərə məğlub olması onun fərasətsizliyi demək idi. Belə təlxəklər saraylardan uzaqlaşdırılardı. Ona görə də təlxəklik böyük cəsarət tələb edirdi. Və böyük cəsarət sahibi olan təlxək eyni zamanda son dərəcə ehtiyatlı olmalı, sözü harda və nə zaman demək lazım olduğunu bilməliydi. Çünki ehtiyatsız və yersiz söz hər an təlxək üçün ölüm və e`damla üz-üzə dayanmaq demək idi. Qanunların kağız üzərində belə olmadığı, hər şeyin hökmdarın əhvali-ruhiyyəsinə köklendiyi Şərq mühitində həqiqəti söyləmək isə o qədər asan deyildi. "Siyasətnamə" müəllifi Nizamülmülk tanıdığı bir təlxəyin hər dəfə saray məclislərini əyləndirdikdən sonra gizli hücrəyə çəkilərək acı-acı göz yaşı tökdüyünü qeyd edir.

Şərq ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da təlxək obrazının mənfi və müsbət çalarları vardır. Belə ki, əsas vəzifəsi hökmdarları əyləndirmək, onların təlx ovqatını yüngülləşdirmək, saray məclislərini şənləndirmək olan təlxək zarafata salıb həqiqəti söyləyən, hökmdarların eybini açan bir obraz kimi düşünülmüşdür.

Təlxək obrazına ilk öncə xalq ədəbiyyatında təsadüf olunur. Xüsusilə, nağıllarımızda onun maraqlı, yaddaqalan nümunələrinə rast gəlinir. Sonralar bu obraz yazılı ədəbiyyata da yol tapmış, Nizami Gəncəvidən üzü bəri epik şe`rin bir çox örnəklərində onun təkrarsız obrazı yaradılmışdır.

Uzun müddət Şərq ədəbiyyatşünaslığında təlxək obrazı mənfi mə`nada səciyyələndirilib, təlxəklik məfhumu birtərəfli şəkildə dərk olunub. Onu yalnız yüngül xasiyyətli, kloun, gülüş doğurmaq üçün cürbəcür oyunlardan çıxan bir şəxs kimi qiymətləndiriblər.

Təlxəklik missiyasının daha vacib olan digər tərəfi - həqiqəti söyləmək, xalqın problemlərinə toxunmaq, saray əyanı və hökmdarın eyib və nöqsanlarını söyləmək və s. amillər unudulmuşdur.

Tarixdə şairlərin təlxəklik etdiyi məqamlar da olmuşdur. Həqiqəti söyləməyin çətin olduğu və böyük cəsarət tələb etdiyi dövrlərdə təlxəklik pərdəsinə bürünərək zəmanənin eyiblərini açmaq vəzifəsi bə`zən şairlərin tale-

yinə yazılmışdır. Çox təəssüf ki, bu günün saray şairləri yaşadıqları zəmanə və təbəəsi olduqları hökmdar haqqında tarixin gülünc yerinə qoyduğu təlxəklər qədər fikir söyləmək cəsarətinə malik deyillər.

Bizim zəmanəmizdə təlxəklik bayağı mə`nada cəmiyyət şüurunun əsas atributlarından birini təşkil etməkdədir.

*MÜBARİZ SÜLEYMANLI*
***Sənətşünaslıq namizədi***

## *BAHAR BAYRAMI TƏBİƏT HADİSƏSİ KİMİ*

Bəşəriyyətin varlığı gecə və gündüzün, eləcə də fəsillərin bir-birini əvəz etməsi ilə bağlıdır. Yazın gəlişi ilə bağlı törənlər, mərasimlər Orta Asiyadan, Dağlıq Altaydan, Azərbaycan və Türkiyədən tutmuş Avropaya qədər yayılmışdır.[1] Hər xalqın təbiətə münasibətindən asılı olaraq bu törən-mərasimlər müxtəlif formada keçirilmişdir. Ulu babalarımız yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirərək onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Əksər xalqlarda bu və ya digər formada qeyd edilən belə şənliklər Yerin şimal yarımkürəsində astronomik yazın başalandığı gecə və gündüzün bərabərləşdiyi günə təsadüf edir.[2]

Novruz Şərq xalqlarının islamdan çox-çox əvvəlki əkinçilik, məhsul bolluğu e`tiqadları ilə bağlı bayramlarındandır. Bu bayramın tarixi kökləri, ayrı-ayrı görüş və e`tiqadlarla əlaqəsi, zərdüştilik və islam mədəniyyəti ilə bağlılığı orta əsrlərdən bu günə qədər mübahisə obyekti olmuşdur. Bayramın hüdudları genişləndikcə hər bir xalq onu öz milli məişəti ilə bağlamağa çalışmış və beləliklə, bu haqda müxtəlif mülahizələr, adət-ən`ənələr, mərasimlər, əsatirlər, rəvayətlər yaranmışdır. Türk xalqları da ümumxalq bayramı hesab etdikləri bu bayrama öz milli xüsusiyyətlərini əks etdirən cəhətlər vermişdir. Lakin bütün müxtəlifliklərə baxmayaraq, demək olar ki, hər yerdə bu bayramı yeni ilin başlanğıcı hesab etmiş, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdirmişlər.[3]

1. M.Seyidov. Yaz bayramı. Bakı, Gənclik, 1990, s.9.
2. ASE, VII cild, Novruz bayramı məqaləsi. s.284.
3. M.A.Süleymanov. Novruz (tarixi kökləri). Metodik vəsait, Bakı, 1998, s.14.



Novruz bayramının mənşəyi və mahiyyəti haqqında Əbülqasim Firdovsinin "Şahnamə"sində, Ömər Xəyyamın "Novruznamə"sində, dövrünün ensiklopedik alimi Əbu Reyhan əl-Biruninin "Keçmiş nəsillərdən qalan izlər" əsərində, Nizam əl-Mülkün "Siyasətnaməsi"ndə, klassik ədəbiyyatımızın görkəmli nümayəndələri Əfzələddin Xaqani, Nizami Gəncəvi, Qətran Təbrizi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq, habelə Mirzə Kazım bəy, Əlibəy Hüseynzadə, Yusif Vəzir Çəmənzəminli, Məmməd Əmin Rəsulzadənin yaradıcılığında ətraflı mə`lumat verilmişdir. Qadağalara və məhdudiyyətlərə baxmayaraq Novruz bayramı sovet dövründə də tərənnüm edilmişdir. Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Həmid Araslı, Bəxtiyar Vahabzadə kimi şair və yazıçılarımız bu mövzuya dönə-dönə qaytmışlar. Cənubi Azərbaycan ədiblərindən Məhəmməd Hüseyn Şəhriyarın Bahar bayramı ilə bağlı yazdıqları isə xalq ruhu ilə yoğrulmuş əsil sənət inciləridir.

Novruz bayramının tədqiqi ilə məşğul olan son dövr alimlərindən Məmməd Arif, Mirəli Seyidov, Nəsir Rzayev, Elməddin Əlibəyzadə, Əzizə Cəfərzadə, Azad Nəbiyev və özlərindən əvvəlki zəngin irsi araşdıran əksər müəlliflər Novruzun uzun zamanlardan bəri davam edib gəlməsinin səbəbini hər şeydən əvvəl, onun təsərrüfatçılıqla, xalqın əmək və məişəti ilə bağlı olmasında axtarırlar.[1] Həqiqətən də təbiət hadisələrinin rolu əsas e`tibarilə maldarlıq və əkinçiliklə məşğul olan xalqların həyatında daha böyük olmuşdur. Baharın gəlməsi, təbiətin oyanması sayəsində çöllərin laləzara dönməsi, bağların və meşələrin yaşıl don geyməsi, mal-qaranın çölə çıxması, döl tutması və bunlar kimi insanların istəyindən asılı olmayan təbii hadisələr qədim insanlar üçün bolluq və bərəkət gətirən müqəddəs hadisələrdir. Bu hadisələr insanları təbiətə uyğunlaşmağa, arandan dağa, dağdan arana köçməyə məcbur edir, bununla yanaşı, onların mə`nəvi aləminə də müəyyən dərəcədə tə`sir göstərirdi.

Klassik Şərq ədəbiyyatının doymadan tərənnüm etdiyi Novruz bayramını çox vaxt ayrı-ayrı tarixi və əfsanəvi şəxsiyyətlərin adı ilə bağlamağa çalışmışlar.[2] Şərq xalqlarının sitayiş etdikləri, e`tiqad bəslədikləri, inam gətirdikləri dinlərin də Novruza münasibətləri eyni olmamışdır. Belə ki, bütün yeni yaranmış dinlər özündən əvvəlki e`tiqad və təsəvvürləri yaddaşlardan silməyə cəhd etmiş, lakin bunun mümkün olmadığını gördükdə bu mərasimlə-

1. Bu barədə ətraflı bax: M.Dadaşzadə. Azərbaycan xalqının orta əsr mə`nəvi mədəniyyəti. Bakı, Elm, 1985; N.Rzayev. Əcdadların izi ilə. Bakı, Azərnəşr, 1992; Novruz (toplayanı, tərtib edəni, ön sözün və qeydlərin müəllifi A.Nəbiyev). Bakı, 1989.
2. Y.V.Çəmənzəminli. Azərbaycanda zərdüşti adətlər. Novruz. Əsərləri. III cild, Bakı, 1977; M.Hatəmi (Tantəkin). Novruz bayramının mənşəyi haqqında. Az.SSR EA-nın xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası) 1970, N3, s.14-20.

ri "özününküləşdirməyə" sə`y göstərmişlər. Əslində isə astronomik hadisələrlə bilavasitə bağlılığı olan Novruz bayramının həqiqi mahiyyəti özünü sırf təbiət hadisəsi olmasında büruzə verir. Belə ki, əgər Yer kürəsinin müəyyən bir hissəsində fəsillərin dəyişməsi hiss olunmursa, təbiətin canlanması müşahidə olunmursa, bütün il boyu iqlim şəraitində mühüm fərq görünmürsə, demək, həmin ərazidə yaşayan xalqların həyatında da astronomik hadisənin - yazın gəlişinin mühüm əhəmiyyəti ola bilməzdi. Misal üçün, ərəblərdə Novruz ən`ənəsi yoxdur. Onlara iranlılardan "Neyruz", "Nayruz" şəklində keçmişdir. Ərəblər bu günə-gecə ilə gündüzün bərabərləşdiyi günə "Birinci itidaliyun" adını veriblər. Payızda gecə ilə gündüzün bərabər olduğu gün isə "İkinci itidaliyun" adını daşıyır.[1]

Yazın gəlişinə ehtiyacı da məhz o xalqlar duymuşlar ki, həmin bölgədə fəsillərin bir-birini əvəz etməsi hadisəsi hiss olunmuşdur. Qışın oyuğundan, azuqələrinin qurtarmasından əziyyət çəkən ibtidai insan mağaradan və ya hər hansı bir daldanacaqdan çıxaraq həyatı tə`minatını ödəmək üçün səbirsizliklə yazın gəlməsini gözləmişdir. Elə buradaca Yaz bayramının ayrı-ayrı xalqların, dinlərin, şəxsiyyətlərin adına bağlanması üstündə gedən mübahisələrə son qoyulur və Novruzun mahiyyəti dərk olunur.

Tədqiqatçıların yazılarına, Novruz haqqında söylənilən fikirlərə və müxtəlif tarixi mənbələrə istinad edərək söyləmək olar ki, Novruzun nə tarixi və əfsanəvi şəxsiyyətlərlə, nə atəşpərəstliklə, nə zərdüştiliklə, nə də islam dini ilə mənşə e`tibarilə bağlılığı yoxdur. Baharın gəlişi münasibətilə icra olunan oyunların, rəqslərin, onların xüsusiyyətlərinin, göstərilən hərəkətlərin, oyun ərəfəsində avazlanan təkərləmələrin, sual-cavabların, kilidləmələrin, öyüdləmələrin tədqiqi sübut edir ki, Novruz mərasimlərinin kökləri insan cəmiyyətinin ibtidai icma dövrü ilə səsləşir.

Novruz bayramının dərin tarixi köklərini, ulu qatlarını kiçik ərazilə məhdudlaşdırmaq olmaz. Onu daha əhatəli miqyasda arayıb-axtarmaq lazımdır. Ta qədimdən bu günə qədər Novruz bayramının mənşəyi ilə bağlı olan və bu bayramı yalnız türk, fars və hər hansı xalqın adı ilə bağlayan müəlliflərin fikirləri əsassızdır, onlar arasında gedən mübahisələr əbəsdir, ədalətsizdir. Həqiqət isə bundan ibarətdir ki, Novruz - yazın gəlişinə, torpağın yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır. Novruz - həyat, hürriyyət, gerçək bir təbiət bayramıdır.[2]

1. "Xəzər" jurnalı. 1990, N2, s. 58-72.
2. Bax, M.Ə.Rəsulzadə. Novruz bayramı. "Azərbaycan" (Ankara), mart 1954, N12 (24), s.5-7.



*İRADƏ MƏMMƏDBƏYOVA*
***Pedaqoji elmlər namizədi***

# *TƏHVİL SAATININ MAHİYYƏTİ HAQQINDA*

Xalqımızın əsrlərdən bəri qoruyub saxladığı bayram mərasimləri içərisində ən təntənəli qeyd olunanı Novruzdur. Bu bayram haqqında ziddiyyətli fikirlər söylənmiş, müxtəlif əfsanə və rəvayətlərə əsaslanaraq yanlış hökmlər verilmişdir. Lakin çoxsaylı tədqiqatlar nəticəsində sübut edilmişdir ki, Novruz ən`ənəsinin uzun zamanlardan bəri davam edib gəlməsinin səbəbi, hər şeydən əvvəl, onun xalq təsərrüfatı ilə, xalqın əmək və məişəti ilə bağlı olmasıdır.[1] Çünki, yaz ibtidai insanın həyatında həmişə başlıca rol oynamışdır. Buna görə də insan təfəkkürü istər-istəməz onu izləmiş və beləliklə də bu durum Azərbaycanın ilk təqvim anlayışının yaranmasına təkan vermişdir. Təbiətlə insanın dürlü şəraitdə qarşılaşması yazla bağlı mərasimləri də meydana gətirmişdir. Deməli təqvim hər şeydən qabaq fəsillər, vaxt anlayışı ilə bağlıdır. Bu anlayışı həyatın, yaşayışın tələbi doğurmuş və təkmilləşdirmişdir.[2] Novruz mərasiminin ən əhəmiyyətli və maraqlı cəhəti də məhz təqvimlə bağlı olan təhvil saatıdır.

Qədim vaxtlardan üzü bəri Novruz mərasimləri bayram gününə bir ay qalmışdan başlanır və dörd çərşənbənin hər biri təntənəli qeyd edilir. Təntənələrin zirvəsini isə il təhvili və ya təhvil saatı təşkil edir. Həmin gün bayram mərasimi təhvil süfrəsinin hazırlanması ilə başlanır. İlin başa çatmasına bir neçə saat qalmış təhvil süfrəsi açılır. Ta qədimdən bu süfrədə şirni, şam, ayna, göy, noğul, narınc, lumu, gülab, qırmızı yumurta və içərisində balaca balıq salınmış bir qab su olurdu. Bunlardan əlavə bayram süfrəsinə zeytun, heyva, nar və söyüd ağacının budaqlarından qoyurdular. Azərbaycan xalqının mə`nəvi mədəniyyət tarixini tədqiq edərək M.Dadaşzadə yazır ki, bayram süfrəsinə qoyulan şeylər orta əsr mənbələrində - həft sin adı ilə məşhurdur. Bayram süfrəsinə düzülən yeddi şeyin adı "S" hərfi ilə başlanan söz olmalı idi. Bu şeylər sumaq, sarımsaq, sirkə və sairədən ibarət idi. Orta əsrdən başlamış bu günə kimi bayram süfrəsinə yeddi növ meyvə, şam və qırmızı yumurta ilə bəzədilmiş xonça qoyulur.[3] Novruz süfrəsi xalqın ən milli süfrəsi

1. Ə.S.Məmmədov., H.A.Quliyev. Azərbaycan adət və ən`ənələri. Bakı, 1966, s.16.
2. M.Seyidov. Yaz bayramı. Bakı, Gənclik, 1990, s.6, 95.
3. M.Dadaşzadə. Azərbaycan xalqının orta əsr mə`nəvi mədəniyyəti. Bakı, Elm, 1985, s. 112-113.

hesab edilir. Buraya əsasən, milli yeməklər, aş, şirniyyat, qovurğa, ləpə və s. qoyular, süfrədə şam yandırılardı. Bayram süfrəsi Novruz şamları yandırıldıqdan sonra açılardı. Ailənin bütün üzvləri süfrə qırağında əyləşər, bayram xörəklərindən yeyərdilər.[1]

Ailə başçısı süfrəyə əyləşməmiş xonçaya əl uzatmağa kimsənin ixtiyarı olmazdı. O, ilin təhvil olmasına bir neçə dəqiqə qalmış süfrə başında salınmış döşəkçə üstə oturaraq, arxasına qoyulmuş nazbalışa söykənir. Hamı xonçanın başına toplaşdıqdan sonra bir qədər bayram yemişində yeyir, anaları südlü plov qazanını yerə qoyur, hər uşağın payını öz boşqabına tökərək verir. Südlü plov yeyilib bitdikdən sonra süfrə yığılır.[2]

İran türklərinin il dəyişməsini təsvir edən Zeynalabdin Makas isə yazır ki, bayrama qədərki şənliklərdə coşqunluq, bayram günündə isə təmkinlilik və ağır başlılıq əsasdır. İranın hər tərəfində olduğu kimi, Ərdəbildə də il təhvil olduğu zaman hər kəs yeddi sin süfrəsində olmalıdır. Bu yeddi sin, baş hərfi "S" ilə başlayan sirkə, sarımsaq, səbzi, sumaq, sikkə, saat və sudan ibarətdir ki, bunların da hər birinin öz mə`nası vardır. Bu arada bir qab içərisində balıq başı ilə toyuq köksünü süfrədə bulundurmaq da adətdir.[3]

Azərbaycanda hər bir zonanın xüsusiyyətindən asılı olaraq süfrəyə düzülən şeylər də müxtəlif olurdu. Bayram axşamı bütün ailə üzvləri bir yerə toplaşırdılar. Səfərə getməli olanlar bu işi təxirə salırdılar. Bu axşam heç kəs başqasının evinə getməzdi.

Hələ orta əsrlərdə ilin təhvilinə az qalmış bütün ailə üzvləri süfrə başında səbirsizliklə təhvil saatının gözləyərdilər. Kənd, qəsəbə və şəhərlərdə hakimin əmri ilə yüksələn top, təbil, şeypur, tütək səsləri ilin təhvil olduğunu xəbər verirdi. Bu xəbərdarlıqdan sonra ailə başçısı hər bir ailə üzvünə üç parça nabat və ya şirni, üç xırda pul və üç qaşıq bal verirdi. Süfrəyə təzə pendir və qatıq da qoyulurdu. İl təhvil olduqda hakimin yaşadığı binanın damı üstündə böyük tonqal yandırılırdı. Bu, eyni zamanda yeni ilin başlandığını xəbər verirdi.[4]

İl təhvili zamanı ailə üzvlərindən biri Qur`an oxuyardı. Digərləri sevinclə onu dinlərdilər. Qur`an oxuma fəsli bitincə, balıq atılar. Sonra evdəkilər bir-birinin bayramını təbrik edərlər və yaxın qohum-qonşunun ziyarətinə gedərlər. Bu arada ailə başçıları toplanıb köhnə ildə evindən cənazə çıxanların evlərinə gedərdilər. Beləcə onların acılarını bir daha paylaşmış olurdular.[5]

1. A.Nəbiyev. Novruz (toplu). Bakı, Yazıçı, 1989, s.13.
2. H.Sarabski. Köhnə Bakı. Bakı, Yazıçı, 1982, s.132-133.
3. Z.Makas. Türk milli kültüründe Nevruz. İstanbul, 1987, s.64-65.
4. M.Dadaşzadə. Göstərilən əsəri, s.113, 116.
5. Z.Makas. Göstərilən əsəri, s.64.



Son vaxtlara qədər ailə üzvləri bayram süfrəsi başında ailə başçısının Novruz duasını dinlərdilər: "Ey qəlbləri və gözləri dəyişdirən, ey gecəni və gündüzü təqdir edən, ey hal və şərtləri başqalaşdıran Allah, bu günkü durumumuzu daha yaxşı bir duruma inqilab etdir".[1] Xalqımız ən çətin zamanlarda belə bütün qadağaları aşaraq təhvil saatını böyük sevinclə yaşamışdır.

*İLQAR HÜSEYNOV*
***Pedaqoji elmlər namizədi***

# *ƏKİNÇİLİK ƏN`ƏNƏLƏRİ NOVRUZ BAYRAMININ ZƏMİNİ KİMİ*

Novruz bayramının bə`zən milli, bə`zən dini, bə`zən də dəyişik adlar altında keçirilməsinin səbəbləri nədir, bu səbəblər qaynağını haradan, hansı şərtlərdə, nə kimi hadisələr nəticəsində, nə zaman və hansı məqsədlə almışdır? Bu və ya bu kimi Novruza aid başqa sualların cavabını arxeoloji abidələrdə, incəsənət əsərlərində şifahi və yazılı qaynaqlarda arayıb-araşdıran müəlliflərin qənaətləri də sualların özü qədər müxtəlif, rəngarəng və hətta ziddiyyətli, müəmmalı, mübahisəlidir. Tədqiqatçı alimlərin bir-biri ilə uzlaşan, üst-üstə düşən fikirləri içərisində Novruzun qədim əkinçilik bayramı olması daha çox təqdir edilir.

Tarixin ayrı-ayrı mərhələlərinə həsr edilmiş tədqiqatlardan mə`lum olduğu kimi Yaz bayramı kimi mövsümlərin dəyişilməsindən doğan əlamətdar günlər başqa-başqa adlar altında bir çox millətlərin sosial həyatlarında mövcuddur. Türkiyəli tədqiqatçı Zeynalabdin Makas "Türk milli kültüründə Novruz" adlı əsərində Novruzu mövsümün dəyişməsi, yazın qışı əvəz etməsi, torpağın oyanması, insanların əkinə başlaması kimi araşdırır. Alim qışla yazın insan ruhu üzərində buraxdığı mənfi və müsbət tə`sirlərin təzahürlərini bir kənara buraxaraq və sadəcə rəng mövzusuna toxunaraq yazır: "Bir yanda hər tərəfi kaplayan sadəcə bir rəng, digər yanda yaşılın dəyişik tonları arasına sərpişdirilmiş əlvan-əlvan rənglər. Birisində şəkil yox; digəri şəkilli, birisi sağır və dilsiz, digəri həm insanı duyuyor, həm də ona bir şeylər fısıldıyor.

1. M.A.Süleymanov. Novruz (tarixi kökləri). Metodik vəsait. Bakı, 1998, s.61.

Birində təbiət canlı, digərində uyuşuq, uykuda və ölü".[1]

Təbiətdəki hadisələr insanı daim narahat etmiş və düşündürmüşdür. İnsanın diqqətini cəlb edən təbiət hadisələrindən biri, bəlkə də lap ilkini qışla yazın əvəzlənməsi olmuşdur. Zəngin yaradıcılığında bu mövzunu bütün yönləri ilə tədqiqata çəkən folklorşünas alim, mərhum M.Seyidov Novruzu insanlığın ilk çağları ilə bağlayır. Onun fikrincə "yazın gəlişi, hər iki fəslin arasında təbii mübarizə ilk ovçuluqla, maldarlıqla, əkinçiliklə uğraşan - məşğul olan insanı, onun kiçik, böyük toplusunun içindən çıxan müdrikləri, ilkin biliciləri, təbiət hadisələrini az-çox götür-qoy edənləri, filosofları düşdündürmüşdür... Bu ilkin görüşlər nə qədər dürlü olsalar da onların özülü, kökü, mayası birdir - ana təbiətdir".[2] Təbiətdə baş verən hadisələr az-çox aydınlaşdıqca bayramların həqiqi mahiyyəti də bir o qədər dərindən dərk edilir. Aydın olur ki, Novruz bayramı öz mənşəyi e`tibarilə dini mahiyyət daşımayıb, xalqın baharda başlanan təsərrüfat, əkinçilik həyatı ilə əlaqədar olaraq ortaya çıxmışdır. Odur ki, qədim Azərbaycanda baharın, xeyir və bərəkətin simvolları olmuş öküz və marala xüsusi, doğma bir münasibət olmuş və onlara çoxlu miqdarda təsviri sənət əsərləri həsr edilmişdir.[3] Mövsüm mərasimlərindən bəhs edən Cavad Hey`ət də bu bayramı ibtidai insanların e`tiqadları, təbiət hadisələrinə qarşı münasibətləri və əmək fəaliyyəti ilə əlaqələndirir. "Əkinçilik, maldarlıq, ovçuluq və bu kimi işlərlə də bağlı olaraq mərasimlər təşkil edilmişdir. Mövsüm mərasimləri içərisində ən çox yayılanı yeni il - Novruz mərasimidir".[4] Mövsüm mərasimlərinin ibtidai insanın əmək fəaliyyəti ilə bağlılığı onun dini bayramlardan daha qədim və dərin köklərə malik olduğunu təsdiqləyir. Bunu Novruz bayramının əzəməti də sübut edir. İstər qədim dövr və orta əsrlərdə[5], istərsə də son vaxtlarda[6] "Novruz" digər bayramlardan, hətta qurban və orucluq bayramlarından dəfələrlə artıq bir təntənə ilə keçirilmişdir.[7] Novruz bayramı təbiətə bütün varlığı ilə bağlı olan ulu babalarımızın adət və ən`ənələrilə əlaqədardır.[8]

Novruz mərasimi xalqlarımızın həyat tərzi, məişəti, əmək fəaliyyəti ilə sıx bağlı olmuş və onların təbiətə yanaşmasından yaranmışdır. Təbii ki, hər xalqın tarixən formalaşmasının, həyat yolunun xüsusiyyətləri, yaşadığı ölkənin coğrafi vəziyyəti ona bir-birindən fərqli milli cəhətlər bəxş etmişdir. İqlimin təkrarolunmaz və gözlənilməz zadisələri də bayramalara öz tə`sirini göstərmişdir.[1] Professor A.Nəbiyev mövzunu şərh edərək bu fikrə gəlir ki, daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların istiləşməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bütün bu ilkin, ibtidai sənət nümunələri isə sonralar Novruz ətrafında cəmləşmişdir.[2]



Tarixçi alim T.Bünyadov Novruzu qədim Şərq ölkələrində yaşayan, oturaq güzəran keçirən və yüksək əkinçilik mədəniyyətinə malik olan xalqların ixtirası, kəşfi, onların bəşərə bəxş etdikləri zəngin mə`nəvi dünya kimi qiymətləndirir. Azərbaycan ərazisi əkinçilik və maldarlıq təsərrüfat sahələrinin ilk ocaqları və mərkəzlərindən olduğu üçün Azərbaycan xalqının da bu bayramın təşəkkül tapmasında, inkişaf etməsində öz töhfəsi, öz payı və öz yeri vardır. Əkinçiliklə məşğul olan tayfalar xoş güzəran uğrunda mübarizə aparmış, qurub-yaratmaq əzmilə məşəqqətlərə sinə gərmiş, əqlin, düşüncənin gücünə arxalanaraq, alın tərləri, qabarlı əllərilə tərəqqiyə, təkamülə can atmışlar. Şərq ölkələrilə qarşılıqlı iqtisadi və mədəni əlaqələrin yaratdığı əlverişli şərait tədricən Novruz bayramının ilkin izlərinin yaranmasına və təşəkkül tapmasına əsaslı zəmin hesab edilə bilər.[3]

Deməli yaz, onunla bağlı mərasim başlıca olaraq maldarlıqla, əkinçiliklə, bir sözlə aqrar təsərrüfatla bağlı yaranmış və xalqı gələcək məhsulun uğurlu olması üçün zəhmətə, fəaliyyətə səsləmişdir.[4] Sonralar insanlar özlərinin həyat, sağlamlıq, təmizlik, əmək vərdişi ilə bağlı bir çox ayin, e`tiqad və mərasimini Novruzla bağlamış, beləliklə də onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olmuşlar. Əkinçinin etik fəlsəfi dünyası səviyyəsinə yüksələn mərasim şənlikləri təbiiliyi, səmimiliyi ilə səciyyəvidir. Novruz torpağa, onu sevməyə, əzizləməyə, torpaqdan daha bol ne`mət götürməyə çağıran əməkçi xalqın bayramıdır. Novruz başdan başa ruh yüksəkliyi, əmək coşğunluğu, torpağa, insana məhəbbət bayramıdır.[5]

1. Mirzə İbrahimov. Novruza layiq hədiyyə. Novruz (toplu), Bakı, Yazıçı, 1989, s.5.
2. Azad Nəbiyev. Elin əziz bayramı. Yenə orada, s.7.
3. Teymur Bünyadov. Novruz bayramının tarixi kökləri. Yenə orada. s.120-125.
4. Mirəli Seyidov, Göstərilən əsəri, s.95.
5. Azab Nəbiyev. Göstərilən məqaləsi, s.7-14.

*MEHMAN MƏMMƏDOV*
***Filologiya elmləri namizədi***

# *NOVRUZ - YAZ MƏRASİMİNDƏ MİFOLOJİ ÜNSÜRLƏR*

Novruz - yaz bayramı təbiətin oyanışı ilə bağlı əski təqvim mərasimi olduğundan onun tərkibini təşkil edən komponentlərin müəyyən hissəsi mifoloji səciyyəvi ünsürlərdir. Bayram mərasiminin mifoloji səciyyəvi komponentlərinin bir qismi rəng simvolikası ilə bağlıdır. Səməni - yaz, yaşıllıq; qırmızı boyanmış yumurta - günəş, havaların isinməsi, iqlimin yumşalması mifik inamının ifadəsidir.

Şirniyyat və nəğmə - musiqi vasitəsi ilə ifadə olunan psixoloji ovqat da mifoloji səciyyəlidir. Qədim insan belə bir təsəvvürdə olmuşdur ki, nəğmə-musiqi və şirniyyat vasitəsi ilə himayəçi ruhları çağırmaq, bəd ruhları isə qovmaq mümkündür. Axşamüstü ocaq yandırmaq, tonqal qalamaq, qaranlığa lopa - alov saçan kösöv atmaq da qışı - qara qorxunu, çətinliyi, soyuq, aclıq, xəstəlik gətirən bəd ruhları qovub uzaqlaşdırmaq məqsədi daşıyan rəmzi - mifoloji aktlardır.

Novruz bayramında axar su üstündən adlamaq, qablardakı suyu təmizləmək, su ilə bəxt falına çıxmaq və s. bu kimi elementlər qədim insanın suya bağlı mifoloji inanışlarını əks etdirir. Əski mifoloji təsəvvürə görə su həyatın, yaşayışın rəmzidir.

"Kosa-kosa" oyun mərasimindəki "Kosa", "Keçəl", "Keçi" obrazları da mifoloji məzmun kəsb edir. Burada "Kosa" və "Keçəl" qış , "Keçi" isə baharla bağlı mifoloji simvolikanın ifadəsidir.

Oyun-tamaşanın sonunda Keçinin Kosanı öldürməsi yazın qışa qalib gəlməsi anlamındadır.

Novruz mərasimində icra olunan digər oyun-tamaşaların məqsədi və tarixi-semantik funksiyası da təbiətə tə`sir göstərmək, ilin-günün yeniləşməsini, baharın uğurlu gəlişini tə`min etməkdir.





***İRADƏ KÖÇƏRLİ***
***Sənətşünaslıq namizədi***

## *NOVRUZ BAYRAMI VƏ AZƏRBAYCAN PROFESSİONAL MUSİQİSİ*

Novruz gəlir, yaz gəlir... Novruz bayramı yaxınlaşır. Çərşənbə axşamlarından bir-bir keçərək biz hər gün bir az da çox bayramın ılıq nəfəsini duyuruq. Havalar istiləşir. Qızlarımız gözəlləşir. El-obamız yaşıllaşır, gül-çiçək açır.

Bayrama hazırlaşırıq... Çərşənbə axşamları bizi agah edir ki, qarışdan qonaq-qaralı günlər gəlir. Evlər sahmana salınır, süfrəyə tədarük görülür, səməni göyərdilir. "Yemək" işində çox "arif" olan, "yoxdan" çox şey yaratmağı bacaran qadınlarımız işindən zövq alaraq aş dəmləyir, bayram şirniyyatı bişirir. Hətta "ərköyün" xanımlarımız belə paxlavanın, şəkərburanın ətrini duyaraq bu "şirin" reallıq qarşısında əriyir, hər əziyyətə qatlaşaraq, onlardan dadmaq ümidilə, işə başlayırlar.

Bayram gəlir... Tonqallar yandırılır, qapılara torbalar atılır, qızlar fala baxdırır, bəxtinə kimin düşəcəyini bilmək həsrəti ilə yaşayır. Bax beləcə, dərd-səri unudur, yalnız bayram abu-havası ilə yaşayır, gələcək həyata ümid toplayır, bu söylənilən fikirlər kimi məstedici, xoş hisslərə qapılırıq.

Bu kiçik lirik ricətdən sonra Azərbaycan professional musiqisinə ötəri nəzər salaraq bu gözəl bayramın musiqimizdə tutduğu yeri ayrıd etməyə çalışmışıq.

Novruz xalqın milli təfəkkür tərzi, onun həyat və məişəti, adət və ən`ənələrini özündə yaşadan, tətarlaşdırılmış səciyyə daşıyan böyük bir mərasim bayramıdır. Bu mərasim daim musiqi sədaları, mahnı və rəqslərdə müşayiət olunmuş xalq arasında Novruz günləri ilə bağlı çox sayda bayatı, mahnı və s. yaranmışdır. Aşıqlar, xanəndələr, xalq musiqi ifaçıları bu bayramın birbaşa iştirakçıları olmuş. Novruza həsr olunmuş şe`rlər söyləmiş, mahnılar qoşmuşlar. Bu, illər, əsrlər boyu bu cür davam etmiş, inkişaf etmiş, xalqın adət və ən`ənələri, yaratdığı mədəni sərvətlər qorunub saxlanılmışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Novruz bayramı qeyri-rəsmi olaraq sovet idealogiyasına uyğun gəlməyən bir bayram kimi qadağan olunmuşdur. Buna səbəb, bu bayramın dərin milli köklərə, zəngin adət və ən`ənələrə malik olması, xalqın ictimai, mə`nəvi həyatında böyük əhəmiyyət kəsb etməsi idi. Bütün bunlar Azərbaycan xalqının milli ruhda böyüməsi, xalqın tarixi keçmişinin öyrənilməsi, millət kimi formalaşması, milli "mən"liyinin tanınması üçün gözəl zəmin yarada bilərdi. Bu isə hakimiyyət



idealogiyasının ziddinə idi. Məhz bu cəhət "Novruz" mövzusunun demək olar ki, bütün elmi-mədəni sahələrdə - ədəbiyyat, teatr, kino və eyni zamanda, musiqi mədəniyyəti sahələrində qadağan olunmasının əsas səbəblərindən biridir. Azərbaycan bəstəkarları Sovet hakimiyyəti dövründə "Novruz bayramı" mövzusuna məhz bu səbəbdən müraciət etmələri Ü.Hacıbəyov, M.Moqomayaev, Q.Qarayev, F.Əmirov, C.Cahangirov, C.Hacıyev və s. kimi böyük bəstəkarların yaradıcılığında bir baş bu mövzu ilə bağlı olan əsərlərə rast gəlmirik. T.Quliyev, E.Sabitoğlu kimi mahnı janrında işləyən bəstəkarlarımızın yaradıcılığında da təəssüf ki, bu mövzuda mahnılar yox dərəcəsindədir. Bu baxımdan Azərbaycan musiqisində bu mövzu sarıdan bir boşluq yaranmışdır. Halbuki milli, xalq musiqisi ruhunda, lirik-romantik səpkili dahiyanə əsərlər yazan bəstəkarlarımız üçün bu mövzu çox zəngin və rəngarəng bir mənbə idi. Sözsüz ki, bəstəkarlar bu mənbədən, bəhrələnərək öz qüdrətli əsərlərini yarada bilər, musiqi mədəniyyətimizi daha da zənginləşdirərdilər. Bununla belə, qeyd etməliyik ki, hər bir Azərbaycan bəstəkarının yaradıcılığında "Bahar", "Yaz" mövzusu daim sevilərək işlənən mövzu olmuş, bu məzmunda çox sayda əsərlər yaranmış, və dolayı yolla da olsa, bu əsərlərdə Novruz ruhu yaşadılmışdır.

Lakin son illər müəyyən arxivlər açılır, əvvəlki illərdə yazılmış bə`zi "arzuolunmaz" əsərlər meydana çıxır. Belə əsərlərdən biri də Ü.Hacıbəyovun əsrin əvvəllərində yazdığı Novruza həsr olunmuş "Bahar nəğməsi" əsəridir. Son illərdə bəstəkar S.Fərəcov həmin nəğməni bir neçə redaksiyada işləmiş və əsər ilk dəfə ifa olunmuşdur.

Bu əsərin tapılması digər böyük bəstəkarlarımızın yaradıcılığında da bu mövzulu əsərlərin olmasının mümkünlüyü fikrini ortaya atır. Bunun üçün şəxsi arxivlər öyrənilməli və ümumiyyətlə, indiyədək mə`lum olmayan əsərlər üzə çıxarılmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarlarının yeni nəsli bu mövzuya daha cür`ətlə meyl etmiş, 70-ci illər, ölkədə gedən "Yenidənqurma" illəri və nəhayət, 90-cı illərdən e`tibarən, müxtəlif janr və formalarda əsərlər yazmışlar.

70-ci illərdə bu mövzuda yazılmış əsərlər, əsasən, mahnı janrında bəstələnmiş əsərlər idi. F.Əmirovun "Gülür ellər", R.Mirişlinin "Bayram axşamlarında", O.Zülfüqarovun Uşaq mahnıları, O.Rəcəbovun, Ə.Tağıyevin, R.Şəfəqin və başqalarının mahnıları məhz bu dövrə təsadüf edir. M.Quliyev 1977-ci ildə bəstələdiyi "Aldanmış ulduzlar" operasına Novruz bayramı ilə bağlı səhnə daxil edir, 1975-ci ildə R.Həsənova özünün "Kosa-kosa" balet-pantomimasını yazır.

80-cı illərdə daha iki formalı əsərlər yazılmasının şahidi oluruq. Gənc bəstəkarlardan E.Dadaşova, S.Fərəcov, C.Abbasov maraqlı bəstəkar yozumu ilə fərqlənən simfonik və xor əsərləri yazırlar.

90-cı illər isə mövzunun geniş vüs`ət aldığı bir dövrdür. V.Adıgözəlov "Novruzum" adlı kantatasını bəstələyib, C.Quliyev mahnı janrında, teatr musiqisi sahəsində məhsuldar işləyir. E.Dadaşova, S.Fərəcov, C.Abbasov öz yeni əsərlərini yazır. A.Dadaşov, Ş.Axundova, Ə.Cavanşirov, İ.Abdullayev və başqaları müxtəlif janrlarda əsərlər yaratmışlar.

Novruz bayramı mövzusu hər bir Azərbaycanlı üçün doğma olduğundan mövzuya maraq ilbəil artır və ümid etmək olar ki, bundan sonra daimi olaraq, bu məzmunda yeni-yeni gözəl əsərlər yaranacaqdır.

*MİNAXANIM ƏSƏDOVA*
*ADMİU-nun baş müəllimi*

## "NOVRUZ" A.ŞAİQ YARADICILIĞINDA

Əsərlərin süzgəcindən keçmiş, tarix boyu insanların qan yaddaşında qorunmuş, məişətdə bir ən`ənəyə çevrilmiş, intizarla gözlənilən bayramlarımızın ən ümdəsi Novruzdur. Bu bayramın yaranışı insanın öz varlığını, yaşadığı mühiti dərk etdiyi vaxtdan başlanır. Odur ki, zamanın çevrəsi dəyişdikcə, şüur inkişaf etdikcə Novruzun da ən`ənələri təkmilləşir. Baharın gəlişi yeniləşmə, saflaşma, ruhun təzələnməsi deməkdir. Yazın vəsf edilməsi şifahi xalq ədəbiyyatında, folklor nümunələrində minlərlə şe`rlər, sanamalar, bayatılar, nəğmələr şəklində intişar edib. Yazıçılar, şairlər, yaradıcı insanlar ən gözəl əsərlərini, şe`rlərini, nəğmələrini, dram əsərlərini Novruza həsr ediblər.

Arxeoloji abidələrdən mə`lum olur ki, bu ən`ənə ilkin dövrlərdən müxtəlif sənət əsərləri, kiçik heykəllər vasitəsilə qorunub saxlanmışdır. Orta əsrlərin yazılı mənbələrində isə çox az yazıçı və şair tapılar ki, onun əsərlərində Novruza xüsusi yer ayrılmasın. Son yüzillikdə, o cümlədən Cümhuriyyətəqədərki və sonrakı dövrlərdə də Bahara dair tədqiqat əsərlərinin sayı-hesabı yoxdur. M.Ə.Sabir, A.Səhhət, S.Vurğun və digər iste`dad sahibləri kimi Abdulla Şaiq də bütün yaradıcılığı dövründə öz əsərlərində Bahar mövzusuna xüsusi yer ayırmışdır. A.Şaiq nasir, şair, dramaturq, görkəmli pedaqoq olaraq, istər uşaq şe`rlərində, istər nəsr əsərlərində, pyeslərində və istərsə də pedaqoji fəaliyyətində milli adət-ən`ənələrin simvolu olan Novruz mövzusuna biganə qalmamış, uşaqlarımızın, gənclərimizin milli ruhda tərbiyə edilməsinə, ana dilində təhsil almasına çalışmışdır.



***Bahar eylədikcə naz,***
***Elin kefi olur saz.***
***Əkir, biçir həvəslə,***

Deyir: - ***Var ol, gözəl yaz.***[1] - söyləyən şair yenicə dil açmış körpənin dərk edəcəyi şəkildə baharı tərənnüm edir, uşaqlara Novruzun əkin, biçin, əmək bayramı olduğunu aşılayır. "Bahar", "Bənövşə"", "Bülbül", "Turağay", "Bahar bayramı" kimi onlarla şe`rləri bütün uşaqlar əzbər bilir.

A.Şaiqin pedaqoji fəaliyyətində də bu ən`ənə özünü bariz şəkildə göstərir. Hələ çar üsul idarəsinin tüğyan etdiyi, ana dilində danışmağın yasaq edildiyi bir dövrdə ilk milli dərsliyin müəllifi olan A.Şaiq "Uşaq gözlüyü", "Gülzar", "Türk çələngi", "Müntəxabat", "Ədəbiyyat dərsləri" kitablarında Novruza xüsusi yer ayırmış, ziyalıların, şair və nasirlərin ədəbiyyat nümunələrini bir yerə toplamışdır. 1919-cu ildə nəşr olunmuş, üçüncü və dördüncü siniflər üçün nəzərdə tutulmuş "Türk çələngi" kitabında görkəmli şair və dramaturq Hüseyn Cavidin-

***Bahar, bahar gəlmiş, yenə ilk bahar;***
***Güllər, çiçəklər gülər, quşlar oynar.***
***Göyün altun saçlı qızı nur saçar,***
***İnsanların tutqun könlünü açar***[2]

- misraları ilə başlanan "İlk bahar" şe`rində Novruz məhəbbətlə tərənnüm olunur.

Təsadüfi deyil ki, Şaiq şairliyindən çox müəllimliyi ilə fəxr edirdi.[3] O, yaratdığı dram əsərlərində, tərcümə və təbdillərdə də tərbiyəviliyi əsas götürürdü. Bu səbəbdəndir ki, A.Şaiqin əsərləri ilə böyük bir nəslin əxlaqlı, milli ruhda yetişməsinin böyük əhəmiyyəti olub. İlk dram əsərləri olan "Gözəl bahar", "Çoban", "Danışan kukla", sonralar yaratdığı "Xasay", Vətən, "Eloğlu", "Ana", "Nüşabə" pyesləri milli adət ən`ənələri vəsf edib. Cümhuriyyət dövründə bu xüsusiyyətlər, kökünə, tarixinə qayıdış daha obrazlı şəkildə görünürdü. Sonralar totalitar rejimin hökm sürdüyü dövrlərdə də Novruzun ruhu duyulur, gizli də olsa ən`ənələrə riayət edilirdi.

Abdulla Şaiq 1961-ci ildə çap olunmuş "Xatirələrim" kitabında Bahar mövzusuna xüsusi yer ayırmış, onu "təbiətə bütün varlığı ilə bağlı olan ulu babalarımızın adət və ən`ənələri ilə əlaqədar olan"[4] bir bayram kimi qiymətləndirmişdir.

1. Abdulla Şaiq. Əsərləri. III cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1972, s.26.
2. Abdulla Şaiq. Türk çələngi (dərslik). Bakı, Hökumət mətbəəsi, 1919, s.401.
3. Abdulla Şaiq. Əsərləri V cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974, s.26.
4. Abdulla Şaiq. Xatirələrim. Bakı, Uşaqgəncnəşr, 1961, s.41.

Novruz rəmzlər, simvollar, qalibiyyət bayramıdır. Bu baxımdan öz əsərlərində qədim ayinlərə, mifoloji xüsusiyyətlərə, rəmzi xarakterlərə xüsusi yer ayıran Abdulla Şaiqin "Gözəl bahar" əsəri maraq doğurur. Bu pyes Azərbaycanda uşaqlar üçün yazılan ilk dram əsəridir. Burada Bahar, Yer, Su, Boran, Külək kimi təbii ünsürlər şərti olaraq obraz kimi səhnəyə gətirilir və dilləndirilir. Qış istibdadın, Bahar isə azadlığın rəmzi kimi göstərilir. Yer, Su, Qaranquş, Torpaq, Çiçəklər Baharın ordusunu, Boran, Qar, Külək isə Qışın ordusunu təmsil edir. Müəllif təbiətin bu əksliklərini sadə bir dillə uşaqlara başa salır, bu haqda alleqorik şəkildə onlara mə'lumat verir, təbiət hadisələrinə maraq oyadır. Pyesdə təsvir olunan bütün qüvvələr bir-birinə zidd qütblərdə toplanmışdır. Boranlı Qış ilə səfalı Bahar arasında gərgin mübarizə gedir. Nəhayət, Bahar qalib gəlir. Səhnə arxasından təntənəli mahnı eşidilir:

*Yaşıllaşır bağ, çəmən,*
*Bir səs gəlir hər yerdən*
*Xoş gəldin gözəl Bahar!*
*Yaşa-yaşa bəxtiyar.*[1]

Təsadüfi deyil ki, bu əsərin əlyazmasını oxuyan F.Köçərli pyesi operetta yazmaq üçün Ü.Hacıbəyova verməyi Şaiqə məsləhət görmüşdü.[2] Akademik Kamal Talıbzadə bu əsərin səhnə taleyi haqqında deyir ki, "Gözəl bahar" pyesinin ilk rejissoru, musiqi tərtibatçısı, rəssamı A.Şaiq özü olubmuş. Dərs dediyi Realni Məktəbin şagirdləri ilə tamaşa hazırlayan müəllim bütün personajların geyimlərini rəngli kağızlardan özü düzəldibmiş. Sonralar bu əsər uzun müddət repertuardan düşməmiş, görkəmli səhnə ustası A.M.Şərifzadənin rejissorluğu ilə tamaşaçılara göstərilmişdir.

Novruz insanlığın, təbiətin qürur, qalibiyyət bayramıdır. Təbii ki, hər bir xalqın qələbəsi üçün onun mütləq birliyə və vahid amala sahib olması vacibdir. Bu mə'nada Novruz milli olduğu qədər də bəşəridir və bütün Türk xalqlarının birliyi tarixən qədim köklərə malik olan Novruzun qələbəsidir.

1. Abdulla Şaiq. Əsərləri, III cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1972, s.107.
2. Abdulla Şaiq. Əsərləri, III cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974, s.251.



**VÜSAL BAĞIROV**
*Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun dissertantı*

## HEYKƏLTƏRAŞLIĞIN İNKİŞAFINDA E`TİQAD, AYİN VƏ MƏRASİMLƏRİN ROLU

Azərbaycan heykəltəraşlığının mənşəyi və tarixi kökləri barədə müəyyən təsəvvürlər yaradan Qobustan qaya təsvirləri incəsəntimizin hələ mezolit dövründə yaranmağa başlamasından xəbər verir. Sonrakı dövrlərdə heykəltəraşlıq özünəməxsus çox mürəkkəb bir inkişaf yolu keçmişdir. Plastik sənət növü kimi xalq yaradıcılığının bir çox sahələrini özündə birləşdirmiş, bədii metal e`malı, keramika, daş üzərində oyma kimi sənətlərin sintezindən yaranmışdır. Bədii metal ustalarının mürəkkəb plastik forma olan dairəvi heykəl nümunələrini mum - model üsulu ilə tökməsi dövrünə görə mütərəqqi bir addım idi.[1] Alban dövrü plastikasının zirvəsini təşkil edən daş heykəltəraşlıq mə`bəd daxilində qoyulmaq üçün portret və simvolik qabarıqlar, kiçik kişi büstü, nəhəng ilahə heykəli və s. ilə qədim təsviri incəsənətimizi zənginləşdirmişdir.[2] Heykəltəraşlığın belə bir inkişafını istiqamətləndirən amillər içərisində dini e`tiqadlar, ayin və mərasimlər aparıcı mövqe tutmuşdur. Lakin incəsənət haqqında külli miqdarda əsərlər yazılmasına, bu barədə çoxsaylı fikirlər söylənməsinə baxmayaraq, indiyə qədər heykəltəraşlığın yaranmasının "ümumi qanunauyğunluqları" tam mə`lum deyil. Z.Yampolski yazır ki, təbiətə və erkən ictimai təzahürlərə (daşla müşayət olunan əmək) incəsənət üçün xarakterik olan proporsiya, simmetriya, uyarlıq, ritm, parlaqlıq kimi - insanlar üçün xeyirli olub xoş hisslər oyadan - xüsusiyyətlər xasdır. Buna görə də bütün bu xüsusiyyətlərin qavranılması incəsənətin yaranması üçün əsas ola bilməzdi. İncəsənətin hiss olunan bütün növləri, eləcə də heykəltəraşlıq insanlara lap qədimdən mə`lum olub. İncəsənətin bütün hiss olunan növləri daş dövründə, ov qabağı hadisələrlə bağlı ictimai əsaslar üzərində yaranıb.[3] Ümumiyyətlə, incəsənətin mənşəyi məsələsi hələ uzaq keçmiş-

1. S.B.Aşurbəyli. Qədim və orta əsrlərdə Azərbaycan heykəltəraşlığı (rus dilində). Azərbaycan Tarixi Muzeyinin əsərləri, I cild, Bakı, 1956, s.70-71.
2. N.I.Rzayev. Qafqaz Albaniyası incəsənətinə dair. Azərb. SSR EA-nın xəbərləri (ictimai elmlər seriyası), Bakı, 1961, N3, s.49-63.
3. Z.Yampolski. İncəsənətin yaranması haqqında. Qobustan, N1(41), Azərnəşr, 1979, s.92-93.

dən bir çox alimləri maraqlandırmış və bu haqda bir sıra qiymətli fikirlər irəli sürülmüşdür. Bunlar içərisində incəsənət təbiətin insanlara tə`siri və onun təqlid edilməsi nəticəsində meydana çıxmışdır; incəsənət ibtidai insanda real hadisələrin praktiki müşahidələrini toplamaq və möhkəmləndirmək ehtiyacı doğduğu zaman əmələ gəlmişdir; incəsənətin yaranmasında ictimai şüur mütərəqqi rol oynamışdır; rəssamlıq təbiətin nəvəsidir[1] və s. kimi müddəalardan kifyaət qədər nümunələr vermək mümkündür. Bu müddəalar içərisində bir-birinə zidd fikirlər mövcud olsa da hər halda incəsənətin sonrakı inkişaf mərhələlərində dini e`tiqad və mərasimlərini rolunu danmaq mümkün olmamışdır.

Zaman keçdikcə cəmiyyətdə formalaşan ayin və mərasimlər heykəltəraşlıq əsərlərinə də öz tə`sirini göstərmişdir. Qədim Azərbaycanda dini inamlar, əqidələr həmişə bir-birilə bağlı olmuşdur. Nisbətən zəif inam daha qüvvətli inamların himayəsinə sığınmışdır. Məsələn, totemizm inamı çox hallarda günəş inamının himayəsində olmuşdur. Bunun nəticəsində keçi, at, qoyun, şir, totemləri günəş simvoluna çevrilmişdir. Masallı rayonu ərazisindən tapılmış və Azərbaycanda günəş simvolunu təmsil edən tuncdan hazırlanmış kiçik şir heykəlinin başında günəşi təmsil edən girdə bir lövhə qoyulmuşdur. Qədim Azərbaycanda bolluq ilahəsinin obrazına həsr edilmiş heykəllərə nümunə üçün Xanlardan tapılmış son tunc dövrünün məhsulu olan kiçik tunc fiquru göstərmək olar, Fiqur kainatın iki hissəsinin - göy və yeraltı hissələrinin rəmzi təsvirindən ibarətdir. Fiqur kosmoqonik tərzdə, müqəddəs göylərlə əlaqədar şəkildə bolluq ilahəsini təmsil edir. Mum üsulu isə töküldüyü üçün yeganə nümunə olan tunc fiqur çox ustalıqla hazırlanmış və tamaşaçıda bədii maraq oyadan heykəltəraşlıq əsəridir.[2]

İslama qədərki tariximizə nəzər salarkən At kultu və atçılıq gələnəyinin də dil, mifologiya və etnoqrafiya, o cümlədən sənət əsərlərində dərin iz buraxdığının şahidi oluruq. Kür-Araz mədəniyyəti çağlarından totem kimi tapınılan At kultu izinin başlanğıcı daha qədimə gedib çıxsa da, onun ulu yaşını əcdadlarımız qayaüstü rəsmlərə həkk etmiş, sonrakı yaşantısı isə m.ö. II minillikdən üzübəri arxeoloji qaynaqlar, incəsənət əsərləri ilə bizə çatmışdır.[3] Həmin dövrün sənət nümunələrinin bir qismi totemizm və səma cisimlərinə sitayiş kimi dini-maqik təsəvvürlərin əsasında yaradılmışdır. Bu mənbənin yaratmış olduğu ornamental qrupa qədim dövrdə müqəddəs hesab edilmiş keçi, qoyun, at, maral, ilan və s. heyvanların qrafik və qabarıqlı təsvirləri daxildir. Səma cisimlərinə sitayiş nəticəsində yaranmış Günəş və Ayın qrafik və

1. N.İ.Rzayev. Mö`cüzəli qərinələr. Bakı, Azərnəşr, 1984, s.5-7.
2. N.İ.Rzayev. Əsrlərin səsi. Bakı, Azərnəşr, 1974, s.20-22.
3.F.Ağasıoğlu. Buradan bir atlı keçdi. Qobustan, 1990, N2(86), s.12-18.



qabarıqlı təsvirləri bu qrupu yeni ornamental motivlərlə zənginləşdirmişdir.

Şamanizm ideyalarının vaxtilə çox geniş yayıldığı dövrlərə aid heykəltəraşlıq nümunələrində də şaman ayinlərinin izləri görünür. Mingəçevir, İsmayıllı və Azərbaycanın digər yerlərində tapılmış gil insan fiqurları başsız və əksər hallarda kiçik qadın fiqurlarıdır. Bu fiqurların qadın təsviri olmasını heykəllərin boğazlarındakı bir neçə muncuq sırası təsdiq edir. N.Rzayevin qəqnaətinə görə şaman ayinlərində adamların xəstəlikləri fiqurlara köçürüldükdən sonra onların başları sındırılıb atılmış, özləri isə qəbiristanlıqda basdırılmışdır. Muncuqlara gəldikdə isə ta qədimdən əcdadlarımız inanmışlar ki, bu bəzəklər insanları bədxah ruhların bəlasından qoruyur. Bu qədim inamın qalığıdır ki, xalq arasında göz muncuğu gəzdirmək adətinə indi də rast gəlinir. Onu da göstərmək lazımdır ki, Azərbaycanda kiçik həcmli heykəltəraşlığın inkişafı və geniş yayılmasında xəstəliklərin kiçik gil fiqurlara köçürülməsi adəti mühüm rol oynamışdır.

Mingəçevir qazıntıları zamanı I-IV əsrlərə aid katakomba qəbrindən şaman avadanlığına daxil olan və hündürlüyü 10,5 sm olan tunc maral fiquru tapılmışdır. Görünür şaman o dövrdə Azərbaycanda məhsuldarlıq, xeyir-bərəkət allahı hesab edilən maralın himayəkarlığından istifadə etmişdir. Şamanın paltarına bənd etmək üçün fiqurun üstündə bir halqa, bədxah ruhları qovmaq üçün isə onun altında zınqırov asılmışdır.[1]

Eramızın ilk əsrlərinə doğru animistik təsəvvürlər daş heykəllərin yaranmasına tə`sir göstərmişdir. Şamaxı rayonu ərazisindən tapılmış heykəllər türk tayfalarının ölən adamın öz dəfn mərasimində iştirkını zəruri sayan matəm ayini üçün yonulmuşdur. Heykəl mərhumun qəbri üstündə qoyulurdu ki, ölənin ruhlarından biri (qədim əqidəyə görə kişilərin beş, qadınların isə dörd ruhu var idi) həmin heykələ daxil olub həmişəlik olaraq yaşasın. Animistik əqidəyə görə belə heykəllər dəfn mərasimində ölüləri əvəz edə bilirdi. Çünki, qədim əcdadlarımız içərisinə ruh daxil olmuş daş heykəli canlı hesab etməklə ona mərhumun timsalı kimi baxırdılar.

Qədim Azərbaycanın plastik sənət nümunələrində həyat ağacının müxtəlif şəkildə rəsm edilmiş variantalarına rast gəlinir. Lap qədim zamanlardan e`tibarən səmən adlı bitki həyat rəmzi kimi müqəddəsləşdirilmişdir. Səmən baharın girməsini, təbiətin həyat qüvvəsini təmsil etmişdir. Bu ən`ənə Novruz ərəfəsində bu gün də davam etdirilməkdədir.

Yeni-yeni dini təsəvvürlərin - allahlar və ilahələrin yaradılması qədim insanların şüurunun yüksəlməsi və mədəni səviyəsinin ümumi tərəqqisi ilə bağlı olmuşdur. Qədim türk qəbilələrində başqa əşyalar kimi heykəllər də fetişləşdirilirdi. Gildən, ağacdan, keçədən hazırlanmış, totemlərin və babaların

1. N.İ.Rzayev. Əsrlərin səsi. Bakı, Azərnəşr, 1974, s.31-43.

ruhunu təmsil edən kiçik formalı heykəllər onqon, tor, yaxud toz adlanırdı. Gözəgörünməz ruhların hamısına maddi, cismani görkəm verməyə çalışan insanlar gözdən kənarda alan totemləri və hətta babalarının ruhlarını təsvir etmək məqsədilə heykəllər yaratmışlar. Sonralar bu ən`ənə bütpərəstlik üçün möhkəm əsas yaratmışdır. Fetişizm dövründə heykəltəraşlıq əsərlərinin də ilahiləşdirilməsi plastika sənətinin inkişafına tə`kan vermişdir. Ümumiyyətlə, fetişizm ideyaları islamaqədərki dövrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinə qüvvətli tə`sir göstərmişdir.

Totemizmdən sonrakı dini əqidəyə - antropomorfizmə görə bütün qeyritəbii qüvvələr, allahlar insan şəklində təsəvvür edilirdi. Əgər totemizm ilahi qüvvələri heyvan şəklində təsvir edirdisə, fetişizm ilahi qüvvələrin insan formasında olması inamını yaratmışdır. Əşya və hadisələrlə yanaşı insan da fetişləşdirildiyindən e.ə. I minilliyin ortalarından başlayaraq plastik insan təsvirləri yaradılmağa başlamışdır. Qafqaz Albaniyası dövründə isə antropomorfik ideyalar totemizmi, onun yetişdirməsi olan zoomorfizmi sıxışdırıb şüurlardan çıxarırdı. Getdikcə zoomorf keramika tənəzzülə uğrayır, gil və daşdan hazırlanmış insan fiqurları isə intişar tapır.[1]

Azərbaycanın qədim plastik sənət əsərlərində e.ə. I minilliyin əvvəlindən yayılmağa başlamış atəşpərəstlik ideyalarının da güclü tə`siri hiss olunmaqdadır. Bunu Gədəbəy rayonundan tapılmış tunc kəmərin timsalında aydın görmək mümkündür.

Göründüyü kimi, incəsənətimizin qədim dövrü rəmzlər dövrüdür. Abidələri bəzəyən ornamental və süjetli təsvirlər çox zaman rəmzi mə`na daşımışdır. İncəsənətin bu xüsusiyyəti zamanına uyğun dini-sehrli təsəvvürlərlə müəyyənləşdirilmişdir. Lakin orta əsrlər dövründə ən`ənəvi olaraq arabir təkrar edilən belə təsvirlər öz rəmzi mə`nasını itirərək getdikcə ornamental motivlərə çevrilmişdir.

Orta əsrlərdən başlayaraq islam dininin təsviri sənətə göstərdiyi mənfi münasibət, dini təbliğatda təsviri sənətdən geniş istifadə edən xristianlığın əksinə olaraq, islamın məscid qapılarını rəssamların üzünə bağlaması təsviri sənətin, o cümlədən heykəltəraşlığın inkişafını məhdudlaşdırmış və ləngitmişdir. Heykəltəraşlığın inkişafına təkan verən xristian mə`bədləri ilə müqayisədə, ancaq xəttatlıq və ornamental-dekorativ formalarla bə`zən məscidlərin təsviri sənətin inkişafında heç bir rolu olmamışdır.[2]

Beləliklə, xalqımızın tarixinin, müxtəlif zamanlarda onun həyat tərzinin, məişətinin, dünyagörüşünün, dini e`tiqadlarının, ayin və mərasimlərinin öyrənilməsində digər mədəniyyət abidələri ilə yanaşı heykəltəraşlıq nümunələrinin tədqiqi də zəruridir. Bu zərurət həm də ondan doğur ki, xalq sənəti nümunələri qeyri-sənət örnəklərinə nisbətən öz yarandığı dövrlərin psixologiyasını daha parlaq əks etdirir.[1]

1. Yenə orada, s.73-76.
2. K.Kərimov. İslam və təsviri sənət. Qobustan N2 (14), 1972, s.7-9.



*ALİM SÜLEYMANOV*
*ADMİU-nun baş müəllimi*

# GƏNCLƏRƏ MİLLİ ŞÜURUN AŞILANMASINDA ADƏT-ƏN`ƏNƏLƏRİN ROLU

Milli şüur və milli ləyaqət milli varlığı, milli müəyyənliyi səciyyələndirməklə millətə və xalqa aid əlamət və keyfiyyətləri özündə əks etdirir. Millətə aid bir çox keyfiyyətlər - milli mə`nəvi sima, özünəməxsusluq, milli xarakter, emosional psixi amillər milli şüurun komponentləri kimi çıxış edir. Milli mənlik şüuru gənclərin milli mənsubiyyətini dolğunluğu ilə dərk etməsinə, xalqına xidmət etməsinə inam yaradır. Milli psixologiya, həyat tərzi, adət və ən`ənələr milli şüurda anlayış və kateqoriyalar şəklində təzahür edir. İnsan mənsub olduğu milli gerçəkliyin ayrı-ayrı əlamətlərini öz şüurunda əks etdirdikdə sevinc, fərəh hissi duyur, soy-kökü ilə fəxr edir.[2]

İctimai davranış qaydası kimi yaranmış adət və ən`ənələr müəyyən bir nəslin maddi və mə`nəvi həyatını özündə təcəssüm etmişdir.

Bu gündə xalqımızın qoruyub saxladığı ən`ənəvi bayram və mərasimlər, adətlər, əyləncə və oyunlar adamların gündəlik həyatının üzvü hissəsi kimi yaranmış, əsasən yüksək əxlaqi görüşlər təlqin etməklə yanaşı, həm də yetişməkdə olan nəslin iste`dadının, yaradıcılığının bir sözlə, bədii zövqünün formalaşmasına xidmət etmişdir.[3] Adət-ən`ənələrin aşılanması milli mənlik şüurunun təşəkkül tapmasında mühüm amillərdən sayılır. Bu, gənclərdə özünün milli mənsubiyyətini dolğunluğu ilə dərk etməsinə, xalqına xidmət etməsinə inam yaradır. Bu barədə M.K.Atatürk yazırdı: "Bir millətin hege-

1. R.Əfəndiyev. Xalq sənəti ən`ənələri və müasir tamaşaçı. Qobustan N1(41), 1979, s.2-5.
2. N.Muxtarova. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi. Bakı, Gənclik, 1993, s.15-18.
3. Ə.S.Məmmədov.. H.A.Quliyev. Azərbaycan adət və ən`ənələri. Bakı, 1966, s.8.

monluğu anlaya bilməsi və onu inadla qoruya bilməsi, bir sıra xüsusi keyfiyyətlərə və üstün bilik və təhsilə malik olmasından asılıdır. Bir millətin siyasi təhsilində, sosial təhsilində, vətən sevgisində nöqsan varsa, elə bir millət hegemonluğunu lazımi dərəcədə qüvvətlə əlində saxlaya bilməz".[1] Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqu M.Ə.Rəsulzadə də tarix və adət-ən`ənəni ən mühüm milliyyət amillərindən hesab etmişdir. Əksər əsərlərində bu mövzuya toxunmuş, xalqımızın milli-mə`nəvi dəyərlərinə xor baxanlara qarşı daima mübarizə aparmışdır. 1914-cü ildə qələmə aldığı "Milli dirilik" məqaləsində M.Ə.Rəsulzadə yazırdı: "...dilimizi, dinimizi, tariximizi gözlədiyimiz halda, adət və əxlaqımızı da gözləmək məcburiyyətini hiss edirik. Uşaqlarımızı həmən öz ruhumuzla tərbiyə etməliyik. Firudin bəy Köçərlinin "Balalara hədiyyə" məcmuəsinə topladığı hekayə və ən`ənələrə təhqir gözü ilə baxmamalıyıq".[2]

Xalqımız mə`nəvi sərvəti olan xalq bayram və mərasimlərini müasir dövrümüzə qədər qoruyub saxlaya bilmişdir. Bu ən`ənələrdə xalqımızın ictimai-siyasi baxışları, bədii emosional hiss və duyğuları cəmlənmişdir. Mərasim və bayramlarda müxtəlif fikirləri ifadə edən bədii xalq oyunlarımız, rəqslərimiz, nəğmələrimiz, poetik yadigarlarımız qorunub saxlanılmışdır.[3] Onlar indi də mə`nəvi həyatımızı zənginləşdirir, gəncələrə milli şüurun aşılanmasında əvəzsiz rol oynayır. Folklordan, bayram və mərasimlərdən, aşıq musiqisi, muğamlar və xalq mahnılarından bəhrələnən yeniyetmə təbii gözəlliyin, plastik qamət gözəlliyinin, mə`nəvi dəyərlərin e`cazkar tə`siri ilə dəyişib, gözəlləşir, mə`nən daha da göyçəkləşib paklaşır.[4]

Adət-ən`ənələrimiz içərisində xalqımızın təntənə ilə keçirdiyi və hər il səbirsizliklə gözlədiyi Novruz bayramınımı tərbiyəvi əhəmiyyəti daha çoxdur. Bir sıra oyun və tamaşaları, folklor nümunələrini özündə cəmləşdirən Novruz mərasimi mə`nəvi ehtiyacaların ödənilməsində, milli ruhun ötürülməsində böyük rol oynayır. Bu bayram təmizlik, gözəllik, məhəbbət bayramıdır, xalqımızın tarixidir, mə`nəvi zənginlik, əxlaqi kamillik, saflıq dünyasıdır. Novruz gənclərdə əməyə məhəbbət hissi oyadır, milli təəssübkeşliyin, vətənpərvərliyin formalaşmasına təkan verir. Bununla bağlı klassik ədəbiyyatımızdan, ictimai fikir tariximizdən istənilən qədər nümunələr gətirmək olar. Novruz bayramı günü böyüklər, uşaqlar təzə paltar geyir, süfrələrə hər cürə şirni düzülür, qohum qardaş, dost aşna on gün bir-birinin evinə bayram görüşünə gedirlər.[5] Bu ən`ənənin qorunub saxlanılması və gənc nəslə təbliğ

1. U.Qocatürk. Atatürk. Bakı, Elm, 1991, s.73.
2. M.Ə.Rəsulzadə. Milli dirilik. Ədəbiyyat qəzeti, 25 oktyabr 1991.
3. T.Haqverdiyev. Bədii-kütləvi işin təşkili metodikası. Bakı, 1992, s.13.
4. A.Aslanov. İncəsənət və tərbiyə. Bakı, 1967, s.143.
5. A.Şaiq. Xatirələrim. Bakı, 1961, s.41-42.



edilməsi işinin vacibliyi cümhuriyyətəqədərki dövrdə də diqqət mərkəzində olmuşdur. M.Ə.Rəsulzadə yazır ki, "köhnə üsul məktəblərimizdə üsku və bayram xonçaları bəzərdik. Yeni üsul məktəblərimizdə də bunu yeni üsul ilə daha müntəzəm və mə`nalı bir surətdə icra edə bilərik".[1] Müstəqilliyimizin bərpasından sonra da Novruza xüsusi diqqət verilmiş, bu bayramın ümumxalq səviyyəsində, dövlət səviyyəsində keçirilməsi tə`min edilmişdir. Respublika prezidenti H.Əliyevin bu işə xüsusi diqqət və qayğı göstərməsi, bayram mərasimində xalq içərisində olması Novruzun əzəmətini daha da artırır, gənc nəslin tərbiyəsinə cavabdeh olan bütün şəxslər qarşısında yeni-yeni vəzifələr qoyur.

*ASİFƏ TELMANQIZI*
***BDU-nun dissertantı***

## ƏZİZƏ CƏFƏRZADƏ VƏ FOLKLOR

Əzizə Cəfərzadənin üslub fərdiyyətinin formalaşmasında xalq ədəbiyyatından gələn tə`sirlər daha qabarıq hiss olunmaqdadır. Müasir Azərbaycan nəsrində ikinci bir yazıçı tapmaq mümkün deyildir ki, xalq ədəbiyyatından Ə.Cəfərzadə qədər bəhrələnmiş olsun. Tarixi mövzulu əsərlərində dövrün mənzərəsini yaratmaq üçün təsvir etdiyi təfərrüatlar bu bəhrələnmənin ötəri səciyyə daşımadığını göstərməkdədir. "...Əzizə Cəfərzadə təcrübəli geoloq kimi daim səfərdə və axtarışdadır. Bununla əlaqədar o, respublikanın sərhədlərindən uzaqlara gedir, ölkəmizin ayrı-ayrı şəhər və kəndlərini gəzir, hələ tədqiq olunmamış qiymətli əsərlərin bədii sirlərini açmağa tələsir. Ə.Cəfərzadə xalq yaradıcılığına dərindən bələd olan, folklora xüsusi maraq göstərən yazıçı-alimdir. (Zahirə Salmanova. Söz sərvəti sorağında. "Qobustan", 1981, N3, səh.14). Yazıçının əsərlərinin dil baxımından sadəliyi, aydınlığı və dialektizmlərlə z ədəbiyyatının tə`siri faktı kimi səciyyələndirilməlidir. Bundan əlavə, müəllif roman, povest və hekayələrində yeri gəldikcə xalq ədəbiyyatı nümunələrinə yer verir, bununla da təsvir etdiyi hadisələrin fonunda dövrün koloritini əks etdirmək niyyəti güdür.

Əzizə Cəfərzadə təsvir etdiyi əhvalatların ruhuna uyğun bayatı seçib iş-

1. M.Ə.Rəsulzadə. "Milli dirilik. Ədəbiyyat qəzeti. 25 oktyabr 1991.

lətməyi sevir. Ümumiyyətlə, yazıçının elə bir əsəri yoxdur ki, orada bu və ya başqa şəkildə bayatıya müraciət edilməmiş olsun. Məsələn:

*Əziziyəm qəmdə gül,*
*Qəmdə danış, qəmdə gül.*
*Ağ gündə gülən könlüm,*
*Mərd igidsən, qəmdə gül. ("Yad et məni")*

Yaxud:

*Axşamlar, ay axşamlar,*
*Şam yanar, ay axşamlar.*
*Evli evinə gedər,*
*Qərib harda axşamlar? ("Eldən-elə")*

Yaxud da:

***Mən aşığam Salyana,***
***Dara zülfün sal yana.***
***Necəsən bir ah çəkim,***
***Kür quruya, sal yana. ("Sənsən ümidim")***

Yazıçının əsərlərində bayatılardan istifadənin bir çox səbəbləri vardır. Hər şeydən əvvəl, o, epiqraf kimi bayatı janrına müraciət edir; burada bayatı ilə əsərdə təsvir olunan əhvalatların məzmun yaxınlığı əsas tutulur. Digər tərəfdən, Əzizə Cəfərzadə kədər, əzab, hicran ovqatını gücləndirmək üçün bayatıya müraciət edir. Bə`zən isə bayatı obrazın daxili dünyasını aşkarlamaq məramına xidmət edir. Bundan əlavə, yazıçı mənsub olduğu xalqın əxlaqını əks etdirmək üçün də yeri gəldikcə xalq ədəbiyyatının bu populyar janrına müraciət etmişdir.

Əzizə Cəfərzadə yaradıcılığının folklordan qaynaqlandığını təkcə bunlar əks etdirmir. Ədib ayrı-ayrı əsərlərində yeri gəldikcə atalar sözləri və məsəllərə, laylalara, xalq arasında yayılmış mahnılara, lətifələrə, rəvayətlərə müraciət etmişdir. Və bütün bunlar yazıçının əsərlərinin toxumlarına, daxili qatlarına elə hopdurulmuşdur ki, onun sərhədlərini müəyyənləşdirmək mümkün deyildir.

Folklor mövzu seçimindən tutmuş dil-üslub məsələlərinə qədər yazıçının yazılarının ruhuna hopmuşdur. Əsərlərinin dili üzərində ötəri təhlil aparmaqla yazıçının dilində xalqdan alınmış, ədəbi dildə az işlənən, yaxud bu dilə mə`lum olmayan söz və ifadələri aşkarlamaq mümkündür.



Şübhəsiz ki, kiçik həcmli bir məqalədə Ə.Cəfərzadə və folklor mövzusunu araşdırmaq mümkün deyildir. Ona görə də ən zəruri məsələlərə toxunduq. Lakin gələcəkdə mövzunun daha ətraflı şəkildə tədqiq olunmasına ciddi ehtiyac vardır.

***NAİLƏ QASIMOVA***
***ADMİU-nun əməkdaşı***

## *NOVRUZ XALQIMIZIN MİLLİ DƏYƏRİ KİMİ*

Xalqımız əsrlər boyu etnik və mə`nəvi aləmini, qədim adət-ən`ənələrini qoruyub yaşatmışdır. Bu baxımdan Novruz neçə qərinələr aşaraq türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin milli təfəkkürünə əsrlər boyu təkan vermişdir. Yaddaşlarda yaşayan Novruz Azərbaycan tədqiqatçı-alimləri tərəfindən dəfələrlə etnoqrafik e`tüdlərlə, milli-mə`nəvi xüsusiyyətlərilə tədqiq edilmişdir. Xalqın folklorunda, mifoloji təfəkküründə özünə yer tutan Novruzla bağlı müxtəlif illərdə araşdırmalar aparılıb, elmi məqalələr, kitablar və monoqrafiyalar yazılmışdır. Maraqlı faktlardan biri də budur ki, hələ neçə əsr bundan öncə (XII əsr) yaşayıb, yaratmış məşhur alim, şair Ömər Xəyyam "Novruznamə" adlı əsərində astronomik tədqiqatlara əsaslanaraq yazır ki, qədimlərdən təzə ilin başlanğıcı günəş təqvimi ilə bağlıdır. O yazır ki, Novruzun qeyd olunması günəşin dövr etməsinin iki əlaməti ilə əlaqədardır. (Bax, Qobustan, N69, 1990. Ş.Həsən və M.Mahmudov).

Tədqiqatçılar araşdırmışlar ki, Novruzun qeyd edilməsi haqqında ilk yazılı mə`lumat eramızdan əvvəl 505-ci ilə təsadüf olunur. Şərq ölkələrində, xüsusən İranda, İraqda, Ərəbistan və Orta Asiyada islam dininin yaranmasından sonrakı dövrlərdə də Novruz ən`ənələri mühüm yer tutur. Bu ən`ənə bu gün də davam etdirilir.

Tarixdən mə`lumdur ki, Zərdüştliyin dini tə`limində adı çəkilən yeddi bayramın ən maraqlısı, təntənəlisi fars mənbələrində Novruz adı ilə qeyd olunandır. O da qeyd olunur ki, fars mənbələrindən götürülmüş "Novruz" - "Yeni gün" deməkdir. "Yeni gün" yeni ilin başlanğıcı ilə əlaqədardır ki, günəş təqvimi ilə bağlı olmuşdur. (Bax. A.Mirzə, İ.Mehdiyev "Novruz töhfələri" səh.4,5.)

Respublikamızda "Novruz"la, Novruz tarixi ilə bağlı bir çox kitablar, tədqiqat işləri yazılmasına baxmayaraq bu gün yenə də "Novruz"un bəşəri mahiyyətini açan, onu xarakterizə edən xüsusiyyətlərin yeni-yeni kitablarda bədii-publisistik yazılarla tarixi-etnoqrafik baxımdan tədqiq edilməsinin vacibliyi duyulur.

"Novruz" tarixən xalqımızın milli-mə`nəvi ideologiyasını, adət və ən`ənələrini, milli qürurunu, vətənpərvərliyini özündə əks etdirmişdir. "Novruz" həmçinin İslamda da öz milli dəyərləri ilə geniş açıqlanmışdır. İslam mədəniyyətində onun me`yar və ölçüləri, dini-mədəni ən`ənələri, qədim irsi sübut olunmuşdur.

Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan son on ildə istər iqtisadi islahatların inkişafı istiqamətində, istərsə də elm və mədəniyyətin inkişafı istiqamətində xeyli nailiyyətlər qazanmışdır. Bu illərdə "Novruz" respublikanın hər yerində tən`tənəli şəkildə keçirilmişdir.

XXI-ci əsrin ilk "Novruz"ü artıq öz ab-havası ilə məmləkətimizə qədəm qoyur. Xalqımızın dilədiyi isə budur ki, yeni əsrin Novruzu xalqa səadət, bol-bərəkət dolu çal-çağırlı həyat bəxş etsin.

*NAMİQ ABBASOV*
*ADMİU-nun əməkdaşı*

## *HÜRRİYYƏT VƏ MƏHƏBBƏT BAYRAMI*

Novruz xalqımızın ta qədim vaxtlardan yüksək əhval-ruhiyyə ilə qarşılanan böyük bir bayramıdır. Xalqımız hər il bu bayramı hədsiz sevinc hissi ilə qarşılayır. Müxtəlif vaxtlarda bu bayrama rəsmi dairələrdə müxtəlif münasibətlər olsa da - haqq nazilər, amma üzülməz - atalar kəlamında deyildiyi kimi, xalqın öz bayramını istədiyi kimi keçirmək arzusu, istəyi ən nəhayət ki, reallaşmışdır. İndi bu bayrama biz bir neçə gün əvvəldən tədarük görürük. Belə ki, cavan qızlar niyyət tutmaq həvəsiylə, nişanlılar bayrampayı tədarüküylə bayramı sevinclə, həyəcanla qarşılayırlar.

A.Mirzə və İ.Mehdiyevin birgə yazdıqları "Novruz töhfələri" kitabında deyildiyi kimi, Hər dəfə ilimiz gəlib novruz məqamına yetəndə dünyanın rəngi-ruhu gözgörəsi dəyişir. Belədə zaman atlıdı, çaparlıdı hər, nədisə dünyanın beli uzunu çapıb bax bu günümüzdə yetəndə dağların, düzlərin, çayların, irmaqların səsi, səhləmi dəyişir. Bu bahar gecəsində ağaclar torpağa səcdəyə gəlir, barınır torpaqdan. Bəli, demək olar ki, hər il günümüz bu ana, bu məqama çatanda təbiətdə olduğu kimi, içimizdə bir canlanma, ruhumuzda oyanış hiss edirik. Ağaclar çiçəkləndiyi kimi, bahar gülü bənövşə öz ətrini ətrafa yaydığı kimi, insan ürəyində də həyat eşqi aşıb daşır. Nə xoş təsadüf ki, təbiətlə insan ruhunun oyandığı gün bir vaxta düşür. Məhz elə buna görə də yəqin ki, ulularımız bayramı bu vaxt keçirməyi lazım bilmişlər.

Bu gün dövlət müstəqilliyimiz, dövlətlərimizin suverenliyimiz şəraitində "Novruz" əsl bayram kimi qeyd edilir. Hətta prezidentimiz bu bayram günlərində elin, camaatın içərisinə çıxır, meydanlara, şənliklərə axışan camaatın sevincinə şərik olur. Musiqiçilərimiz, aktyorlarımız bayrama həsr olunmuş kompozisiyalar göstərir. Oxuyur, rəqs edirlər. Camaat dəstə-dəstə, topa-topa küçələrə, meydanlara axışır. Hamı biri-birini təbrik edir, ən xoş arzularını, istəklərini ifadə edirlər. Bütün bunlar hamıda xoş əhval-ruhiyyə və sevinc hissi yaradır. Və biz böyük fəxrlə - bax, budur müstəqillik, müxtəlif əziyyətlərlə, itkilərlə əldə etdiyimiz suverenlik - deyirik.



*RAUF ƏLİYEV*
*ADMİU-nun dissertantı*

## *MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ NOVRUZ ƏN`ƏNƏSİNİN KEŞİKÇİSİDİR*

Dövlət mədəniyyət sisteminin başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin, dünya mədəniyyəti nümunələrinin e`tibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ən`ənələrinə bağlı, milli mə`nəvi və mədəni, bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yaradım etməkdən ibarətdir.[1] Xalqımızın əsrlərdən bəri qoruyub saxladığı adət-ən`ənələr, bayram və mərasimlərin kütləvi formada təbliği işi bu gün də, gələcəkdə də aktuallığını itirməyən vəzifələrimizdəndir. Bu vəzifələrin icrasında mədəniyyət müəssisələri üzərinə də böyük məs`uliyyət düşür. Mədəniyyət müəssisələrinin kütləvi tədbirlər planında isə xalqımızın

1. Mədəniyyət haqqında Azərbaycan Respublikası qanunu. Mədəniyyət qəzeti, 13 may 1998.

milli, ən`ənəvi bayramları xüsusi yer tutur. İnsanların həyat tərzi, dini, ictimai görüşləri ilə bağlı olan kütləvi bayram və mərasimlər mənşə e`tibarı ilə çox qədim tarixə malikdir ki, bunlar içərisində Novruz bayramı xüsusi əhəmiyyət kəsb edir. Novruzun mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Tədqiqatçılar bu bayramın məhz Yaxın Şərqin qədim əkinçiliklə məşğul olan xalqları arasında meydana gəldiyini söyləyirlər. Hər bir xalq Novruzla bağlı etnik, yerli, milli xüsusiyyətlərinə uyğun özünəməxsus mövsüm nəğmələri, mərasim nəğmələri, rəqslər, oyunlar, xalq tamaşaları yaratmışdır. Azərbaycanda adətə görə, Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təssərüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı qoşmaqla oda, atəşə, günəşə olan e`tiqad və inamını ifadə etmişdir. Bu gün də bayram qabağı el-obada abadlıq, təmizlik işləri aparılır, ağac əkilir. Əhali müxtəlif şirniyyat növləri və plov bişirir, rəngbərəng yumurta boyayır, məcməyi və sinilərdə xonça bəzəyir, şam yandırılır, tonqal qalanır, səməni qoyulur. Əməyə, həyata, təbiətə məhəbbət rəmzi olan bahar bayramı müstəqillik dövründə mütərəqqi xüsusiyyət və keyfiyyətlərlə daha da zənginləşmiş, yeni mə`na və məzmun kəsb etmişdir.[1] Ona görə də Novruzun kütləvi bayram kimi təşkil olunmasına çox məs`uliyyətli bir iş kimi baxılmalıdır. Çünki kütləvi bayramlar teatr tamaşalarından fərqli olaraq çox az bir vaxt ərzində, həm də yüksək ictimai-bədii dəyərlə hazırlanmalıdır. Bayramlar, o cümlədən Novruz konkret tarixi günlər və hadisələrlə, ən`ənələrlə əlaqədar olduğundan onların hazırlıq mərhələsini uzatmaq olmaz. Bayram tədbiri vaxtında hazırlanıb ictimaiyyətə təqdim olunmalıdır. Əhali də bayram tamaşalarına vaxtında və yaradıcılıqla cəlb olunmalı, tamaşadakı hadisələrin dinamik inkişafı üçün əsas qüvvəyə çevrilməlidir. Bu baxımdan mədəniyyət müəssisəsi rəhbərindən və rejissordan böyük təşkilatçılıq və yaradıcılıq iste`dadı tələb olunur. Novruz bayramı xalq yaradıcılığı qaynaqlarından bəhrələndiyi üçün onların yüksək peşəkarlıqla təşkil olunması mədəniyyət müəssisəsinin digər işçilərindən də yüksək həssaslıq və işgüzarlıq tələb edir. Lakin burada işin əsas hissəsi rejissorun üzərinə düşür. O, çalışmalıdır ki, xalq yaradıcılığı nümunələri bayağılaşdırılmasın, əsrlər boyu qorunub saxlanılan milli-etnik xüsusiyyətlərini, bədii-estetik dəyərini itirməsin.

Rejissor Novruzun əsil dünyəvi mahiyyətini açmaq üçün kütləvi janr və incəsənət növlərindən bacarıqla istifadə etməlidir. Buraya söz və nitq, musiqi, xoreoqrafiya, idman növləri və orijinal janrlar daxildir.[2]

Kütləvi bayram tamaşasının hazırlanmasında rejissorun əsas məs`uliyyət

1. ASE, VII cild, Bakı, 1983, s.284.
2. T.Haqverdiyev. Bədii-kütləvi işin təşkili və metodikası. Bakı, 1992, s.126-134.



daşıması ilə yanaşı onu da nəzərə almaq lazımdır ki, quruluş planı ssenari materialı əsasında hazırlanır. Bu prosesdə isə ssenaristin işə cəlb olunmamına böyük ehtiyac vardır. O cümlədən bəstəkar, baletmeyster, dirijor, xormeystr, idman epizodlarını hazırlayan mütəxəssislər də kütləvi bayramın quruluş planının hazırlanmasında yaxından iştirak etməlidirlər.

Mədəniyyət müəssisələrində Novruz bayramının kütləvi formada keçirilməsinin çətinlikləri içərisində maliyyə mənbələrinin axtarılıb tapılması ön planda durur. Çünki dövlət büdcəsindən ayrılan vəsaitlər ehtiyacları tam ödəmək üçün kifayət etmir. Bunun üçün mədəni-maarif fəaliyyətinin yeni forma və metodlarından istifadə etmək də tələb olunur. Mədəniyyət müəssisəsi kütləvi tədbirlərin keçirilməsinə lazım olan vəsaitləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmamış digər mənbələr - yerli büdcələr, xüsusi mülkiyyətçinin vəsaitləri, habelə özlərinin fəaliyyətindən əldə edilmiş gəlirlər hesabına da əldə edə bilərlər.

Bu gün Azərbaycan Respublikasının beynəlxalq aləmə çıxması, onun nüfuzlu beynəlxalq məclislərdə təmsil olunması xalqımızda soy kökünə qayıdış, milli qürur və milli şüurun formalaşmasına, milli ləyaqətin tərbiyə edilməsinə ciddi zəmin və şərait yaratmışdır. Azərbaycan xalqı, onun ziyalısı, fəhləsi, kəndlisi, məktəblisi milli kökü, tarixi, ədəbiyyatı haqqında, özünün kimliyi haqqında düşünür, özünün tarixi köklərini dərindən dərk etməyə çalışır.[1] Mədəniyyət müəssisələrində milli adət-ən`ənələrin, bayramların keçirilməsi də dövlətin bu istiqamətdə apardığı mədəniyyət siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

1. N.Muxtarova. Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyə edilməsi. Bakı, Gənclik, 1992, s.3.

*YAŞAR YUSUBOV*
*ADMİU-nun dissertantı*

# ÜNSİYYƏTDƏ İNFORMASİYA MÜBADİLƏSİ

İnsanların bir-biri ilə ünsiyyətə girməsinin əsas səbəblərindən biri də müxtəlif aktual informasiyalara yiyələnmək tələbatı ilə bağlıdır. Hələ lap qədim zamanlardan informasiym mübadiləsi insan cəmiyyətində xüsusi yer tutmuş, şəxsiyyətlər arasındakı ünsiyyətin, yaxınlaşmanın əsas vasitələrindən birinə çevrilmişdir. Eramızdan əvvəl V əsrdə yaşamış sofistlər mücərrəd şəkildə olsa da informasiya mübadiləsinin ünsiyyətə tə`sirini kommunikasiya prosesi ilə əlaqələndirməyə çalışmışlar. Bəsit formada olsa da onlar kommunikasiyanı üç mühüm aspektə bölmüşlər. Bu bölgüyə görə:

1) İnsanlar arasında mövcud olan olaqələr onların bir-birinə qarşılıqlı tə`sirindən ibarətdir.

2) İnsanlar arasında əmələ gələn kommunikativ əlaqələr özbaşına, təsadüfən yaranmır, əslində o, mühitdən, şəraitdən asılıdır və müəyyən səbəblərlə bağlıdır.

3) Kommunikativ əlaqə hər iki tərəfin yalnız xeyri ilə nəticələnmir. Tərəflərdən biri bu əlaqədən az və ya çox dərəcədə zərər də çəkə bilər.

Kommunikasiya prosesinin baş verməsi informasiya mübadiləsi yaratmaq istəyən iki tərəfin hissi, əməli fəaliyyətindən asılıdır. Təbii ki, onların hər ikisinin içində rə`ylər, mə`lumatlar yığımı mövcuddur və tərəflər bu rə`y və mə`lumatları bir-biri ilə ünsiyyət yaratmaqla aşkarlaya bilirlər. Belə bir vəziyyətdə hər iki tərəf ünsiyyətin həm obyektinə, həm də subyektinə çevrilirlər.

Sosial-psixoloji baxımdan informasiya mübadiləsi fərdi və ya qrup şəklində də ola bilər. Lakin, mübadiləyə girən hər iki tərəf azlıqdan və ya çoxluqdan asılı olmayaraq bir-birini kifayət qədər mə`lumatlandırırlar.

Bu prosesin ikinci əsas şərti hər iki tərəfin istifadə edə biləcəyi vahid kommunikasiya vasitələrinin mövcudluğudur. Yə`ni ünsiyyətdə olan fərdlər informasiyanı bir-birindən deyil, onların hər ikisinə bəlli olan konkret mənbədən götürürlər. Bu mənbə kitabxana, sənədli film, məruzəçi, icmalçı və s. ola bilər. Hər halda vahid informasiya mərkəzi hər iki fərdin eyni zaman və məkanda mə`lumatlanmasına imkan yaradır. Alınan mə`lumatlar yenidən müzakirə obyektinə çıxarılır və mübadilə materialına çevrilir. Xüsusilə kommunikasiya prosesində çatdırılan mə`lumatın qəlizliyi onun yenidən şərhinə ehtiyac yaradır. Bu proses də ünsiyyətin davamlılığını artırır və eyni zamanda informasiyanın dərk olunmasını aslanlaşdırır.

Bir-biri ilə informasiya mübadiləsi etmək bütün insanlara xas olan cəhətdir. Lap qədim zamanlardan kənd və şəhərlərdə insanlar müxtəlif yerlərə toplaşıb baş verən ayrı-ayrı hadisələri, şəxsləri müzakirə obyektinə çıxarmışlar. Yaxşı və ya pis mə`nada "qiybətlər" etmişlər. Hamının qiybət kimi qəbul etdiyi bu proses əslində hər bir fərdin informasiya mübadiləsi etmək, mə`lumatlanmaq ehtiyacından irəli gəlmişdir.

Kənddə və ya şəhərdə informasiya vasitələri artdıqca fikir mübadilələri də çoxalmışdır. Ailə-məişətlə, yerli fəaliyyətlərlə bağlı mə`lumatlara beynəlxalq mə`lumatlar da əlavə olunmuşdur. Tədricən informasiyanın geosiyasi məkanı artmış, insanların dərketmə fəaliyyəti genişlənmişdir.

Dərketmə fəaliyyəti informasiya mübadiləsinnin əsas komponentlərindən biridir. Bu fəaliyyət növü də ünsiyyət prosesində iki istiqamətdə inkişaf edir. Birinci mərhələ mə`lumatın bir-birinə ötürülməsi və mənimsənilməsi prosesidir. Mə`lumatın bir-birinə ötürülməsi əsasən, fərdiləşdirilmiş ünsiyyət prosesində baş verir. Lakin, mə`lumatın çatdırılması prosesi mühazirə, disput, tədbirlər, dərnək məşğələləri zamanı da baş verir. Hər iki halda mə`lumat büdcəsi artır. Eyni zamanda mübadilə olunur. Mə`lumatın mübadiləsi isə yeni müzakirələrin, diskussiyaların yaranması üçün mövzular meydana gətirir. Hər bir fərdin yeni evristik fəaliyyəti formalaşır. Yə`ni, informasiya mübadiləsi təfəkkürü dərinləşdirir, yeni biliklərin əldə olunmasının həm də evristik fəaliyyət mühaitini yaradır.

*GÜLƏR PƏNAHOVA*
*BDU-nun dissertantı*

# HÜSEYN ARİF VƏ FOLKLOR

Azərbaycan poetik fikrinin inkişafında mühüm xidmətləri olan Hüseyn Arif yaradıcılığının özünəməxsus cəhətlərindən biri və bəlkə də birincisi onun xalq ədəbiyyatına bağlılığı, əsərlərində yeri gəldikcə folklor ən`ənələrindən bəhrələnməsidir. Şairin elə bir əsəri yoxdur ki, orada folklordan bəhrələnmənin izləri duyulmasın. Onu da qeyd etmək lazımdır ki, xalq ədəbiyyatı ən`ənələri Hüseyn Arif poeziyasının təkcə formasında deyil, onun məzmununda, daxili qatlarında və ruhunda öz əksini tapmaqdadır. Ümumiyyətlə,

götürdükdə Hüseyn Arif yaradıcılığında xalq ədəbiyyatından bəhrələnmənin aşağıdakı aspektləri səciyyəvidir:

*1.* Hər şeydən əvvəl, Hüseyn Arif xalq ədəbiyyatının ayrı-ayrı janrlarından (qoşma, gəraylı,. təcnis və s.) bəhrələnmiş, aşıq poeziyası ruhunda əsərlər yaratmışdır. Bu ordan irəli gəlir ki, şair aşıq şe`ri və bütövlükdə xalq ədəbiyyatına bağlı olan Səməd Vurğun ədəbi məktəbinin yetirməsi və davamçılarından olmuşdur. Aşıq şe`ri janrlarına müraciət etməsində şairin zövqü, tərbiyəsi və iste`dadının yönümü də mühüm rol oynamışdır.

*2.* Xalq ədəbiyyatına qayıdış və onun ən`ənələrindən bəhrələnmə Hüseyn Arifə dilin sadəliyi, fikrin aydınlığı, səlisliyi baxımından da vacib, zəruri amillərdən olmuşdur.

*3.* Hüseyn Arif mövzu seçimi baxımından da xalq ədəbiyyatının zəngin xəzinəsindən bəhrələnmişdir. Mə`lumdur ki, şairin şe`rlərinin, xüsusilə də poemalarının bir qisminin mövzusu xalq ədəbiyyatından alınmışdır. Bunların içərisində Yəhya bəy Dilqəmin həyatından bəhs edən "Dilqəm" poeması xüsusi yer tutur. Şairin digər poemalarının da istər mövzu-məzmun, isətrsə forma-süjet baxımından xalq ədəbiyyatı ilə bağlı məqamları vardır.

*4.* Xalq ədəbiyyatına bağlılıq Hüseyn Arif poeziyasına səmimiyyət, təbiilik aşılamışdır ki, bu, yaradıcılıq üçün mühüm keyfiyyətlərdən hesab olunmaqdadır.

*5.* Hüseyn Arif yaradıcılığında xalq ədəbiyyatına bağlılığın, folklordan qaynaqlanmanın digər aspektlərindən biri şairin xalqımızın etnoqrafik yaddaşını canlandırması, adət-ən`ənələrimizlə bağlə məqamların təsvirinə meyl və maraq göstərməsidir. Şairin əsərlərini oxuduqca burada Azərbaycan xalqının toy, nişan, evlənmə, yas və s. mərasimlərlə bağlı çoxlu adətlərinə təsadüf olunmaqdadır.

*6.* Xalq ədəbiyyatından bəhrələnmə Hüseyn Arif poeziyasına xəlqilik ruhu aşılamışdır. Şairin əsərlərinin oxunması, sevilməsi, yadda qalması, əzbərlənməsi və s. məhz bununla bağlıdır. Xəlqilik bir də şairin xalqın problemlərinə dərindən bələd olması, onu duyması və əks etdirməsi prinsipinə söykənir.

*7.* Hüseyn Arifin yalnız aşıq şe`ri ruhunda deyil, sərbəst vəzndə yazdığı şe`rlərdə də xalq ədəbiyyatından gələn məqamlar özünü göstərməkdədir.

Əlbəttə, kiçik bir məqalədə Hüseyn Arif və folklor probleminin bütün məqamlarını aşkarlamaq mümkün deyildir. Ona görə də biz ən zəruri məsələlərə toxunmaqla kifayətləndik.



***CƏMİLƏ HÜSEYNOVA***
***BDU-nun dissertantı***

## *SİRLİ SÖZ XƏZİNƏSİ*

Ötən il "Qanun" nəşriyyatı iste`dadlı nasir, "Gəncəli müdrik", "Qızılbaşlar" kimi tarixi romanların, bir çox povest və hekayələrin müəllifi Əlisa Nicatın həyat və yaradıcılığ yolunu işıqlandıran "Sirli xəzinə" adlı kitabı çapdan buraxmışdır. Kitabın tərtibçi və redaktoru Təyyar Çıraqoğludur. Tərtibçi və redaktorun kitaba yazmış olduğu "Bənzərsiz şəxsiyyət" adlı ön sözdə Əlisa Nicatın zəngin yaradıcılıq yoluna işıq tutulur, onun ədəbi fəaliyyəti haqqında mə`lumat verilir, yaradıcılığının elmi-nəzəri aspekti səciyyələndirilir, həmçinin yazıçının ictimai-siyasi fəaliyyəti haqqında mə`lumat verilir. Kitabın sonrakı səhifələrində "Bioqrafik qeydlər və nəşr olunmuş kitablar" başlığı altında Əlisa Nicatın həyat yolu araşdırılır və onun nəşr etdirmiş olduğu iyirmi beş kitabın siyahısı verilir. Daha sonra gələn "Gündəliklərdən seçmələr" bölməsində yazıçının müxtəlif vaxtlarda yazdığı hikmətlərdən parçalar toplanmışdır.

"Sirli xəzinə" kitabının maraqlı bir qismini yazıçının müxtəlif qəzetlərə vermiş olduğu müsahibələr təşkil edir. Bu qəzetlər içərisində "Millətin səsi", "Müxalifət", "Yeni Müsavat" qəzetləri xüsusi yer tutur. Bu yazılarda Əlisa Nicat yaradıcılığının gizli, qaranlıq məqamlarına işıq tutulur, onun həyatının müxtəlif dövrləri, dünyagörüşünün özünəməxsus cəhətləri və s. barədə ətraflı mə`lumat verilir.

"Sirli xəzinə" kitabının "Ürək sözləri" bölməsində S.Rüstəmxanlının, M.Süleymanlının, Qabilin, B.Nəbiyevin, T.Hüseynoğlunun, V.Səmədoğlunun, Ə.Cəfərzadənin, S.Tahirin, V.Sultanlının, B.Vahabzadənin və başqa yazıçı və ədəbiyyatşünasların fikirləri toplanmışdır.

Qısa və yığcam şəkildə yazılmış bu ürək sözləri Əlisa Nicatı ədəbi şəxsiyyət kimi xarakterizə etmək baxımından diqqəti çəkir. Əlbəttə, bu yazıların hamısı haqqında danışmaq imkan xaricindədir. Ona görə də bunların bir qismi haqqında mə`lumat verməklə kifayətlənməyi zəruri hesab edirik.

Xalq şairi B.Vahabzadənin Əlisa Nicat haqqında yazdıqlarından, "Mən Əlisa Nicatın yaradıcılığı ilə Mirzə Şəfi Vazeh haqqında "Gəncəli müdrik" romanını oxumaqla tanış olmuşam. Bu əsər mənə çox tə`sir etdi. Yə`ni mən bu əsərin köməkliyilə o mühiti gördüm. Sonra uzun müddət onu oxuya bilmədim. Son illər Ə.Nicatın qəzetlərdə çıxan pritçalarını oxumuşam. Bu pritçalardan göründüyü kimi Ə.Nicat millətinə bağlı, millətinin taleyini düşünən,

millətin indiki durumu ilə yanıb-yaxılan və düşünən sənətkardır. Onun pritçaları eyhamlı, mə`nalıdır. Bilirsən ki, çox böyük zəhmətin bəhrəsidir. O, yazıçılıqdan başqa mütaliə edən dərin alim-yazıçıdır. Yazıçı olmaq üçün iste`dadı adama Allah verə bilər. Lakin əsl yazıçı olmaq üçün Allah vergisi kifayət deyil, mütləq zəhmət də olmalıdır".

Yazıçı Mövlud Süleymanlı isə Ə.Nicat haqqında fikirlərini belə ümumiləşdirir: "Əlisa Nicat bizim çox ciddi ziyalılarımızdandır. Əlisa haqqında heç kim, heç nə deməyib, çünki biz Əlisaya hazır deyilik. Özü təəccüblənsə də, deyəcəyəm ki, Əlisanı mən ən çox şe`rlərindən sevirəm. Əlisanın şe`rləri insanın bütün ruhunun içi ilə axırdı. Ə.Nicat bütün ziyalılardan fərqli olaraq millətin ağrıyan yerini bilir. Əlisa tarixdən gələn insandır".

Yazıçı Ə.Əylislinin təqdimatında isə Ə.Nicatın bədii dünyasının sirləri belə aşkarlanır: "Ə.Nicat harmoniyanı sevir və o harmoniyasız yaza bilmir. Mən istərdim ki, Əlisanın bundan sonra qalan ömrü də harmoniyasız olmasın. Əlisa yazdıqca açılan yazıçıdır. Mən arzulardım ki, Əlisa yazıb-yazıb dünyaya bir dənə də pəncərə açsın və o pəncərədən baxanda yenə gözəlliyi görsün. Bu gözəllik harmoniyasında nə yaratsa, mənim qəbulumdur".

İnanırıq ki, Əlisa Nicatın zəngin yaradıcılıq yoluna işıq tutan "Sirli xəzinə" kitabı geniş oxucu kütlələrinin rəğbət və marağını qazanacaqdır.

***ALMAZ HÜSEYNOVA***
***BDU-nun dissertantı***

## *"KİTABİ-DƏDƏ QORQUD" VƏ AZƏRBAYCAN MÜHACİRƏT FOLKLORŞÜNASLIĞI*

Azərbaycan mühaciərt folklorşünaslığının milli epos yaradıcılığına həsr olunmuş tədqiqatlarının mərkəzində "Kitabi-Dədə Qorqud" dastanının özünəməxsus yeri vardır. M.Ə.Rəsulzadə, Ə. Cəfəroğlu, M.B.Məmmədzadə, H.Baykara və b. müəlliflər öz yazılarında yeri gəldikcə bu dastana müraciət etmiş haqqında maraqlı fikirlər söyləmişlər. Mühacirət folklorşünaslığının "Kitabi-Dədə Qorqud" dastanına müraciət etməsi bir sıra amillərlə bağlıdır. Hər şeydən əvvəl dastan oğuz türklərinin ən qədim yazılı abidələrindən biri kimi diqqət və maraq doğurmuşdur. Azərbaycan mühacirət folklorşünaslığının əsas e`tibarı ilə Türkiyədə yarandığını nəzərə alsaq, abidənin türk xalqlarının ortaq sənət nümunəsi olması da ona marağın artmasına səbəb olmuşdur. Bundan əlavə, dastanın qəhrəmanlıq, alp-ərənlik dünyagörüşü ilə zənginliyi yalnız sənət əsəri kimi qalmayıb tarixi faktları da əks etdirməsi, xüsusilə Türk-oğuz dövlətçilik tarixinin bir sıra xüsusiyyətlərini daşıması da ona marağı şərtləndirən amillərdəndir.

Mühacirət folklorşünaslığında "Kitabi-Dədə Qorqud"un tədqiqi tarixinə xeyli əvvəl başlanmışdır. Azərbaycanda isə dastanın ciddi araşdırılması XX əsrin 30-cu illərinin sonlarına təsadüf edir. 1939-cu ildə akademik Həmid Araslının dastanın mətnini nəşr etdirərək elmi ictimaiyyətin mühakiməsinə verməsi Azərbaycan Qorqudşünaslığının bir növ başlanğıcını təşkil edir.

Şübhəsiz ki, Azərbaycan mühacirət folklorşünaslığından danışarkən ilk növbədə diqqəti M.Ə.Rəsulzadənin tədqiqatları çəkir. Qeyd edək ki, böyük siyasi xadim hələ Azərbaycan cümhuriyyətinin süqutundan sonra Stalinin himayəsi ilə Moskvada yaşayıb-yaratdığı dövrlərdə "Kitab-Dədə Qorqud" dastanının rus dilinə tərcüməçisi olan görkəmli şərqşünas akademik V.V.Bartoldla görüşmüş, akademikin xahişi ilə eposun mətnindəki müəyyən çətin sözlərin şərhi və sərrast tərcüməsi üçün ona yardım etmişdir. Qorqudşünaslıq üçün əhəmiyyətli olan bu fakt "Kitabi-Dədə Qorqud"un rusca nəşrində akademik V.V.Bartold tərəfindən sayğı ilə e`tiraf olunmuşdur.

M.Ə.Rəsulzadə sonralar mühacirətdə olduğu dövrdə də "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı tədqiqatlarını davam etdirmiş, müxtəlif səpkili araşdırmalarında öz qənaətlərini ümumiləşdirmişdir. Ədibin mühacirətdə qələmə aldığı "Dədə Qorqud dastanları", "Dədə Qorqud oğuznamələri" və b. məqalələrində, habelə ədəbiyyat tarixinə həsr olunmuş tədqiqatların müəyyən qismində, o cümlədən "Qafqasiya türkləri" əsərində dastanla bağlı ciddi elmi-nəzəri məqamlar vardır.

Görkəmli türkoloq Əhməd Cəfəroğlunun araşdırmalarında da "Kitabi-Dədə Qorqud" eposu şifahi söz sənətimizin əski qaynaqlarından biri kimi təhlil və təqdim olunur. Əhməd Cəfəroğlu "Azəri xalq ədəbiyyatında sayaçı sözləri" adlı məqaləsində "Kitabi-Dədə Qorqud" və sayaçı sözləri arasında müqayisə apararaq varislik əlaqəsinə diqqəti çəkir.

Əhməd Cəfəroğlunun "Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri" əsərində "Kitabi-Dədə Qorqud" eposunun ayrıca bir mərhələ kimi səciyyələndirilməsi müəllifin, bu abidəyə necə böyük dəyər verməsinin həqiqi göstəricisidir. M.Ə.Rəsulzadə kimi Ə.Cəfəroğlu da "Kitabi-Dədə Qorqud" eposunun qeyd-şərtsiz Azərbaycan sahəsinə aid olması məsələsinə xüsusi diqqət yetirir və təhlillərini də bu prinsipə söykənərək qurur. Eposda Dədə Qorqudu xalqın mənəvi rəhbəri kimi təqdim edən araşdırıcı onun tarixi şəxsiyyət olduğuna diqqət yetirir.

Əhəmd Cəfəroğlu qeyd edir ki, "Kitabi-Dədə Qorqud" eposu yalnız türk

el ədəbiyyatında deyil, bütün dünya ədəbiyyatında özünəməxsus yeri olan bir sənət abidəsidir. O dünyanın bitərəf araşdırıcılarının "Kitabi-Dədə Qorqud"u "Roland şərqisi", "Nibelunq nəğmələri", "İqor polku dastanı" ilə müqayisə etmələrini və onlara tay tutmalarını "bu türk el ədəbiyyatı örnəyini cahan ədəbiyyatının epik əsərləri sırasına qatmaqlarını" dastanın kamil sənət nümunəsi olması ilə izah edir.

M.B.Məmmədzadənin "Dədə Qorqud", H.Baykaranın "Dədə Qorqud" kitabı üzərinə notlar" adlı məqalələrində də abidə hərtərəfli təhlilini tapmış, qorqudşünaslıq üçün bu gün də müasirliyini qoruyan fikir və mülahizələr irəli sürülmüşdür.

*ALMAZ HƏSƏNQIZI*
***BDU-nun dissertantı***

# *"LƏTİF ŞAH" DASTANI: Ə.CƏFƏROĞLU VƏ Ə.AXUNDOV VARİANTLARININ MÜQAYİSƏLİ TƏHLİLİ*

Aşıq Şenliyə aid edilən "Lətif şah" dastanının variantalırndan biri 1942-ci ildə Əhməd Cəfəroğlu tərəfindən toplanaraq İstanbulda nəşr edilmiş, digər bir variantı isə 1944-cü ildə Əhliman Axundov tərəfindən yazıya alınmışdır. Hər iki dastanda süjet uyğunluqları olsa da, müəyyən fərqlərə təsadüf olunur:

*1.* Dastanın Ə.Cəfəroğlu variantı "Lətif şah və Telli Mehriban hekayəsi", Ə.Axundov variantı "Lətif şah" adı ilə dərc olunmuşdur.

*2.* Ə.Cəfəroğlu variantında üçü deyişmə olan 17, Ə.Axundov variantında isə 9-u deyişmə olan 24 şe`r parçası verilmişdir.

*3.* Ə.Cəfəroğlu variantında Lətif şah lələsi ilə birlikdə ovda olarkən soyğunçuluqla məşğul olur, yalnız atası xəbər tutduqdan sonra bu işdən əl çəkir Ə.Axundov variantında belə epizod yoxdur.

*4.* Butaların görüş yerləri də fərqlidir. Ə.Axundov variantında ovda olarkən Lətif şaha Hindistan şahının qızı Mehriban buta verilir, ayılandan sonra o, Hindistan dağlarına gedir, elə burada iki sevgili görüşür.

Ə.Cəfəroğlu variantında isə Mehriban buta aldıqdan sonra anasını ona Yəmən dağına getməyə icazə verməsinə razı salır və ovda yatan Lətif şahı görür.

*5.* Ə.Cəfəroğlu variantında Mehriban ilk görüş vaxtı öz üzüyünü Lətif şahın barmağına, onun üzüyünü çıxarıb öz barmağına taxır. Ə.Axundov variantında bu yoxdur.

*6.* Çox ciddi fərqlərdən biri isə Lətif şahın fars hökmdarının bacısı Əsma xanım tərəfindən xilasetmə səhnəsidir. Ə.Cəfəroğlu variantında o, özünün evli olduğunu mərd-mərdanə söyləyir, Əsma ilə evlənməyə söz vermir. Ə.Axundov variantında isə bunu gizli saxlayır.

*7.* Qəhrəmanların adlarında bə`zi fərqlər vardır. Ə.Cəfəroğlu variantında Yəmən şahı - Ə.Axundov variantında Dərdli şah, Ə.Cəfəroğlu variantında Telli Mehriban - Ə.Axundov variantında Mehriban Soltan, Ə.CƏfəroğlu variantında Əsmər - Ə.Axundov variantında Əsma kimi verilir.

*8.* Ə.Cəfəroğlu variantında həmçinin müasirləşmə, dastan ən`ənəçiliyindən uzaqlaşma meylləri (Yəmənə gələn bəzirganların yüklərinin yoxlanması, Lətif şah xəstələnəndə xəstəxanaya aparılması, Hindistana getmək üçün pasport hazırlanması və s.) hiss olunur. Bu xüsusiyyət Ə.Axundov variantında yoxdur.

*TƏHMASİB ƏJDƏROV*
***İqtisad elmləri namizədi***

# *MÜƏSSİSƏLƏRİN İNKİŞAFINA VERGİ MEXANİZMİNİN TƏ`SİRİ*

Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinə tətbiq edilən vergi mexanizmi bilavasitə məhsul istehsalı ilə bağlıdır.

Hazırkı şəraitdə hər bir sənaye müəssisəsinin rəhbərliyi çalışmalıdır ki, istehsal imkanlarından səmərəli istifadə etməklə, məhsul istehsalının həcminin dəyişməsi ilə əlaqədar, öz mənfəətinin (gəlirlərinin) artıb-azalacağını müəyyənləşdirsin. Bunun üçün o, birinci növbədə istehsal olunmuş məhsulun optimal həcmini müəyyənləşdirməli və həmin məhsulun istehsalı üçün çəkilən xərcləri (maya dəyərini) hesablamalıdır. Bundan sonra, istehsal olunmuş sənaye məhsulunun satışından əldə edilmiş ümumi pul gəlirlərinin həcmi və ümumi istehsal xərclərinin kəmiyyəti təhlil edilməlidir. Məhsul satışından əldə olunan pul gəlirlərinin həcmi bilavasitə, məhsul vahidinin bazar qiymətlərindən asılı olduğundan və sənaye müəssisəsinin mənfəətlə işləmə-

sini müəyyən etmək üçün orta istehsal xərcləri ilə məhsulun bazar qiymətləri müqayisəli təhlil olunmalıdır.

Mənfəət - hər bir sənaye müəssisəsinin istehsal etdiyi məhsulların satışından əldə olunan nəticəni xarakterizə edir.

Sənaye müəssisələrində istehsal şərtlərinin səmərəli istifadə olunması baxımından, mənfəətin yüksəldilməsinin aşağıdakı istiqamətlərini göstərmək olar:

*1.* Elmi-texniki tərəqqinin son nailiyyətlərinin istehsala tətbiq edilməsi;

*2.* İstehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi;

*3.* Bazarın tələblərinə uyğun yeni növ məhsulların istehsalı;

*4.* Xarici investisiya vəsaitlərindən səmərəli istifadə.

Yuxarıda göstərilən bu istiqamətlər nəticə e`tibarı ilə sənaye müəssisələrində istehsal xərclərinin aşağı salınmasına və mənfəətin yüksəldilməsinə səbəb olur.

Sənaye müəssisələrində mənfəət - başlıca əsas göstərici hesab olunur. Müəssisə tərəfindən istehsal olunmuş məhsul satıldıqdan sonra, əldə olunan ümumi mənfəətdən (gəlirdən), əlavə dəyər vergisi və bilavasitə istehsalla əlaqədar olan xərclər çıxıldıqdan sonra yerdə qalan balans mənfəətindən - dövlət büdcəsinə mənfəət vergisi hesablanır. Hesablanmış mənfəət vergisi, balans mənfəətindən çıxıldıqdan sonra, əldə olunan sərbəst mənfəət müəssisənin sərəncamındaqalır.

Müəssisədə qalan sərbəst mənfəətin istifadə olunması qaydaları bilavasitə nizamnaməyə uyğun olunmalıdır. Sərbəst mənfəətin müəyyən hissəsi payçılar arasında bölüşdürülə, divident kimi səhmdarlara verilə və yaxud müəssisənin mülkiyyətçisi tərəfindən istifadə oluna bilər. Sərbəst mənfəətin bölüşdürülməyən hissəsindən, müəssisələr öz istehsalını inkişaf etdirmək üçün - fondlar və ehtiyatlar yarada bilərlər. Sənaye sahələrində ehtiyat fondunun yaradılması hesabına - gözlənilməz itkiləri və müəssisənin zərərlərini ödəmək mümkündür. Bu fond öz təbiəti e`tibarı ilə sığorta xarakteri daşıyır.

Sənaye müəssisələrində xüsusi vəsait mənbəyi kimi əlavə kapital, bir qayda olaraq, əsas vəsaitlərin və digər material qiymətlərinin (maddi vəsaitlərin) yenidən qiymətləndirilməsi nəticəsində əldə olunur. Sənaye müəssisələrində bu vəsaitin istehlak məqsədlərinə istifadəsi normativ sənədlərə uyğun olaraq qadağan edilir.

Bazar iqtisadiyyatı şəraitində hər bir sənyae müəssisəsinə artıq tam surətdə sərbəstlik verilmişdir. Ona görə də, hər bir sənaye müəssisəsində, istehsal olunan məhsullar üzrə - istehsal maliyyə planının təşkili; bilavasitə müəssisənin maliyyə siyasətinin düzgün işlənib hazırlanmasından asılı olmalıdır.

Hazırda sənaye müəssisəsinin maliyyə siyasətinin düzgün işlənib hazırlanmasında məqsəd - hər bir müəssisənin öz maliyyə vəsaitləri hesabına idarə edilməsinin elə səmərəli sisteminin qurulmasıdır ki, bu da qarşıda duran strateji və taktiki vəzifələrin yerinə yetirilməsinə istiqamətləndirilməlidir.



Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisəsinin maliyyə siyasətinin düzgün təşkilinin əsas strateji vəzifələri aşağıdakılar hesab olunurlar:

*1.* Müəssisədə məhsul istehsalından və onun satışından əldə olunan mənfəətin (gəlirin) yüksək səviyyəsinin müəyyən edilməsi;

*2.* Müəssisəsinin öz vəsaitlərindən məhsul istehsalında sərbəst istifadəsi və maliyyə sabitliyinin tə`min olunması;

*3.* Müəssisəyə investisiya qoyuluşunun tə`min edilməsi;

*4.* Müəssisənin idarə olunmasında səmərəli mexanizmlərin tətbiqi;

*5.* Müəssisənin mülkiyyətçiləri (payçılar), investorları və kreditorları üçün - müəssisənin maliyyə-iqtisadi planının düzgün təşkil edilməsinə nail olunması;

*6.* Rəqabətə davamlı və bazarın tələb və təklifinə uyğun məhsul istehsalı.

Deməli yuxarıda qoyulan bütün vəzifələr sənaye müəssisəsinin maliyyə siyasətində, bilavasitə öz əksini tapmalıdır.

Hazırda sənaye müəssisəsinin maliyyə siyasətinin istiqamətlərinə aşağıdakıları aid etmək olar:

*1.* Müəssisənin maliyyə-iqtisadi vəziyyəti;

*2.* Uçot və vergi siyasəti;

*3.* Müəssisənin kredit siyasəti;

*4.* Dövriyyə vəsaitlərindən səmərəli istifadə;

*5.* İstehsal xərclərinin strukturu.

Müəssisənin maliyyə siyasətinin mühüm istiqamətlərindən biri olan "Uçot və vergi siyasəti" bölməsində dövlət büdcəsinə ayrı-ayrı vergilərin hesablanıb vaxtında ödənilməsi planlaşdırılır. Sənaye müəssisəsində "vergi siyasəti" bölməsinin təşkilində əsas məqsəd - müəssisənin büdcə ilə qarşılıqlı münasibətlərinin səmərəli olması, həm də "Vergi Məcəllə"sinin tələblərinə müvafiq olaraq qurulmasıdır. Hazırda müəssisələrdə "Vergi siyasəti" bölməsinin təşkili - "Vergi Məcəlləsi"nin əsasında müəyyən edilməlidir.

Respublikamızın sənaye müəssisələri dövlət büdcəsinə və büdcə fondlarına aşağıdakı vergi və ayırmaları hesablayıb vaxtında ödəməlidirlər:

***1. Mənfəət vergisi*** - Sənaye müəssisələrinin mənfəətindən qanunla müəyyənləşdirilmiş dərəcə ilə hesablanaraq, dövlət büdcəsinə köçürülür. Burada müəssisənin əldə etdiyi gəlirlərdən - əlavə dəyər vergisi, aksiz vergisi və istehsal ilə bağlı olan xərcləri çıxıldıqdan sonra, yerdə qalan balans mənfəətindən - mənfəət vergisi, yeni təsdiq olunmuş "Vergi məcəlləsi"nə uyğun olaraq 27 faizlə hesablanaraq dövlət büdcəsinə ödənilməlidir.

***2. Əlavə dəyər vergisi*** - Bu vergi növü sənaye müəssisələrində istehsal

sini müəyyən etmək üçün orta istehsal xərcləri ilə məhsulun bazar qiymətləri müqayisəli təhlil olunmalıdır.

Mənfəət - hər bir sənaye müəssisəsinin istehsal etdiyi məhsulların satışından əldə olunan nəticəni xarakterizə edir.

Sənaye müəssisələrində istehsal şərtlərinin səmərəli istifadə olunması baxımından, mənfəətin yüksəldilməsinin aşağıdakı istiqamətlərini göstərmək olar:

*1.* Elmi-texniki tərəqqinin son naliyyətlərinin istehsala tətbiq edilməsi;

*2.* İstehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi;

*3.* Bazarın tələblərinə uyğun yeni növ məhsulların istehsalı;

*4.* Xarici investisiya vəsaitlərindən səmərəli istifadə.

Yuxarıda göstərilən bu istiqamətlər nəticə e`tibarı ilə sənaye müəssisələrində istehsal xərclərinin aşağı salınmasına və mənfəətin yüksəldilməsinə səbəb olur.

Sənaye müəssisələrində mənfəət - başlıca əsas göstərici hesab olunur. Müəssisə tərəfindən istehsal olunmuş məhsul satıldıqdan sonra, əldə olunan ümumi mənfəətdən (gəlirdən), əlavə dəyər vergisi və bilavasitə istehsalla əlaqədar olan xərclər çıxıldıqdan sonra yerdə qalan balans mənfəətindən - dövlət büdcəsinə mənfəət vergisi hesablanır. Hesablanmış mənfəət vergisi, balans mənfəətindən çıxıldıqdan sonra, əldə olunan sərbəst mənfəət müəssisəsinin sərəncamındaqalır.

Müəssisədə qalan sərbəst mənfəətin istifadə olunması qaydaları bilavasitə nizamnaməyə uyğun olunmalıdır. Sərbəst mənfəətin müəyyən hissəsi payçılar arasında bölüşdürülə, divident kimi səhmdarlara verilə və yaxud müəssisənin mülkiyyətçisi tərəfindən istifadə oluna bilər. Sərbəst mənfəətin bölüşdürülməyən hissəsindən, müəssisələr öz istehsalını inkişaf etdirmək üçün - fondlar və ehtiyatlar yarada bilərlər. Sənaye sahələrində ehtiyat fondunun yaradılması hesabına - gözlənilməz itkiləri və müəssisənin zərərlərini ödəmək mümkündür. Bu fond öz təbiəti e`tibarı ilə sığorta xarakteri daşıyır.

Sənaye müəssisələrində xüsusi vəsait mənbəyi kimi əlavə kapital, bir qayda olaraq, əsas vəsaitlərin və digər material qiymətlərinin (maddi vəsaitlərin) yenidən qiymətləndirilməsi nəticəsində əldə olunur. Sənaye müəssisələrində bu vəsaitin istehlak məqsədlərinə istifadəsi normativ sənədlərə uyğun olaraq qadağan edilir.

Bazar iqtisadiyyatı şəraitində hər bir sənyae müəssisəsinə artıq tam surətdə sərbəstlik verilmişdir. Ona görə də, hər bir sənaye müəssisəsində, istehsal olunan məhsullar üzrə - istehsal maliyyə planının təşkili, bilavasitə müəssisənin maliyyə siyasətinin düzgün işlənib hazırlanmasından asılı olmalıdır.

Hazırda sənaye müəssisəsinin maliyyə siyasətinin düzgün işlənib hazırlanmasında məqsəd - hər bir müəssisənin öz maliyyə vəsaitləri hesabına idarə edilməsinin elə səmərəli sisteminin qurulmasıdır ki, bu da qarşıda duran strateji və taktiki vəzifələrin yerinə yetirilməsinə istiqamətləndirilməlidir.



Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisəsinin maliyyə siyasətinin düzgün təşkilinin əsas strateji vəzifələri aşağıdakılar hesab olunurlar:

*1.* Müəssisədə məhsul istehsalından və onun satışından əldə olunan mənfəətin (gəlirin) yüksək səviyyəsinin müəyyən edilməsi;

*2.* Müəssisəsinin öz vəsaitlərindən məhsul istehsalında sərbəst istifadəsi və maliyyə sabitliyinin tə`min olunması;

*3.* Müəssisəyə investisiya qoyuluşunun tə`min edilməsi;

*4.* Müəssisənin idarə olunmasında səmərəli mexanizmlərin tətbiqi;

*5.* Müəssisənin mülkiyyətçiləri (payçılar), investorları və kreditorları üçün - müəssisənin maliyyə-iqtisadi planının düzgün təşkil edilməsinə nail olunması;

*6.* Rəqabətə davamlı və bazarın tələb və təklifinə uyğun məhsul istehsalı.

Deməli yuxarıda qoyulan bütün vəzifələr sənaye müəssisəsinin maliyyə siyasətində, bilavasitə öz əksini tapmalıdır.

Hazırda sənaye müəssisəsinin maliyyə siyasətinin istiqamətlərinə aşağıdakıları aid etmək olar:

*1.* Müəssisənin maliyyə-iqtisadi vəziyyəti;

*2.* Uçot və vergi siyasəti;

*3.* Müəssisənin kredit siyasəti;

*4.* Dövriyyə vəsaitlərindən səmərəli istifadə;

*5.* İstehsal xərclərinin strukturu.

Müəssisənin maliyyə siyasətinin mühüm istiqamətlərindən biri olan "Uçot və vergi siyasəti" bölməsində dövlət büdcəsinə ayrı-ayrı vergilərin hesablanıb vaxtında ödənilməsi planlaşdırılır. Sənaye müəssisəsində "vergi siyasəti" bölməsinin təşkilində əsas məqsəd - müəssisənin büdcə ilə qarşılıqlı münasibətlərinin səmərəli olması, həm də "Vergi Məcəllə"sinin tələblərinə müvafiq olaraq qurulmasıdır. Hazırda müəssisələrdə "Vergi siyasəti" bölməsinin təşkili - "Vergi Məcəlləsi"nin əsasında müəyyən edilməlidir.

Respublikamızın sənaye müəssisələri dövlət büdcəsinə və büdcə fondlarına aşağıdakı vergi və ayırmaları hesablayıb vaxtında ödəməlidirlər:

***1. Mənfəət vergisi*** - Sənaye müəssisələrinin mənfəətindən qanunla müəyyənləşdirilmiş dərəcə ilə hesablanaraq, dövlət büdcəsinə köçürülür. Burada müəssisənin əldə etdiyi gəlirlərdən - əlavə dəyər vergisi, aksiz vergisi və istehsal ilə bağlı olan xərcləri çıxıldıqdan sonra, yerdə qalan balans mənfəətindən - mənfəət vergisi, yeni təsdiq olunmuş "Vergi məcəlləsi"nə uyğun olaraq 27 faizlə hesablanaraq dövlət büdcəsinə ödənilməlidir.

***2. Əlavə dəyər vergisi*** - Bu vergi növü sənaye müəssisələrində istehsal

olunan məhsulların, işlərin və xidmətlərin göstərilməsi prosesində yaranan və onlar satıldıqca reallaşan dəyər artımının bir hissəsinin büdcəyə alınması formasıdır. Hazırda təsdiq olunmuş yeni "Vergi Məcəlləsi"nə əsasən, əlavə dəyər vergisinin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizi ilə hesablanaraq ödənilməlidir.

*3. Aksiz vergisi* - Sənaye müəssisələrində istehsal olunan (spirt, maya, pivə, spirtli içkilərin bütün növləri, tütün mə'mulatları, neft məhsulları) malların, habelə xidmətlərin qiymətlərinə daxil edilən və alıcı tərəfindən ödənilən vasitəli vergi formasıdır. Aksiz vergisi tutulmalı malların siyahısı və onların aksiz vergisi dərəcələri respublika hökumətinin müvafiq qərarları ilə müəyyən olunur. Hazırda respublikamızda aksiz vergisinin dərəcələri ayrı-ayrı məhsuldar üzrə - 29,83 faizdən - 90 faizə qədər müəyyən edilmişdir.

*4. Mə'dən vergisi* - Respublika ərazisində yeraltı sərvətlərdən səmərəli istifadə etmək və onlar çıxarılarkən ayrı-ayrı sahələr arasında rentabellik səviyyəsi ilə əlaqədar rəqabət münasibətlərini tənzimlənmək məqsədi ilə ödənilir. Mə'dən vergisini yalnız yerin təkindən faydalı qazıntıların çıxarılması ilə məşğul olan sənaye müəssisələri ödəyirlər. Bu vergi növünə cəlb olunan faydalı qazıntı növlərini və vergi dərəcələrini respublika hökuməti müəyyən edir. Hazırda respublikamızda mə'dən vergisinin dərəcələri ayrı-ayrı məhsul növləri üzrə 3 faizdən - 26 faizə qədər müəyyən olunmuşdur.

*5. Əmlak vergisi* - Sənaye müəssisələrinin balansında olan əsas vəsaitlərin məbləğindən (dəyərindən) hseblanır. Yeni təsdiq olunmuş "Vergi Məcəlləsi"nə əsasən, dövlət büdcəsinə hesabat dövrü ərzində ödənilməli olan əmlak vergisinin məbləği, hesabat dövrü ərzində əvvəllər hesablanmış ödəmələr nəzərə alınmaqla müəyyən edilir. Belə ki, hazırda əmlak vergisi - əvvəlki ildəki əmlak vergisi məbləğinin 25 faizi həcmində hesablanaraq ödənilməlidir.

*6. Torpaq vergisi* - Sənaye müəssisələrinin mülkiyyətində və istifadəsində olan torpaqlardan səmərəli istifadəni tə'min etmək üçün hüquqi şəxslərdən hər il tutulur. Torpaq vergisinin dərəcələri - torpağın tə'yinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq, respublikanın Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Hazırda təsdiq olunmuş yeni "Vergi Məcəllə"sinə əsasən torpaq vergisinin dərəcələri 0,06 faizdən - 0,3 faizə qədər müəyyən edilmişdir.

*7. Xarici iqtisadi fəaliyyətdən vergilər* - Sənaye müəssisələri xarici dövlətlərlə idxal-ixrac əməliyyatlarının həyata keçirilməsinə görə, dövlət büdcəsinə kömrük rüsumları və ayrı-ayrı vergilər ödəyirlər.

*8. Əmək haqqında tutulan gəlir vergisi* - Sənaye müəssisələrinin özlərinin işçi hey'ətinə hesabladığı aylıq əmək haqqından tutularaq dövlət büdcəsinə ödənilir. Hazırkı yeni təsdiq olunmuş "Vergi Məcəllesi"nə əsasən, işçi



hey'ətinin aylıq əmək haqqından tutulan gəlir vergisinin dərəcələri 12 faizdən - 35 faizə qədər müəyyən olunmuşdur.

*9. Dövlət sığorta fonduna ayırmalar* - sənaye müəssisələri məcburi surətdə, əməyin ödəniş fondunun 35 faizi miqdarında dövlət sığorta fonduna ayırmalar edərək, onu ödəyirlər. Bu məsrəflər də məhsuların (iş və xidmətlərin) maya dəyərinə aid edilir.

*10. Dövlət məşğulluq fonduna ayırmalar* - Mülkiyyət və təsərrüfatçılıq formasından asılı olmayaraq sənaye müəssisələrində əməyin ödənilməsinə yönəldilmiş vəsaitin 2 faizi miqdarında dövlət məşğulluq fonduna ayırmalar edərək və bu məsrəfləri məhsulların (iş və xidmətlərin) maya dəyərinə aid edirlər.

*11. Əlillərin Sosial Müdafiyə Fonduna ayırmalar* - Sənaye müəssisələri əldə olunmuş balans mənfəətinin 1 faizi miqdarında qanunla müəyyən olunmuş qaydada əlillərin sosial müdafiə fonduna məcburi ayırmalar edirlər.

Sənaye müəssisələrinin dövlət büdcəsinə və digər məcburi fondlara ayırmaları "Vergi Məcəlləsi" ilə müəyən edilmiş qaydada icra olunmalıdır.

Hazırda respublikada Vergilər Nazirliyi tərəfindən aparılan vergi siyasəti, əvvəlki dövrdə dövlət büdcəsinə borcu olan sənaye müəssisələrinə, həmin borcların güzəştli qaydada ödənilməsi formasını tətbiq etmişdir.

Respublikanın vergi orqanları dövlət büdcəsinə borcu olan hüquqi şəxsləri qanunda nəzərdə tutulmuş qaydada, qeydiyyatda olduğu rayon vergi idarəsinə çağıraraq həmin güzəştli şərtlərdən istifadə etməsini təşkil etmişdir. Belə ki, borcların güzəştli şərtlərlə ödənilməsi, parlamentin dövlət büdcəsi ilə bərabər qəbul etdiyi "Hüquqi şəxslərin dövlət büdcəsinə borclarının güzəştli ödənişi haqqında" qanununa əsaslanır. 1 yanvar 2001-ci ildə qüvvəyə minən bu qanun hökumətin apardığı vergi siyasəti ilə bilavasitə bağlıdır. Bu qanun sənaye müəssisələrinin dövlət büdcəsinə olan borclarının əsas məbləğinin güzəştli şərtlərlə ödənilməsini planlaşdırır. Dövlət büdcəsinə olan əsas borcun güzəştli ödənişi müqabilində bütün tətbiq olunmuş maliyyə sanksiyaları və hesablanmış müamilələr (penya) ləğv olunmalıdır.

Qanuna əsasən, müəssisə tərəfindən güzəştli ödəmənin başlanılması anından 1 oktyabr 2000-ci il tarixə olan borcun üstünə müamilə (penya) gəlməsi dayandırılır. Əksər halda, borcu olan tərəf ödəmə qaydasını pozarsa, olavələr pozuntu olan anadək tam bərpa olunacaqdır.

Ümumilikdə, dövlət büdcəsinə olan borcların həcminə gəldikdə, ölkə üzrə sənaye müəssisələri arasında qarşılıqlı borcların həcmi 15,7 trln. manatdır. Bu vəsaitin 6,3 trln. manatını dövlət büdcəsinə olan borclar təşkil edir.

Vergilər Nazirliyinin təqribi mə'lumatlarına əsasən, 2000-ci ilin oktyabr ayının 01-nə ödənilməli olan, lakin ödənilməyən vergilər və vergi qanunvericiliyinin pozulmasına görə, hesablanmış müamilə (penya) və maliyyə san-

siyalarının ümumi məbləği 5,8 trln. manat təşkil etmişdir.

Hazırda dövlət və qeyri-dövlət sektorunda çalışan və dövlət büdcəsinə borcu olan sənaye müəssisələrinin sayı 6950-dən artıqdır.

"Hüquqi şəxslərin dövlət büdcəsinə borclarının güzəştli ödənişi haqqında" qanuna əsasən, əgər müəssisələr güzəştdən istifadənin bir ili ərzində borcun əsas hissəsinin 25 faizini ödəyərlərsə, onda borcun qalan hissəsi, həmçinin müamilə (penya) və maliyyə sanksiyaları, həmin müəssisələrdən silinməlidir. Eyni güzəşt iki ilə ərzində borcun 45 faizini, üç ildə 60 faizini, dörd ildə 70 faizini ödəyən sənaye müəssisələrinə də şamil edilir.

Əgər sənaye müəssisələri bu güzəştlərdən istifadə etsələr, təkcə 2001-ci ildə dövlət büdcəsinə ödənilən məbləğ 875 mlrd. manat təşkil edəcəkdir. Silinən məbləğ isə 2,7 trln. manata bərabər olmalıdır.

Hazırda respublikada fəaliyyət göstərən sənaye müəssisələrini və onun ayrı-ayrı sahələrini inkişaf etdirmək üçün aşağıdakı vergi güzəştlərindən istifadə olunmasını məqsədəuyğun hesab etmək olar:

*1.* Sənaye müəssisələri əldə etdikləri mənfəətin (gəlirin) həcminə görə, aşağıdakı dərəcələrlə vergiyə cəlb olunmalıdırlar:

*a) Mnfəətin məbləği 10,0 mln. manatadək olduqda - verginin dərəcəsi - 12 faizlə;*

*b) Mənfəətin məbləği 10,0 mln. manatdan - 50,0 mln. manatadək olduqda - verginin dərəcəsi 15 faizlə;*

*v) Mənfəətin məbləği 50,0 mln. manatdan - 100,0 mln. manatadək olduqda - verginin dərəcəsi - 18 faizlə;*

*q) Mənfəətin məbləği 100,0 mln. manatdan çox həcmdə olduqda - verginin dərəcəsi - 20 faizlə.*

*2.* Sənaye müəssisələrinin sərəncamında qalan mənfəət hesabına rekonstruksiya, sərbəst valyuta ilə xaricdən alınan və dünya standartlarına uyğun gələn mütərəqqi texnologiyaların tətbiqi və yen növ məhsulların hazırlanmasına görə, mənfəət faktiki xərclərin 30 faizi həcmində azaldılmaldır;

*3.* Sənaye müəssisələri yeni növ məhsulların istehsalı ilə əlaqədar kommersiya banklarından aldığı kreditin ödənilməsinə istifadə edilmiş vəsaitin qədərində balans mənfəəti azaldılmalıdır;

*4.* Müəssisənin sərəncamında qalan mənfəət hesabına - təbiəti mühafizə tədbirlərinin görülməsi ilə bağlı xərclərin - 25 faizə qədəri, faktiki xərclərin hesabına azaldılmalıdır;

*5.* Sənaye müəssisələrinin inkişafına investisiya qoyuluşları (müəssisənin yenidən qurulması, müasir texnologiyanın tətbiqi və mənimsənilməsi, xalq istehlakı mallarının istehsalının artırılması və avadanlıq istehsalının təşkili) habelə, bu məqsədlərə ayrılmış kreditlərin ödənilməsində istifadə olunmuş mənfəətin məbləği qədər balans mənfəəti azaldılmalıdır;



*6.* Ərzaq, xalq istehlakı malları, uşaq yeməyi, dərman istehsalını həyata keçirən müəssisələr - əldə etdiyi mənfəət məbləğində balans mənfəəti azaldılmalıdır;

*7.* Sənaye müəssisəsində peşə hazırlığına və işçinin yenidən hazırlanmasına - xərclədikləri mənfəət məbləğində balans mənfəəti azaldılmalıdır.

Beləliklə, sənaye müəssisələrinin və onun ayrı-ayrı sahələrinin inkişafında yuxarıda göstərilən vergi güzəştlərindən səmərəli istifadə etməklə, istehsalın həcmini və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaq olar.

*GÜNAY NƏCƏFOVA*
***BDU-nun magistri***

## *ƏN`ƏNƏYƏ BAĞLI ŞAİR*

Xalq yaradıcılığı, folklor nümunələri öz aktuallığını heç bir zaman itirməmişdir. Ədəbiyyatımız da dərin köklərlə xalq yaradıcılığına bağlı olduğu, bu çeşmədən su içdiyi üçün dünya şöhrəti qazanmışdır. Xalq yazıçısı Süleyman Rəhimovun tə`biri ilə desək, xalq yaradıcılığından qaynaya-qaynaya gələn şe`r bizim üçün günəş qədər, hava, su, qida qədər zəruri olmuş, dar gündə, təntiyəndə dadımıza, harayımıza çatmışdır.

Xalq yaradıcılığı və folklor nümunələri daim görkəmli şair və yazıçılarımızın əsərlərində öz əksini tapmışdır. Belə şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir.

Kimdir B.Vahabzadə? Professor N.Cəfərov onu insanşünas-şair, cəmiyyətşünas - filosof, millətşünas-ictimai xadim adlandırır. Professor daha sonra davam edərək yazır ki, xalqın təsəvvüründə B.Vahabzadə obrazı, hər şeydən əvvəl bir şair obrazı olaraq formalaşmışdır. Bəli B.Vahabzadə şairdir, həm də sadəcə olaraq şair yox, filosof şairdir. Onun bütün əsərləri fəlsəfi fikirlər üzərində qurulmuşdur. Həm də bu fəlsəfə nə Hegel fəlsəfəsidir, nə də Kant. Bu fəlsəfə sadə xalq fəlsəfəsidir. Xalq fəlsəfəsi isə xalq yaradıcılığı, xalq ədəbiyyatıdır. Bu ədəbiyyat, bu yaradıcılıq şairin demək olar ki, bütün əsərlərində öz əksini tapmışdır. Bu isə bir daha şairin öz vətəninə, torpağına, millətinə, öz soy-kökünə, milli adət-ən`ənələrinə nə qədər bağlı olduğunu sübut edir.

*Yarpaqları toz tökülər şe`rimin*
*Kökü yoxsa bu torpaqda, bu eldə.*

Şairin əsərlərində atalar sözləri və məsəllərdən geniş istifadə olunmuşdur.

*Kor kora kor desə - bu, keçib gedər,*
*Gözlüyə kor deyən kor daha dəhşət!*
*Gözündə dağ boyda tiri görməyən,*
*Özgənin gözündə qıl seçər əlbət.*

Və yaxud şairin 1985-ci ildə yazdığı "Qeyrətli ağlımız" şe`rini götürək. Şe`rdə epik mühakimə geniş yer tutur. Şair hanı dəlilərin a nənəm Nigar deyərək, zəmanənin namərdlər zəmanəsi olduğunu, dədəsi kor olan qoç Koroğluların zəmanədə özlərinin kor olduğunu, dünyada mərdlikdən, qeyrətdən bir şey qalmadığını deyir. Dırnaqarası savadlı, bilikli, ağıllıları, vaxtın havasına, zəmanənin hökmünə baş əyən alimləri qeyrətin ardınca getməyə çağırır!

*Bizi ehtiyata çağıran ağlı*
*Bir çimdik qeyrətə dəyişdirərdim - deyir.*

Şe`rin başqa bir bəndində isə şair daha bir el məsəlindən istifadə edərək gözəl, poetik misralar yaradır:

*El deyib: Ağıllı fikirləşincə*
*Dəli vurub keçdi çayı bir anda.*
*De görək neylədi ağıllı Həmzə*
*Dəlilər "huy" - deyib cəbhə yaranda?*

Əlbəttə dəlilər "huy" deyib cəbhə yaranda "ağıllı həmzələrin" arxada nələr etdiyi hamıya çox yaxşı mə`lumdur.

Xalq ədəbiyyatının ən geniş yayılmış növlərindən biri olan aşıq poeziyası və bu poeziyanın ən çox sevilən şəkillərindən olan qoşma və gəraylılar B.Vahabzadə yaradıcılığında xüsusi yer tutur.

*Əzəldən həqiqət aşiqiyəm mən,*
*Başqa cür yaratmış təbiət məni.*
*Əsərəm, coşaram dəryatək, ancaq*
*Yaşatmaz kin məni, küdurət məni.*



Şairin qoşma və gəraylılarının çoxu məhəbbət mövzusundadır. Bu şe`rlərdə həsrət də var, vüsal da. Bu şe`rlərdə sevgilisi ilə özünü dünyanın ən bəxtiyarı, sevgisiz özünü dünyanın ən bədbəxt adamı sayan, sevdalı alın yazısına dönən, sevgisi qədər, məhəbbəti qədər özü-özünün şairi olan sevən bir qəlbin, sevən bir aşiqin könül çırpıntılarını görürük:

*Sənsiz bu dünyanın ən bədbəxtiyəm,*
*Səninlə dünyada bəxtiyaram mən.*

İctimai məzmunlu şe`rlərində isə şairin dünya, insanlar, həyat, ölüm, qocalıq, gənclik haqqında fəlsəfi fikirləri öz əksini tapır:

*Ömür başdan-başa, beşikdən-qəbrə*
*Həyatın sevinci, qəmi deyilmi?*
*Ölüm - bir ömürlük iztirabların*
*Ağrılı, acılı cəmi deyilmi?*

B.Vahabzadənin yaradıcılığı, xüsusilə bu yaradıcılığın Azərbaycan folklor ən`ənələri ilə bağlılığı, şairin xalq hikməti qaynaqlarından bəhrələnməsi geniş və zəngin bir mövzudur. Onun hər bir şe`rinin hər bəndində və hətta hər misrasında bir aləm var.

***FƏRİD ABDULLAYEV***
***ADMİU-nun magistri***

## "TƏSVİRİ SƏNƏTDƏ BİRLİYİN İTMƏSİ" PROBLEMİNƏ DAİR

İncəsənətdə birliyin itməsi təhlükəsinin bir problem və bir elmi axtarış kimi əmələ gəlməsinə səbəb Azərbaycan incəsənətində pop-intellektual (konseptual) və pop-akademik mədəniyyətin peyda olması oldu. Zənnimizcə diqqətin əsas predmeti gündəlik mədəni mühitdə şəxsiyyətin mövcud olmasıdır. Biz, Qərbdən götürülmüş "kütləvi incəsənət" anlayışından istifadə edirik, amma ən`ənəmizdə bu anlayış qeyri-analitik, sırf qiymətləndirici və formula kimi ideoloji xüsusiyyət daşıyır. Bunun ideyası "kütləvi incəsənət -

xalq incəsənəti", "kütləvi incəsənət - klassik incəsənət" müxalifətində açıqlanır.

"Kütləvi mədəniyyət" anlayışı ideoloji birliyə məhkum olmamış cəmiyyətdə yaranmışdır. Burada yaşayış yeri və yaşamaq tərzinin prinsiplərinin təbliğ olunmasının mexanizmi prinsipcə başqadır. Bu anlayış "bazar mədəniyyətindən" götürülüb. Azad bazar mal bolluğunu və açıq rəqabəti əsas götürür. Belə bir şəraitdə alıcının şəxsi fikrinə, heç bir şeyə və ya heç bir kəsə hədə-qorxu ola bilməz. Fərdiyyətçi insan ziyalı olmaqdan qorxmur. Bəs ziyalı kimdir?

Özünə hörmət və özünüqiymətləndirmə hissi yad-qərib incəsənətin qarşısında diz çökməyən, lakin onunla bir olan şəxsi unikallıq hissidir ki, bu da özündən razılıq hissinin əsası ola bilməz. Ancaq təəssüflər olsun ki, hamıdan çox məhz incəsənətdə milliliyi təbliğ edən kəslər hər hansı bir qərib fikrin daxil olmasına düşmən kəsilirlər. Onları Cavad Mircavad, Əhməd Kamal və digərlərinin Qərbi Avropa incəsənətinə dair kitablardan nə oxuduğu heç də maraqlandırmır. Siz "kitab passajı" ilə gedərkən oradakı cansız portretlərə, siyasətçi portretlərinə, heç də bir-birindən fərqlənməyən İçəri Şəhər küçələrinin təsvirlərində ibarət tablolara və s. baxın... Ən asanı, bu passajı, bu psevdomilli şüarları, psevdoreal incəsənəti və başqa bu kimi şeyləri bizim doğma, kütləvi incəsənət adlandırmaqdır. Ancaq o biri tərəfdən bu fenomen - guya milli, guya müasir meşşanlığın xalq estetikasıdır, bu günkü incəsənətin vəziyyətinin anlayışına doğru aparan təsvirdir. Yazılı mədəniyyət daşıyıcısı kimi ziyalıların mədəniyyət transformasiyasının qeyri-sadə surəti, vəziyyətin qeyri-sadəliyi xalqdan, hamıdan kənar, rədd edilmiş unikal tarixi vəziyyətə gətirib çıxardı. Dəyər axtarışı xəlqiliyə, ən'ənəyə qayıdaraq böyük mədəniyyətin yanında daha çox millilik adını qazanır. Belə bir müasir pereferik incəsənət daha hazır gözəl surətlərə üstünlük verir. Sifarişçi varsa, deməli bazar da mövcuddur.

Etalonyaradıcı peşəkarlıq şəxsiyyəti, əlləri məhkum edən daxili dünyanın həyat tərzinin təsviri deyil, yalnız qanunların mövcud olmasıdır. Etalonyaradıcı peşəkarlıq alternativ dünya yaradır və rəssam iki seçim qarşısında qalır. Əslində seçim zamanı o, özünü və ya etalonu seçərək nəyəsə çevrilə bilər. Özünü tapmaq, yə'ni şəxsi dolğunluğunu əldə etmək, dünyaya açılmaq qorxusundan kənar olmaq və bu dünyada özünü itirmək qorxusundan kənarlaşmaq.



*ELMAR MƏMMƏDOV*
*ADMİU-nun əməkdaşı*

## *NOVRUZ TÜRK XALQLARININ ORTAQ BAYRAMI KİMİ*

Totalitar rejimin xalqları soykökündən, milli adət-ən'ənələrdən ayırıb onları sovet xalqının "bərabər hüquqlu" vətəndaşları etmək cəhdinin son nəticədə bir xülya olduğu ortaya çıxdı. Uzun illər qədim tarixə malik Novruz bayramını keçirtmək bizə yasaq edilmişdir. Bunun əvəzində Vladimir Ulyanovun ad gününü və onun xalqlara "bəxş" etdiyi "böyük inqilabın" ildönümlərini bayram etməyə məcbur olmuşuq. Amma müdriklər yaxşı deyib, ən böyük hakim zamandır. Xalqımız öz dövlət müstəqilliyini əldə etdikdən sonra bərpa etdiyi milli dəyərlər içərisində ən böyüyü və əhəmiyyət kəsb edəni Novruz bayramının milli bayram səviyyəsində qeyd edilməsidir.

Sovet quruluşunun çox saylı nöqsanlarından biri də gen vasitəsilə, irsən keçən təfəkkür, düşüncə, iste'dad kimi qabiliyyətlərin nəsildən-nəslə ötürülməsini inkar etməsi idi. O təkzib olunmaz haldır ki, insan elmi, əxlaqi, etik keyfiyyətlərə həyatda nail olur. Amma gen yaddaşının da bu keyfiyyətlərin mənimsənilməsində rolu az deyildir. Belə ki, xalqın soykökü ilə bağlı olan mərasimləri, bayramları, adət və ən'ənələri müəyyən müddətdə sıxışdırıb aradan çıxarmaq, yasaq etmək qətiyyən mümkün deyildir. Biz bunu Novruz bayramının timsalında görə bilərik. Sovet İttifaqı mövcud olduğu dövrdə, qoyulan qadağalara baxmayaraq xalqımızın bu bayrama olan sevgisini söndürə bilməmişdir. Çünki, Novruz bayramının yaranama tarixinin köklərində türk xalqının çoxəsrlik qəhrəmanlıq salnaməsi, döyüşkənlik ruhu və torpağa, elə bağlılıq dayanır. Novruz həm də təbiətin təntənəsidir. Novruz şair qəlbli insanların, bərəkətli torpağımızın, həyat mənbəyi olan yaşıllığın, nur süzülən çeşmələrin, bu gözəlliyə aşiq olan adamların, insan övladının yarandığı gündən bu günə kimi istisinə qızındığı odun bayramıdır.

Yurdumuzun bərəkətli torpaqları düşmənə hər zaman göz dağı olmuşdur. Yağılar xalqımızın qan yaddaşı ilə bağlı adət-ən'ənələri yasaq etmiş, yasaq etməyi bacarmayanda onu özününküləşdirmişdi. Ərəb istilası dövründə türklərin bu milli bayramına dini don geydirilmiş, onu dördüncü rəşidi xəlifəsi Əli İbn Əbu Talibin adı ilə bağlamışdılar. Amma Novruzun meydana gəlməsini bizim erada deyil, ondan çox-çox əvvəllərdə axtarmaq lazımdır. Belə ki, Novruzun yeni ilin başlanğıcı kimi bayram edilməsi, xristian erasından əvvəl III minillikdə Fərat və Dəclə çayları arasında yerləşən Müvərən-

nəhrdə (Mesaopatomiyada) məskən salmış qədim şumerlərə və onların davamçıları olan akkadlara, babillilərə və asuriyalılara məxsusdur. Bu bayram yazın ilk günlərinə düşürdü, Fərat və Dəclə çaylarında suyun çıxmasından sonra başlanırdı. Bayram on iki gün davam edirdi. Maskaradlar təşkil olunur, hamı işıqlı tanrı Mardukun dağıdıcılıq və ölüm allahı üzərində qələbəsi vaxtının gəlməsi şərəfinə nəğmələr oxuyub rəqs edirdilər. Bayram günlərində uşaqları və quşları cəzalandırmaq, işləmək və məhkəmə işi aparmaq qəti qadağan idi. Qədim gil kitabələrdən birində oxuyuruq: bu günlərdə tam azadlıq hökm sürür, bütün qayda-qanunlar tərsinə çevrilir. Qul dönüb ağa olurdu. Bayram günləri böyük karnaval keçirilirdi. " Karnaval" qədim Babil sözü olub "gəmi-dəniz" deməkdir, çünki yeni il bayramı mərasiminin çoxu tanrı Mardukun Fərat çayında üzməsi ilə bağlıdır. Babillilərdən yəhudilərə keçən yeni ilin bayram edilməsi ən`ənəsi sonralar yunanlara, onlardan da qərbi Avropa xanlarına keçmişdir.

Son zamanlar şumerlərin dillərində yüzlərlə türk xanlarına məxsus sözləri olması faktları aşkarlanmışdır. Buradan belə bir qənaətə gəlmək olar ki, şumerlər türk xalqlarının əcdadlarıdırlar. Novruz bayramı Azərbaycanda,o cümlədən digər türkdilli dövlətlərdə ildən ilə daha yüksək səviyyədə qeyd edilməkdədir. Əminik ki, Novruz bayramı bundan belə də türk xalqlarının öz soykökünə qayıdışına, türkdilli dövlətlərin birlik, həmrə`ylik və daha da bir-birinə yaxınlaşmasına kömək edəcəkdir.

*RƏ`NA MƏLİKOVA*
*ADMİU-nun III kurs tələbəsi*

## *AZƏRBAYCAN MƏDƏNİYYƏT TARİXİNİN ŞANLI SƏHİFƏLƏRİ*

Azərbaycan xalqının maddi-mə`nəvi sərvətləri - yazılı, tarixi, arxeoloji və me`marlıq abidələri böyüklüyündən, kiçikliyindən asılı olmayaraq ululanınızın ruhunu özündə əks etdirən milli dəyərlərimizdir. Qədim Azərbaycan torpağı tarixi və me`marlıq abidələri ilə zəngindir. Orta əsrlərdən bəri aramsız hücumlara, basqınlara mə`ruz qalan, yurda çəpər, yada sipər olan "Dərbənd qalası". Təkcə qədim şəhərin ətrafına çəkilmiş hasardan ibarət deyil,



Xəzər keçidini qoruyan nəhəng müdafiə qurğularından ibarət qala. "Dağbarı" adlanan bu müdafiə qurğularının hər biri özlüyündə sərbəst qəsrlər şəklində olan ayrı-ayrı hissələrdən ibarətdir. Təxminən 1500 il bundan əvvəl qurulmuş bu keçilməz bənd-bərə xalqımızın qürur, qeyrət nişanı kimi öz əzəmətini saxlayır.

Kəlbəcər və Laçın rayonları ərazisində "Qaya təsvirləri"nə dəniz səviyyəsindən 2-3 metr hündürlükdə yerləşən ərazilərdə - "Zalxa gölü", "Gəlin qayası", "Qonaqgörməz", "Moltan-Heydər", "Qızıl təpə" və s. adlanan yerlərdə təsadüf edilir. Kəlbəcərdə XI-XII əsrlərdə inşa olunduğu ehtimal edilən "Lek" qalası vardır. Qərbulaq (Xudavəng) abidə kompleksi də Kəlbəcər ərazisindədir.

Gədəbəydə "Koroğlu qalası", "Qız qalası", "Mahrasa", Yardımlıda "Cüzünqala" və "Qız qalası" abidələri məşhurdur. Masallı rayonunda irili-xırdalı 168 abidə qeydə alınmışdır ki, bunlardan 51-i tarix və me`marlıq, 70i isə arexoloji abidələrdir. Laçında 50-dən çox, o cümlədən Orta əsrlərə aid "Ağ oğlan mə`bədi", "Güləbird mə`bədi", Qaxda Alban dövrü nişanələri qalmaqdadır.

Ulu keçmişimizin öyrənilməsi və qədim mədəniyyətimizin varisliyinin aşkara çıxarılmasında tədqiqatçı alimlərimizin - Ə.Səttar, İ.Cəfərzadə, S.Tağıyev, M.Hüseynov, R.Göyüşov, V.Əliyev, Q.İsmayılov, İ.Nərimanov və başqalarının xidməti qeyd edilməlidir. Orta əsrlərdə Xəzər dənizi sahillərində, Kür-Araz çayları vadilərində və Qfaqaz sıra dağları ətəklərində məskən salmış azərbaycanlılar Müsəlman Şərqində özünün adət və ən`ənələri ilə fərqlənirdi. O dövrün şair, alim və sənətkarları ədəbiyyatımıza, mədəniyyətimizə və incəsənətimizə dair sənət inciləri yaratmışlar. El şənliklərindən tutmuş saraylara qədər aşıq musiqisi, muğamlarımız geniş vüs`ət almışdı.

XIII-XIV əsrlərdə riyaziyyat, coğrafiya, əxlaq, astronomiya və başqa sahələrə dair çoxsaylı əsərlər müəllifi N.Tusinin fəaliyyəti diqqəti cəlb edir. O dövrdə Marağa rəsədxanası və onun zəngin kitabxanası bütün Şərqdə şöhrət tapmışdı.

XIV-XV əsrlərdə canlı xalq dilində yazdığı şe`rləri ilə Azərbaycan ədəbiyyatına yeni üslub formaları gətirmiş İ.Nəsimi yaradıcılığı, XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə musiqi, şe`r, kitab sənəti, rəngkarlıq, xəttatlıq sahələrinin inkişafı ilə mədəniyyətimiz canlanmışdır. Qüdrətli dövlət xadimi, görkəmli elm və sənət sahibi kimi şöhrət tapmış Ş.İ.Xətai İ.Nəsiminin tərəqqipərvər ideyalarını inkişaf etdirərək Azərbaycan dilini rəsmi dövlət dili səviyyəsinə qaldırmışdır. XVI əsrdə ömrünün 40 ilini bədii və elmi yaradıcılığa həsr etmiş "Leyli və Məcnun", "Şikayətnamə", "Bəngü-badə" və digər sənət incilərinin müəllifi M.Füzuli dühası ilə Azərbaycan poeziyasının zirvəsi fəth edilir.

XVII əsr isə Azərbaycan şifahi xalq yaradıcılığının yeni vüs`ətlə inkişaf etdiyi dövrdür. Zülm və istibdada qarşı mübarizə ideyaları, vətənpərvərlik, qəhrəmanlıq və məhəbbət motivləri ilə zəngin olan "Koroğlu", "Şah İsmayıl", "Aşıq Qərib", "Əsli və Kərəm" kimi dastanlar bu dövrdə yaranmış və formalaşmışdır.

M.V.Vidadi və M.A.Vaqif yaradıcılığı XVIII əsr poeziyasının sənət incilərindəndir. Əgər Vidadi zəngin söz xəzinəsilə Azərbaycan lirik poeziyasını zənginləşdirmişsə, Vaqif məhəbbətlə dolu şe`rlərində xalq dilinin bu zənginliyini əks etdirmişdir.

XVIII əsrdə musiqi, rəngkarlıq və eləcə də digər sənət sahələri tərəqqi etmişdi. Bu dövrdə saz və kamança, balaban, zurna, nağara və dəf kimi musiqi alətləri geniş yayılmışdır. Zəngin naxışlarla bəzənmiş Şəki xan Sarayı bu dövrdə tikilmişdir.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiyaya birləşməsindən sonra çarizmin ruslaşdırma siyasətinə baxmayaraq mədəni inkişaf yeni mərhələyə qədəm qoyur. Bakı, Şamaxı, Şəki, Şuşa kimi şəhərlərdə yeni tipli məktəblər açılır, maarif və elm, ədəbiyyat və incəsənət sahəsində mütərəqqi işlər görülür.

Azərbaycan tarixşünaslığının əsasını qoyan A.A.Bakıxanov "Qanuni-Qüdsi" adlı qramatika kitabı, "Nəsihətnamə", "Gülüstani-İrəm", "Təhsibül-əxlaq" və s. əsərləri ilə mədəniyyətimizə yeni ruh gətirir. Yeni dövrün ən böyük siması isə M.F.Axundovdur. Azərbaycanın Avropa mədəniyyətinə meyllənməsinin bir sıra mənbələri məhz M.F.Axundov yaradıcılığında axtarılmalıdır.

A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, H.Zərdabi, İ.Qutqaşınlı və b. görkəmli ziyalılarımız xalqın maariflənməsi, elm və mədəniyyətə yiyələnməsi, mə`nən zənginləşməsi sahəsində əvəzsiz xidmətlər göstərmişlər.

XIX əsrin sonlarına doğru ədəbi həyatla əlaqə getdikcə güclənir, yeni yaranan əsərlər ayrıca kitab halında çap olunub yayılırdı.

Bu dövr mədəniyyəti üç mühüm mədəni hadisə ilə əlamətdar idi. Milli mətbuatın, teatrın və yeni tipli rus-tatar məktəblərinin yaranması Azərbaycan mədəniyyətinin inkişafında aparıcı rol oynamışdır. H.Zərdabinin rəhbərliyi ilə 1875-ci ildə "Əkinçi" qəzeti nəşrə başlayır, 1873-cü ildə dünyəvi peşəkar teatrın əsası qoyulur və nəhayət H.Mahmudbəyov və S.M.Qənizadənin açdıqları yeni tipli məktəblər fəaliyyət göstərir. 1894-cü ildə N.Nərimanov tərəfindən açılan kütləvi kitabxana maarif işinin yayılmasında xeyli iş görür. Bakının sənaye mərkəzinə çevrilməsi mədəni həyatı canlandırır. Sahibkarlar yeni-yeni binalar tikdirir və xeyriyyəçilik fəaliyyəti ilə məşğul olurlar. Bu dövrün ən mühüm nailiyyətlərindən biri də Milli ruhlu zənginlərlə mütərəqqi ziyalılarımızın həmr`əyliyi olmuşdur. Məhz bu səbəbdən Azərbaycanın müxtəlif guşələrində mədəni-maarif fəaliyyəti ilə məşğul olan cəmiyyətlər yaradılır. "Nicat", "Mədəni-maarif", "Səadət" kimi cəmiyyətlər xalqın siyasi şüurunun, mədəni səviyyəsinin, milli mənlik şüurunun təşəkkülü istiqamətində müntəzəm iş aparmışlar. Burada H.Z.Tağıyevin xidməti xüsusi qeyd edilməlidir. Məhz onun vəsaiti və tə`sisi hesabına Ə.Ağayev və Ə.Hüseynzadə "Həyat", "İrşad", "Fuyuzat" kimi dövri mətbuat orqanlarını nəşr edə bilmişlər. 1901-ci ildə Bakıda H.Z.Tağıyev ilk müasir qız məktəbi açmışdır. Bu məktəbin açılması Azərbaycanda maarifin inkişafına güclü tə`sir göstərmişdir.

Bu dövrdə müxtəlif sahələri təmsil edən böyük bir ziyalı ordusu formalaşır. Ə.Ağayev, Ə.Hüseynzadə, N.Nərimanov, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə kimi siyasi xadimlərlə yanaşı, C.Məmmədquluzadə, H.Cavid, M.Ə.Sabir, M.Hadi, A.Səhhət, A.Şaiq kimi yazarlarımız Azərbaycan cəmiyyətinin tərəqqisinə var gücləri ilə sə`y göstərmişlər.

Musiqi sahəsində C.Qaryağdıoğlu, Q.Pirimov, M.Mansurov, H.Sarabski və onlara görkəmli xalq musiqiçiləri fəaliyyət göstərirdilər. Dahi Ü.Hacıbəyovun 1908-ci ildə ilk operamız olan "Leyli və Məcnun"u nümayiş etdirməsi musiqimizin gələcək istiqamətlərini müəyyənləşdirdi. Teatr sahəsində H.Ərəblinski, C.Cahangirov, M.Əliyev, S.Ruhulla və digər aktyor və rejissorlar yetişmiş və bütün hədə-qorxulara baxmayaraq yeni-yeni tamaşalar hazırlamışlar. Bu dövrdə Bakı Musiqi məclislərində ifaçılıq sənətinə ciddi fikir verilirdi. Burada S.Mirbabayev, A.K.Salik, A.S.Ağabala, Ə.Zühab, M.Fərəc kimi musiqiçilər öz məharətlərini nümayiş etdirirdilər.

Şamaxıdakı "Mahmud ağa məclisi" isə Şərqdə geniş şöhrət tapmışdı, ümumiyyətlə qeyd etmək lazımdır ki, Sadıqcan, Bülbülcan, Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdı oğlu kimi muğam ustalarının yetişməsində musiqi məclislərinin rolu danılmazdır.

1900-1920-ci illər Azərbaycanın ictimai-siyasi, mədəni-ədəbi mühiti zəngin və ziddiyyətli hadisələrlə doludur. M.Ə.Sabir, M.S.Ordubadi, N.Nərimanov, C.Məmmədquluzadəo, Ə.Haqverdiyev, A.Şaiq, H.Cavid, C.Cabbarlı kimi mütəfəkkirlər bu dövrdə çox məhsuldar yaradıcılıq həyatı yaşamışlar.

Bu dövrün ən əhəmiyyətli hadisəsi isə bütün Şərqdə ilk Demokratik Respublikanın yaranması idi. Mövcud olduğu iki il ərzində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində gördüyü işlər bütün müsəlman şərqi üçün örnək rolu oynamışdır. M.Ə.Rəsulzadə, N.B.Yusifbəyli, F.Xoyski, H.B.Ağayev, M.Hacınski və digər siyasət və mədəniyyət xadimlərinin qısa müddət ərzində nail olduqları uğurlar Azərbaycanın bütün sahələr üzrə gələcək inkişafına işıq saçmışdır. 70 illik sovet rejimindən yaxa qurtarmış və öz müstəqilliyini bərpa etmiş Azərbaycan cəmiyyəti özünü 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edir və haqq işi uğrunda mübarizədə inamla addımlayır.

*SAMİRƏ SOFİYEVA*
***BDU-nun IV kurs tələbəsi***

# İ.ŞIXLININ "DƏLİ KÜR" ƏSƏRİNDƏ NOVRUZ BAYRAMININ BƏDİİ İN`İKASI

Türklərin həyatına daxil olmuş Novruz bayramı türk rəvayətlərində və bədii ədəbiyyatında öz əksini tapmışdır. Türklərdə nəzərə çarpan rəvayyətlərin ən əhəmiyyətlisi bu günün (Novruz - yeni gün) qurtuluş günü - "Ərkənokon" və ya "Boz qurd" bayramı kimi qəbul edilməsidir. Digər bir tərəfdən Novruzla əlaqədar gələnəklərə diqqət yetirdikdə bu günün doğrudan da türklərdəki, təbiət kultu ilə bağlı olduğu görünür.

Novruz bayramı bir çox Azərbaycanlı yazıçı və şairlərin əsərlərində, o cümlədən Azərbaycanın xalq yazıçısı İ.Şıxlının "Dəli Kür" əsərində bədii təsvirlərlə geniş oxucu kütləsinə təqdim edilir. Bu bayramın təbiət kultu ilə bağlı olmasını yazıçı həmin əsərində belə təsvir edir: "Baharın ılıq nəfəsi yastı qara daxmaları Kürün sahilinə qədər səpələnmiş Göytəpə kəndinə xüsusi gözəllik və təravət gətirir". Və yaxud, "Nəhayət yenicə cücərib yaşıllaşan yamacları, torpaqdan baş qaldıran çiçəkləri isti nəfəsi ilə xumarlandıran günəş qərbə doğru əyildi, üfüqdəki pəmbə buludlar çəhrayı rəngə boyandı. Kürün üstünə qanadını gərən axşam kölgəsi sürünə-sürünə kəndə doğru yeridi. Pəncərələrdən solğun işıqlar göründü. Ancaq heç kəs içəri, evə girmək istəmirdi. İlıq bahar havası hamını xumarlandırırdı". Göründüyü kimi, seçilmiş ayrı-ayrı təfərrüat, zəruri və real detallar əlaqələnərək, biri digərini tamamlayaraq təbiət mənzərəsini dolğunlaşdırır, əlvanlaşdırır və əyaniləşdirir. Novruz bayramında təbiətin yazıçı tərəfindən işlənmiş təsviri Novruzun təbiət kultu ilə bağlılığına dəlalət edir.

Min illərin dibindən qaynayıb gələn bir ən`ənə ilə xalqımız bu günü bayram edir. Şərəfli, məşəqqətli tariximizin, keşməkeşli keçmişimizin ən ağır, dözülməz, iztirbalı çağlarında belə bu gün xalq ruhunda, xalq yaddaşında, xalq mənşətində ilıq bir fərəhlə, kövrək bir ümidlə, ürkək bir gumanla bağlı yaşayıb. Kasıb da, varlı da ayından-oyundan bir bayram süfrəsi açıb düzəldər, təzə paltar geyərdilər. İnsanlar Novrz bayramını keçirərkən çalışır ki, əvvəlki ildən bu ilkini daha yaxşı keçirsin. Bunu İ.Şıxlı romanda belə təsvir edir: "Qızlar da sakit oturmurdular. Özlərinə təzə paltar tikir, axşama qədər hazır edib geyinməyə çalışırdılar. Gəlinlər yumurta boyayar, arvadlar tez-tez düyü arıtlayan qızlara göz yetirirdilər. Səmənilər süfrələrə düzülürdü. Hamı bayrama hazırlaşırdı. Varlı da, kasıb da çalışırdı ki, bu axşam süfrəsi boş qalmasın. Aylarla yığdıqlarını bir gecə üçün xərcləyənlər də var idi.

Pakizə evdə o yana - bu yana qaçır, anasına və gəlinlərinə əl-ayaq verir, həm də axşamın tez düşməsini gözləyirdi. O, nədənsə, bu il Novruz bayramını daha da böyük həvəs və cşqlə qarşılamağa çalışırdı".

Əsərdə bayram şənliyində tonqallara od vurulub yandırılması, sonra otların alışıb çatırdaması, kəndin şəfəqlərə qərq olması, uşaqların əl-ələ verib toqnalların ətrafında oynaması onu göstərir ki, bəşər zəkasının ilk oyanış dövründə insan, heç vaxt üzünü görmədiyi allahlara yox, hər gün gördüyü günəşə, oda, torpağa, ağaca, ota inanıb onlara sitayiş edib. Torpağı qoruyub, torpağa kömülənlər hər baharda, hər təzə yaz günündə, hər Novruzda torpaqla birlikdə oyanacaqlar, ot olub, yabanı çiçək olub, kədər olub, şe`r misrası olub yenidən dünyamıza qayıdacaqlar.

Novruzun gəlişi klassik Şərq, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış bahariyyə adlı lirik şe`rlərdə təsvir və tərənnüm edilmişdir.

Sovet imperiyasında Novruz bayramının keçirilməsi və bədii ədəbiyyatda tərənnümü qadağan olunduğu dövrdə İ.Şıxlının "Dəli Kür" romanında (1967) Novruz bayramının bədii in`ikası öz əksini tapmış və 1970-ji ildə bu əsər əsasında çəkilmiş eyni adlı filmdə də Baharın gəlişi və Novruz şənliyi bədii çalarlarla canlandırılmışdır.

*LEYLA QARAYEVA*
***ADMİU-nun I kurs tələbəsi***

# NOVRUZ ÖZÜNƏQAYIDIŞ BAYRAMIDIR

Əsrlərin, minilliklərin o tayından ta bu günümüzə qədər gəlib çatan bayramlardan biri də Novruzdur. Bahar təravətli, bahar qoxulu Novruz bayramı. Novruz xalqımızın ən qədim adət-ən`ənələrini özündə birləşdirən, yaşadan ən mükəmməl sənət əsəridir. Bu əsərin hər sətrində, hər kəlməsində keçmişimizin izi görünür. Dünənimizi özündə qoruyan bu bayramın qeyd olunması haqqında bir çox rəvayətlər mövcuddur. Daha çox dinlərlə əlaqədar olan bu rəvayətlərdən başqa Novruz bayramının bütün dinlərdən daha əvvəl yarandığını göstərən rəvayətlər də var. Bunlardan birində Novruz bayramı Oğuz oğlu ilə əlaqələndirilir. Oğuz oğlu ilin başlanğıcını Novruzdan hesab-

məqsəd daşımışdır. Baharı ata-babalarımız qızıla, inciyə bərabər tutmuşlar. "Baharda bir gün itirən, yayda bir ay, payızda bir il itirər" - demişlər.

Novruz - sərhəd bilməyən, çox geniş regionda yayılan, yazın gəlməsini, yeni əmək mövsümünün başlanmasını vəsf eyləyən böyük el bayramıdır.


***EMİN ABDULLAYEV***
***ADMİU-nun I kurs tələbəsi***


## *NOVRUZ ADƏTLƏRİ*

Azərbaycanda ilin başlanmasının - yazın gəlməsinin bayram kimi qeyd edilməsi qədim bir tarixə malikdir. Yaz bayramının zərdüştilərin daha geniş və təntənə ilə qarşılaması dini e'tiqada görə Ahuraməzdənın Əhriman üzərində qələbə əldə etməsi ilə izah edilirdi. Yaz bayramının Novruz adlanması ilk orta əsrlərdən mə'lumdur. Qədim mə'lumatlarda bu bayram cəşn-bahar bayramı kimi də adlanmışdı. Ömər Xəyyamın "Novruznamə" əsərində Novruz bayramının tarixindən söhbət gedərkən deyilir: "Novruzun yaranmasının birinci səbəbi odur ki, həmin gündə Günəş dövrə vurub 365 gün altı saatdan sonra öz yerinə qayıdır". Cəmşid bu günü müəyyənləşdirdiyi üçün Novruz adlandırmış və bayram etmişdir. Yaz bayramı haqqında yazılı mə'lumat e.ə. 505-ci ildə mə'lumdur. Novruz bayramı mərasimi haqqında bəhsə başlamazdan əvvəl icra edilən şənlik və bə'zi adətlərdən danışmaq lazımdır. Bu adətlər çərşənbə axşamı və xüsusi ilə axır çərşənbə axşamı mərasimində qabarıq şəkildə əks etdirilir. Bu mərasimdə əsas yeri odla əlaqədar adət və ayinlər tutur. İlin axır çərşənbəsində xalq arasında müxtəlif adətlər olmuşdur. Həmin adətlərdən biri də bütün həyətlərdə tonqal qalamaqdan ibarətdir. Tonqal yandırılarkən ailə üzvləri onun ətrafında toplanıb şadlıq edir, tonqalın üstündən tullanırdılar. Tonqal mərasimi qurtardıqdan sonra qulaq falına çıxırdılar.

Şal sallamaq və bunun digər forması olan qaşıqla kasa çalmaq axır çərşənbə ilə əlaqədar olan adətdir. Bu, axır çərşənbə ilə əlaqədar olan adətlərin içərisində ən qədimlərindən biridir.

Bayram günlərində müxtəlif əyləncələr, o cümlədən zorxana səhnələri, çofgən, çəpəq oyunları, ox atma və s. yarışlar da keçirilirdi. Novruz bayramı nəinki orta əsrlərdə, hal-hazırda xalqımızın həyatında özünəmoxsus yer tutmuşdur.




***RAMİLƏ QASIMOVA***
***ADMİU-nun I kurs tələbəsi***


## *ULULARIMIZIN ƏMANƏTİ NOVRUZ*

Azərbaycan xalqının erkən çağlardan yaradıb bu günümüzə qədər yaşatdığı zəngin adət-ən'ənə və mərasimləri vardır. Onların bir qismi bizə gəlib çatmış, bir qismi müxtəlif dövrlərin keşməkeşlərində yaddaşlardan silinib getmişdir. Xalqımızın ruhunda yaşatdığı bayramların bə'zisi isə uzun illər bizə yasaq olunmuşdur. Elə anlar, dövrlər, tarixi məqamlar olmuşdur ki, müdrikliklə, mə'nəvi sağlamlıq və bütövlük idealı ilə bağlı olan yüzlərlə adət və ən'ənəmizin yanından laqeyidliklə ötüb keçmiş, ulu babalarımızın öz soy kökümüzü yaşatmaq ümidi ilə bizə miras verdiyi bu mə'nəvi sərvətə e'tinasızlıq etmişik. Nə itirmişik? Nə qazanmışıq? Bir şey qazandığımızı söyləməyə adamın doğrusu heç üzü gəlmir... Öz soy kökümüzdən, ulu babalarımızın yaşadığı ocaqlardan ayrı düşmüşük. Dədə-baba adətlərimizi pozub, bölük-bölük torpaqlarımızdan ətəyimizə qısılan gəlmələrə pay payladıq. Səxavətin də, qonaqpərvərliyin də həddi var. Biz bu həddi aşdıq. Babalarımızın hansı xəritəsində Qarabağ iki yerə bölünmüşdü? Azərbaycan bölünmüşdü, bu dərd bizə bəs deyildimi?

Doğma torpaqlarımızdan uzaqlaşdıqca, onları atıb getdikcə elə bil birliyimiz, mehribanlığımız pozuldu. Öz keçmişimizdən, gözəl adət və ən'ənələrimizdən uzaqlaşa-uzaqlaşa özümüz də dəyişdik, başqalaşdıq. Amma atalar yaxşı deyib, ziyanın yarısından da qayıtmaq xeyirdir. Gəlin hələ nə qədər gec deyil, nə qədər ki, hələ yaddaşımızda qalanların hamısını itirməmişik qayıdaq yaddaşımıza, özümüzü özümüzə qaytaraq. Bunun üçün adət-ən'ənələrimizi, mərasimlərimizi bərpa etmək bizə bu gün nə qədər fayda verərdi. Bu mərasimin sıralarında eləleri də var ki, taleyimiz kimi bizə təmənnasız bəxş olunub. Özü də bu bayramların təntənəsinə insan daxili, ruhi oyanışın tə'siri ilə hazırlaşır. Bu Zərdüştün dini tə'limində qeyd olunan yeddi bayramın ən təntənəlisi, fars mənbələrində "Novruz" (Yeni gün) adı ilə qeyd olunanıdır. Bu bayramda varlı-kasıb eyni şəkildə, eyni hüquqla iştirak etmiş, umu-küsünü unudub dostluq münasibətlərini möhkəmləndirməyə çalışmışdır. İstər qədim, istər orta əsrlər, istərsə də sonrakı dövrlərdə xalqımız Novruzu ən əziz gün kimi gözləmişdir. Novruz ən'ənəsi xalqımızın ruhuna o qədər hopub ki, hətta 70 illik imperiya dəhşəti də onu sarsıda bilməmişdir. Şükürlər olsun ki, xalqımız bu gün də Novruz sevinclərini yaşamaqdadır.

*AYTƏKİN VƏLİYEVA*
*ADMİU-nun III kurs tələbəsi*

## AŞIQ POEZİYASININ JANRLARI

Aşıq sənəti qədim sənətdir. Bu sənətlə məşğul olanlara keçmişdə "dədə", "ozan" demişlər. Aşıqlar saz çalır, mahnı oxuyur və çaldığı havanın ahənginə uyğun rəqs edirlər. Musiqinin, şe`rin və rəqsin aşıq sənətində vəhdəti də onun qədimliyini göstərir. Xalq həyatı və xalq mə`nəviyyatı ilə son dərəcə fəal, canlı əlaqə saxlayan aşıq yaradıcılığının bu zamankı bədii nailiyyətləri diqqətəlayiqdir. Yaradıcı aşıqlardan Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Növrəs İman, Aşıq Mirzə, Aşıq Hüseyn Saraclı, Aşıq Şəmşir, Molla Cümə və s. məşhurdurlar. Aşıq poeziyasının gözəl ən`ənələrini dəyanətlə yaşadan bu el sənətkarlarının yaradıcılığında məhəbbət lirikası üstünlük təşkil etsə də, onlar üçün vətəndaşlıq mövzuları da çox səciyyəvi idi. Aşıqlar yalnız saz havaları üstündə mahnı oxumurlar, onlar eyni zamanda dastan da söyləyirlər. Aşıqlarımız yazılı ədəbiyyatı da yaxşı bilir və ondan istifadə edirlər. Şifahi xalq şe`rindən fərqli olaraq aşıq şe`rlərinin kimə məxsus olduğu mə`lumdur, çünki şe`rin sonunda hər aşıq öz adını, ya da təxəllüsünü bildirir. Misal üçün:

***Ələsgərəm hər elmdən halıyam,***
***Dedim, sən təbibsən mən yaralıyam,***
***Dedi nişanlıyam, özgə malıyam,***
***Sındı qol qanadım yanıma düşdü.***

Aşıq şe`rinin müxtəlif janrları vardır.

Gəraylı - Azərbaycan aşıq yaradıcılığında çox istifadə olunan və geniş yayılan şəkillərdən biridir. Hər bəndi 4 misradan, hər misrası səkkiz hecadan ibarət olan 3-5 bəndlik şe`rə gəraylı deyilir. Gəraylı aşıq yaradıcılığında ən oynaq, ahəngdar və tez əzbərlənən şe`r növlərindəndir.

Hər bəndi dörd misradan, hər misrası on bir hecadan ibarət olan şe`r şəklinə qoşma deyilir. Qoşmada bəndlərin sayının tək olması, onun mühüm əlamətlərindən biridir. Qoşma mənşəy e`tibarı ilə aşıq yaradıcılığına mənsub olmasına baxmayaraq, yazılı ədəbiyyata da keçmişdir. Qoşma şe`r növü də bu və ya digər əlamətə görə müxtəlif şəkildə özünü göstərir.

Qafiyələri cinas sözlərdən ibarət olan şe`rə təcnis deyilir. Məsələn:



***Adət budur, yar xəbərin yar alar,***
***Mənim yarım zəif canım yaralar,***
***Yerbəyerdən sızıldaşar yaralar,***
***Rəhm eylə Cüməyə ay ağa düşdüm. (Molla Cümə)***

Təcnisin bir forması da cığalı təcnisdir. Belə şe`rlərin hər bəndinə bir bayatı əlavə edilir ki, buna cığa bəndi deyilir. Cığa bəndi əsas bəndlərdə elə verilir, bunlar bir-biri ilə elə birləşir ki, bu birləşmədə həm qoşma, həm də bayatı özünəməxsus forma xüsusiyyətini saxlayır.

Aşiqanə qoşmalarla yanaşı, hikmətli qoşmalar da vardır. Hikmətli qoşmalara ustadnamələr deyilir. Aşıqlar ustadnamələri söylədikləri dastanın əvvəlində də oxuyurlar.

İki aşığın üz-üzə durub şe`rləşməsi deyişmə adlanır.

Aşıq bə`zən şe`rdə bu və ya başqa məsələ haqqında suallar qoyur, onunla yarışa girən aşıqdan həmin suala cavab tələb edir. Belə şe`rlər aşıq yaradıcılığında qıfılbənd adlanır. Qıfılbəndi açmalı olan aşıq həmin əlamətlərə görə cavab tapmalı və onu da şe`rlə, ritmlə, ahənglə söyləməlidir. Elə ona görə də aşıq yaradıcılığında aşıqlar bir-birinin fəhmini, iste`dadını, aşıq sənətindəki bacarığını yoxlamaq üçün qıfılbənddən bir vasitə kimi istifadə edirlər.

Qoşmanın məzmunca fərqlənən bir forması da vücudnamədir. İnsanın ayrı-ayrı yaş mərhələlərinin səciyyəsini verən şe`rlərə vücudnamə deyilir.

Vücudnaməyə həm aşıq şe`rində, həm klassik poeziyamızda rast gəlmək mümkündür.

Aşıq yaradıcılığındakı şe`r şəkilləri burada haqqında danışanlarla məhdudlaşmır, onun başqa növləri də vardır.

*NATİQ ŞƏKƏRƏLİYEV*
***ADMİU-nun I kurs tələbəsi***

# *REJİSSOR VƏ MÜASİRLİK*

Teatrımızda yaradıcılıq həyatının əsas təşkilatçılarından biri rejissordur. Onun işi çox mürəkkəb və məs'ul yaradıcılıq sahəsidir. Rejissor çalışır ki, sənətin bütün gözəllik və cazibəsi onun sehirkar gücü ilə hazırlanmış tamaşada aydın nəzərə çarpsın. O, eyni zamanda istəyir ki, tamaşaçı teatrdan çıxanda həyat haqqında düşünsün, gördüyü tamaşa ilə həyatı müqayisə etsin. Rejissorun qarşısında duran belə məs'ul bir vəzifə onun teatrda böyük nüfuza malik olmasını tələb edir. O, başçılıq etdiyi kollektivi vahid sənət istiqamətinə yönəltməli, aktyorların fərdi yaradıcılıq xüsusiyyətlərini öyrənməli və onların inkişafı qeydinə qalmalıdır. Çünki rejissor öz fikirlərini aktyor vasitəsilə yayır. Aktyor isə öz iste'dadı, yaradıcılıq qabiliyyəti ilə rejissoru ilhama gətirir və onun fikirlərini tamamlayır.

Rejissor sənəti sahəsində əldə edilən nailiyyətlərin bir çoxu müasir dramaturgiyanın inkişafı ilə sıx bağlıdır. Görkəmli rejissorlarımız mürəkkəb mündərəcəyə malik olan bir çox klassik əsərlər - xalq qəhrəmanlıq dramları, tarixi inqilabi pyeslər tamaşaya qoymuş və həyatımıza, müasirlərimizə həsr edilən əsərlər əsasında yaddaqalan tamaşalar yaratmışlar. Bu yaradıcılıq nailiyyətlərinin əldə edilməsində rejissor və dramaturqlar bir-birlərinə yaxın köməkçi və məsləhətçi olmuşlar.

Dramaturqla rejissorun qarşılıqlı yaradıcılıq işi elə olmalıdır ki, bu iş müəllifin fərdi yaradıcılıq üslubuna xələl gətirməsin. Gərək rejissor və dramaturqlar bir-birilə ehtiyatla hərəkət etsinlər, onların əlbir fəaliyyəti əsil yaradıcılıq şəraitində keçsin, qarşılıqlı surətdə bir-birini tamamlasın. Əks təqdirdə səhnədə göstərilən tamaşa müəllifin pyesdəki qayəsini təhrif edə bilər.

Gənc rejissor kadrlarının da yetişdirilməsinə eyni qayğıkeşliklə yanaşmaq lazımdır. Rejissor sənəti üzrə təhsil alan tələbələr praktiki işlə məşğul olmalıdır. Unutmaq olmaz ki, rejissor işi - praktiki işdir. Təcrübə qazanmaq üçün eksperimentlər etmək, sənətin çətin vərdişlərinə yiyələnən gələcək rejissorların inkişafından ötrü mühüm şərtdir. Buna görə də gənclər necə deyərlər, teatrın "mətbəxinə" həmişə yaxın olmalı, məktəbdə təhsil almaqla yanaşı, səhnədə saç ağartmış öz təcrübəli həmkarlarından öyrənməlidirlər.

Rejissor sənəti professional vərdişlərdən başqa bir də zəngin həyat biliyi, həssas müşahidə tələb edir. Rejissorlarımız gündəlik həyatımıza diqqətlə



baxmalı, müasir dövrümüzün yeniliklərini, insanlarımızın mə'nəviyyatındakı dəyişiklikləri vaxtında görməli və onları sənətin e'cazkar dili ilə tamaşaçılara çatdırmalıdırlar.

*EMİN NƏSİRLİ*
***ADMİU-nun I kurs tələbəsi***

# *MİLLİ KİNOMUZUN CƏFAKEŞİ*

İncəsənətin tarixini öyrənmək həm də elə yaradıcılıq tarixinin öyrənməkdir. Fəaliyyət başlayan hər bir sənətkar müəyyən bir sahəni təmsil edir. Bu sahələrdən biri də kino sənətidir. Azərbaycan kinematoqrafçıları içərisində öz dəsti-xətti ilə seçilən rejissorlardan biri də görkəmli kinorejissor Şamil Mahmudbəyovdur. O, bu çətin peşəni seçərkən yaxşı bilirdi ki, "Kinematoqrafçı olmaq istəyən hər şeyi bacarmalıdır". Onun ən böyük arzularından biri Moskvadakı Ümumittifaq Kinematoqrafiya institutuna daxil olmaq idi. O bu arzusuna çatır və institutun rejissoluq fakultəsinə daxil ola bilir. Şamil orada Eyzenşteyn, Romm, Dovjenko və bir çox müəllim-rejissorlardan dərs almağa başlayır. Nəhayət, Mahmudbəyov institutu uğurla bitirib Azərbaycana qayıdır. Qayıtdıqdan sonra kinomuzun inkişafı üçün yeni imkanlar axtarır və bunun üçün yurdumuzun hər guşəsini gəzməyə can atır, onun ən'ənələrini, iqtisadiyyatını, tarixini və coğrafi şəraitini mükəmməl öyrənməyə başlayır.

Ş.Mahmudbəyov bir müddət studiyada filmlərin dublyajı ilə məşğul olur. O burada rejissor T.Tağızadənin "Görüş" və E.Quliyevin "Qara daşlar" filmində ikinci rejissor kimi işləmişdir.

Rejissor Mahmudbəyov az sonra "Onun 150 yaşı var" və "Naxçıvan" adlı qısametrajlı sənədli filmlərini müstəqil çəkir. Bu filmlərdə həyatın poetik, vüs'ətli parçalarından söhbət açılır.

O öz təcrübələri sayəsində ilk olaraq müstəqil şəkildə "Romeo mənim qonşumdur" tammetrajlı bədii filmini çəkir. Janr e'tibarı ilə musiqili komediya olan bu filmdə hadisələr aydın inkişaf edir.

Şamilin yaratdığı növbəti film "Qaraca qız" oldu. Görkəmli kinorejissor əsərin mahiyyətini dərk edərək öz rejissorluq qabiliyyəti sayəsində gözəl sə-

nət əsəri yaratmış, bununla da klassik ədəbiyyatımıza olan sevgisini, məhəbbətini göstərmişdir. Mahmudbəyov əsərin ana xəttini saxlayaraq yoldaşlıq, dostluq, xeyirxahlıq hisslərini daha qabarıq şəkildə nümayiş etdirmişdir.

Bundan başqa o "Torpaq, dəniz, od, səma", "Şərikli çörək", "Nar ağacı haqqında xatirə", "Bayquş uçub gələndə", "Vadidə üsyan", "Həyat bizi sınayır" kimi filmlərini çəkmişdir. O, bacarıqlı kinorejissor olmağı ilə yanaşı həm də iste'dadlı aktyor idi. Mahmudbəyov bu bacarığını görkəmli kinorejissor H.Seyidzadənin çəkdiyi "Yenilməz batalyon" filmində Əlimərdan obrazı ilə sübut etmişdir.

Azərbaycan kinosunun korifey sənətkarlarından biri olan Mahmudbəyovun adı Azərbaycan incəsənət tarixinə qızıl hərflərlə yazılmışdır. Şamil Mahmudbəyovun sənət məktəbi geniş tədqiq edilməli, gənc rejissorlara öyrədilməlidir.

*ZÜLFİYYƏ ƏSƏDOVA*
*ADMİU-nun I kurs tələbəsi*

## KİNO TARİXİMİZİN BƏ`Zİ MƏQAMLARI

Artıq bir əsrə bərabər tarixi olan Azərbaycan kinosu çox keşməkeşli və həm də şərəfli bir yol keçmişdir. Bu müddət ərzində yüzlərlə görkəmli sənət xadimləri - rejissorlar, aktyorlar, operatorlar və ömrünü kinoya həsr etmiş müxtəlif peşə sahibləri yetişmişdir.

Azərbaycanda XX əsrin əvvəllərində mövcud olan ictimai-siyasi və mədəni şərait informasiya, maarif və əyləncə funksiyasını öz üzərinə götürən kino sənətinin formalaşmasına tə`kan vermişdir. İ.Musabəyovun dövrün sensasiyalı hadisələrini əks etdirən, melodrama janrında yazılmış "Neft və milyonlar səltənətində" əsəri əsasında çəkilmiş film Azərbaycanın ilk bədii oyun kinosudur. Azərbaycan kinosunun tarixi Cümhuriyyətə qədərki dövrə aid olsa da onun çiçəklənmə dövrü Sovet dövrünə təsadüf edir. Bu dövrdə xalqımızın qəhrəmanlıq, vətənpərvərlik ruhunu əks etdirən, onun məişətini, həyat tərzini, ekranlarda canlandıran, incəsənətimizi dünyaya tanıdıran filmlərimiz bu gün də öz təravətini itirməmişdir. Xüsusilə də dahi Ü.Hacıbəyovun "Arşın mal alan"ı əsasında çəkilmiş film Azərbaycanı dünyaya tanıtdırdı. Milli musiqi sənətimizin ürəkləri fəth edən e`cazkar sədalarını dünyaya yaydı. Sonrakı dövrlərdə H.Seyidzadə, H.Seyidbəyli, Ə.Atakişiyev, T.Tağızadə, R.Ocaqov, E.Quliyev, O.Mirqasımov, V.Mustafayev kimi bir sıra kinorejissorlarımızın çəkdikləri filmlər Azərbaycan kinosunun inkişafında yeni mərhələ təşkil edir. 1960-70-ci illərdə çəkilən filmlərlə müasir Azərbaycan kinosunun təməli qoyulur.

Son vaxtlar Azərbaycanfilm kinostudiyasında çəkilmiş R.Ocaqovun "Həm ziyarət, həm ticarət", H.Mehdiyevin "Özgə vaxt", E.Quliyevin "Bu gözəl, gözəl dünya" və s. kimi filmlər dünya festivallarında uğurla nümayiş etdirilmişdir. Hazırda "Azərbaycanfilm"də O.Mirqasımovun "Şəfa kitabı", V.Mustafayevin Elçinin ssenarisi əsasında ekranlaşdırdığı "Manifest" filmlərinin çəkilişi davam etdirilir. İnanırıq ki, Azərbaycan kinosu bundan sonra daha yüksək zirvələr fəth edəcək və mədəniyyətimizin bütün dünyaya tanıtdırılması işinə təkan verəcəkdir.

*ELNARƏ BAĞIROVA*
*ADMİU-nun I kurs tələbəsi*

## TƏBİİ OBRAZLAR USTASI

100 il tarixi olan Azərbaycan teatrının səhnəsi bir neçə nəsil qüdrətli aktyorlar yetişdirmişdir ki, Ələsgər Ələkbərov, Barat Şəkinskaya, Ağadadaş Qurbanov və haqqında bəhs edəcəyimiz İsmayıl Osmaelı bu sənətkarlar dəstəsinin ən parlaq nümayəndələrindəndir.

İsmayıl Osmanlının bir aktyor kimi püxtələşməsinə kömək edən rolları bir-bir şərh etmək çətindir. Lakin bir faktı göstərmək kifayətdir ki, 1923-cü ildə Gəncədə qastrol tamaşalarında çıxış edən İsmayıl, yerli ictimaiyyətin diqqətini cəlb etmişdir.

İsmayıl Osmanlı Gəncə dram dərnəyində böyük bir həvəslə işə başladı. O, Bakı teatrları ilə əlaqə saxlayır, yeni yazılmış pyeslərlə tanış olur, Bakı tamaşaları haqqında dərc olunan məqalələri oxuyur, öz aktyor sənətini təkmilləşdirirdi. İsmayıl yaxşı başa düşürdü ki, əsil sənətkar olmaq üçün dərin biliyə yiyələnməlidir. Bu məqsədlə o, Gəncə fəhlə fakultəsinə daxil olur və sə`ylə oxumağa başlayır. İsmayıl Osmanlı gündüzlər dərsə, axşamlar məşqə

gedir.

Osmanlının dərnək fəaliyyəti ildən-ilə inkişaf edir, az sonra o, dərnəyin rəhbəri seçilir və bir rejissor kimi kollektivə rəhbərlik edir.

Osmanlı bu barada belə nağıl edir: "Repertuarımızın ən gözəl əsərlərindən biri də,C.Cabbarlının "Oktay Eloğlu" pyesinin tamaşası idi. Burada Oqtay rolunu mən, Firnəgiz rolunu B.Paşazadə, Mazandaranski rolunda isə Adil İskəndərov çıxış edirdi".

İsmayıl Osmanlının əsil yaradıcılıq fəaliyyəti, bir sənətkar kimi böyüyüb yetişməsi tarixi Tiflis - Azərbaycan teatrından başlanır. Onun ilk müəllimi Girmanşahlı olmuşdur. İsmayıl Osmanlı onun rejissorluq tə'limi ilə bir çox rollarda çıxış etmişdir. 1929-cu ildə Tiflisdə tamaşaya qoyulan "Denner" və Zermonun "İki yetimə" melodramındakı Pyer isə Əbu Übeydin əksi idi, Osmanlı bu əsərdə Pyer rolunda çıxış edirdi.

1930-cu ildən başlayaraq İsmayıl Osmanlı Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının şöhrətli aktyor kollektivinə daxil olur. Bu gündən onun yaradıcılığının böyük bir dövrü başlanır. Bu da çox şərəfli bir dövrdür.

1931-ci ildə teatr C.Cabbarlının "1905-ci ildə" adlı pyesində Babalar bəy rolunu Osmanlıya tapşırdı.

"Almaz" əsərinin ilk tamaşası Əzizbəyov adına teatrın səhnəsində 1931-ci il aprelin 13-də oynanıldı. Rejissor C.Cabbarlı idi. Osmanlı burada Qərib rolunda çıxış edirdi.

Osmanlı "Həyat" pyesində Heydərqulu rolunda çıxış etmişdir. Bu rol əsərin əsas aparıcı obrazlarından olmasa da hər halda çox gözəl təsvir olunmuş maraqlı bir surətdir.

İ.Osmanlı ölməz obrazlar yaratmışdır: Surxay ("Toy"), Mirzə Qərənfil ("Xoşbəxtlər"), Xəlil ("Əliqulu evlənir") kimi obrazları onun yaradıcılıq tablosuna xüsusi gözəllik verir.

Görkəmli rejissor M.Məmmədovun quruluşu ilə hazırlanmış tamaşalarda da İ.Osmanlı diqqətəlayiq obrazlar yaratmışdır. Mehdi Hüseynin "Alov" pyesində Kərim Rəhimli, M.İbrahimovun "Kəndçi qızı" lirik komediyasındakı Şəkərlinski, A.N.Tolstoyun "Canlı meyit" faciəsindənki Aleksandrov, H.Cavidin "Ömər Xəyyam" əsərində Bağban rolları bunun bariz nümunəsidir.

İ.Osmanlını tamaşaçılar iste'dadlı komediya aktyoru kimi tanıyır və sevirlər. Onun yaradıcılığında fitri bir yumor var. Bu yumor sün'ilikdən uzaqdır, təbii və səmimidir. Aktyor yaratdığı obrazın istər daxili aləmini, istərsə də zahiri cəhətlərini bir vəhdət şəklində götürür və onu yaddaqalan boyalarla rəsm edir.

İ.Osmanlı kino fəaliyyində də müxtəlif xarakterlər yaratmaqla sənətindəki boyaların tükənməzliyini bir daha sübuta yetirmişdir. İ.Osmanlı sənəti bir gün də sənətsevərlərin qəlbində yaşayır.



*XƏYALƏ QULİYEVA*
*ADMİU-nun I kurs tələbəsi*

# *SƏHNƏ FƏDAİSİNİN HƏYATINDAN MÜƏMMALI MƏQAMLAR*

Hüseyn Ərəblinski Azərbaycan səhnəsinin görkəmli nümayəndələrindən biridir. Ərəblinski Azərbaycan teatr səhnəsinin ilk rejissoru sayılır. Onun yaşayıb-yaratdığı dövr teatrımızın yüksəliş dövrüdür.

Ərəblinskinin əsil adı və familiyası Hüseynbala Xələfovdur. "Ərəblinski" onun təxəllüsüdür. Onun "Ərəblinski" təxəllüsünü götürməsi ayrı-ayrı kitablarda müxtəlif səbəblərlə izah olunmuşdur.

Qeydlərdən birində belə izah olunur ki, Dərbənd qastrollarının birində, Xələfova Ərəblinski familyalı bir qadın yaxınlaşmış və aktrisa olmaq arzusunu bildirmişdir. Lakin müəyyən səsəblərdən, o bu arzusunu həyata keçirə bilməmişdir. Həmin qadın teatr qrupunu vağzaldan yola salarkən, Xələfova bir çiçək vermiş və çiçəyi solsa da, yadigar saxlamasını xahiş etmişdir. Xələfov da həmin qadından yadigar olaraq, onun familiyasını təxəllüs götürmüşdür.

Başqa bir qeyddə belə izah olunur ki, Xələfov öz teatr dəstəsiylə qastroldan qayıdarkən, gənc bir qız "Arablinski" adına stansiyadan qatara minmiş, Xələfova onu sevdiyini bildirmiş və ona çiçək bağışlamışdır. Xələfovun da qızdan xoşu gəlir. Qız qatardan düşəndən sonra, onun eşqinə, qatara mindiyi stansiyanın adını - "Ərəblinski" təxəllüsünü götürür.

Daha başqa bir qeyddə belə izah olunur ki, Hüseyn Xələfov qatarda olarkən vağzalda çoxlu adam olduğunu görür. Bunun səbəbini soruşduqda, ona Ərəblinski adlı bir generalın vağzala gələcəyini söyləyiblər. Bu səbəbdən də hamı onu qarşılamağa yığılıbmış. Xələfov belə olduğu halda demişdir: "Bu gündən mən də olacağam Ərəblinski. Qoy məni də belə qarşılasınlar".

Belə qeydlərdən hiss olunur ki, Ərəblinskinin həyatı və yaradıcılığı hələlik ətraflı və mükəmməl öyrənilməmişdir.

Hüseyn Ərəblinski səhnəyə ilk dəfə 1897-ci ildə M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasında Mehtər Kərim rolunda çıxmışdır. Həmin komediyada o, 1910-cu ildə Teymurağa rolunda da çıxış etmişdir.

Hüseyn Ərəblinski, əsasən, Otello rolunun mahir ifaçısı kimi tanınmışdır. Hətta məşhur rus artisti və rejissoru V.P.Valentinov (1871-1929) "Otello" tamaşasından sonra Hüseyn Ərəblinskiyə belə demişdir:

"Hüseyn, əgər mənim imkanım olsaydı, səninlə hər yanı gəzər və bütün sənət aləminə Otellonu necə oynamaq lazım gəldiyini göstərərdim..."

Lakin, Hüseynə ədavət bəsləyənlər də çox idi. Dindarlar, qoçular aktyorları "hoqqabaz", "təlxək" adlandırır, təhqir edirdilər. Bütün bunlara baxmayaraq Hüseyn Ərəblinski ruhdan düşmürdü, sənətə daha da çox bağlanırdı, başqalarını da ruhlandırırdı.

Hüseynlə düşmən olan dayısı oğlu Əbülxalıq da onu tez-tez hədələyirdi. Bir gün Əbdülxalıq Ərəblinskini evinə də`vət edib, gündüz saat 4-də, süfrə başında onu xaincəsinə güllələyib.

Ərəblinskinin qətlə yetirildiyi tarix də dəqiq verilməmişdir. Bir çox ədəbiyyatlarda bu tarix 4 mart 1919-cu il kimi qeyd olunur. Bə`zi ədəbiyyatlarda isə Ərəblinskinin qətli günününün20 mart 1919-cu il olduğunu yazırlar.

*LEYLA ZEYNALOVA*
*ADMİU-nun I kurs tələbəsi*

# *MİLLİ RUHLU SƏNƏTKAR*

Rza Təhmasib 1909-cu ildə Naxçıvan şəhər məktəbini bitirmişdi. Atası onun tacir olmasını arzulayırdı. Gənc başında isə başqa ideyalar, fikirlər dolaşırdı. O, Puşkini, Lermontovu, Şilleri, Turgenevi, Şekspiri mütaliə etmişdi. Rza Zaqafqaziyanın mədəniyyət mərkəzi Tiflisə can atırdı.

Səhnə arzusu ilə yaşayan, aktyor olmağa can atan Təhmasib atası ilə Tiflisə gəlib səkkizlik ticarət məktəbinin dördüncü sinfinə daxil olur. Sonralar o, Tiflisdə Azərbaycan həvəskar aktyorlarının dərnəyinə daxil olur. Həmin dərnəyin rejissoru, iste`dadlı sənətkar Əli Abbasov idi.

1915-ci ildə Tiflis ticarət məktəbini bitirən Təhmasib Bakıya gəlir. O, "Səfa" cəmiyyətinin məktəbində müəllimlik edir". Təhmasibi ilk dəfə qrimləmiş dramaturq Ə.B.Haqverdiyev onu Dram teatrına işləməyə göndərdi. C.Məmmədquluzadənin "Ölülər"ində İsgəndər və Ə.B.Haqeverdiyevin "Dağılan Tifaq"ın da Nəcəfbəy rolunu ifa etdikdən sonra ixtisas komissiyası onu yüksək kateqoriyalı aktyor adlandırdı. Tezliklə Təhmasib teatrın bədii rəhbəri tə`yin edildi. Rza Təhmasib Azərbaycan klassik və müasir dramaturqlarının əsərlərində qırxdan çox səhnə obraz yaratmışdır.



Rza Təhmasib səhnədə hay-küyün, yalançı pafosun, təm-təraqın, şit hərəkətlərin qəti əleyhdarı olmuşdur.

Təhmasib aktyorlara öyrədirdi ki, səhnədə cərəyan edən hadisələrin inkişaf qanunauyğunluğunu, daxili məntiqini həssaslıqla və diqqətlə izləsinlər, bu və ya digər hərəkətin dərin psixoloji, səbəblərini dərk etsinlər, hər bir sözü və hərəkəti tamaşanın ümumi məzmunu ilə əlaqədə təhlil etsinlər. 1935-ci ildə Rza Təhmasib kino sənəti sahəsində bir aktyor kimi də ilk dəfə müvəffəqiyyətlə çıxış etmiş, "Almaz" filmində çəkilmişdir. 1947-ci ildə "Fətəli xan" bədii filmində Ağası xan rolunu ustalıqla yaratmışdı.

Azərbaycan teatrının bir çox aktyorları R.Təhmasibə ürəkdən minnətdardılar. O, iste`dadlı gənc teatr xadimlərinin bütöv nəslini yetişdirmişdir. O, Teatr İnstitutunda müvəffəqiyyətlə dərs demişdir. R.Təhmasib gələcək səhnə ustalarını sənətin çətin yollarında cəsarətlə addımlamağa, daimi axtarışlar yolu ilə getməyə, yaratmağa hazırlayırdı.

O deyirdi: "Aktyor rejissorun iradəsini kor-koranə yerinə yetirməivlidir. Aktyor yaradıcıdır. Aktyorun öz idealı olmalıdır. Əgər bu ideal rejissorun fikrini tamamlayırsa ə`ladır! Rza Təhmasib öz tələbələri ilə birlikdə "Dağılan tifaq", "Sevil", "Qaçaqlar", "Ezop" kimi tamaşalar hazırlamışdır.

Yorulmadan yeni səhnə obrazları və tamaşalar haqqında düşünən, yaradıcılıq planlarını ürəyində bəsləyən və həqiqətə çevirən Təhmasib ictimai işlər üçün də həmişə vaxt tapmışdır. Teatrda, kinostudiyada o, ictimai tədbirlərdə iştirak etmək üçün həmişə vaxt tapmış, yaradıcı kollektivə şər şeydə, xüsusən həmkarlar ittifaqı işində kömək etmiş, öz sənət dostlarının hörmətini və məhəbbətini qazanmışdı.

R.Təhmasib cəsarətli axtarışlarla zəngin olan böyük yaradıcılıq yolu keçmiş və incəsənətimizin yorulmaz xadimi kimi xatirəsi bu gün də sənətsevərlərin qəlbində yaşayır.

*NAİLƏ İMANOVA*
*ADMİU-nun I kurs tələbəsi*

## SƏHNƏYƏ BAĞLI ÖMÜR

Azərbaycan teatr tarixi qadın aktyorlarımızın oynadığı obrazlarla zəngindir. M.Davudova, F.Qədiri, H.Qurbanova kimi qadınlarımız həyatlarını səhnə ilə bağlamış və bütün qüvvələrini bu sevimli peşəyə həsr etmişlər. Bu yolun çətinliklərinə, sınaqlarına mətanətlə dözmüş, sinə gərmiş görkəmli sənətkarlardan biri də Barat Şəkinskayadır. Bütün maneələri cəsarətlə dəf edən Barat xanım Azərbaycan teatr tarixində yaddaqalan obrazlar yaratmışdır.

1930-cu ildə Gəncə şəhərində teatr həvəskarları "Zəlzələ" adlı tamaşa hazırlayır. Barat xanım bu tamaşada Haykanuş xanım adlı bir qadın obrazını yaradır. Tamaşa günü anasını güc ilə tamaşaya gətirir. Tamaşa zamanı Barat səhnəyə çıxanda anasının halı pisləşir və evə aparırlar. Barat xanım evə qayıdır, anasından soruşur ki, sənə nə oldu? Anası eh qızım, mən səni Bakıya dayın Məmmədhəsənbəy Hacıyevgilə göndərəcəm. Sözə baxmayan Barat 1939-cu ildə Əzizbəyov adına Dövlət Dram Teatrına işə düzəlir. Orda işlədiyi vaxtda sevimli yazıçımız Səməd Vurğunun "Vaqif" pyesini hazırlayıb tamaşaya qoyurlar. Anası bu tamaşaya gəlir, bundan da razı olmur. Ona görə ki, orda gürcü qızı Tamaranı oynayır. Neçə il keçir Barat xanım ən sevimli kinolardan biri olan "O olmasın bu olsun" filmində quluqçu qadın obrazını yaradır. Bu filmə anası baxır, yenədə razı olmur.

"Eh, bu da qulluqçu deyir..."

Barat xanımın anasının iki arzusu vardı. O qızını həkim görmək istəyirdi və çox xoşlayırdı ki, Barat tar çalsın. Buna görə anası onu Pionerlər evinə aparır. Barat xanım solaxay olduğuna görə ona xüsusi tar düzəldirlər. Amma buna həvəsi olmayan Barat idmana yazılır.

Barat xanım təkcə Azərbaycan qadınlarının deyil, həm də başqa xalqların qadın obrazlarını yaratmışdır.

Məsələn, "Romeo və Cülyetta"da Cülyetta obrazını, "Otello"da Dezdemona, Kordelya, rollarını məharətlə oynayıb. Barat xanım "Onun bəlalı sevinci", "Görüş", "Telefonçu qız", "Bəlalı qız" və s. filmlərə çəkilib. Səhnəmizin yaraşığı, odlu-alovlu, gözəl səsli, gülər üzlü Möhsüm Sən`ani Cabbar Məcnunbəyovun "Yanar dərə" pyesində ilk dəfə Barat xanımla tərəfmüqabil olub. İslam Səfərlinin "Göz həkimi" tamaşasında da iki böyük sənətkar tərəf müqabil olublar. Barat Şəkinskayanın yaratdığı obrazlar hər bir Azərbaycanlının qəlbində silinməz izlər buraxır və zaman ötdükcə o ölməz sənətkarın çəkildiyi filmlər, oynadığı tamaşalar xalqımız tərəfindən daha çox sevilir. Səhnəyə bağlı ömrün, sənətə həsr edilmiş həyatın bəhrəsi budur!

*TƏRANƏ BABAYEVA*
*ADMİU-nun III kurs tələbəsi*

## NOVRUZ MÜQƏDDƏS BAYRAMIMIZDIR

Azərbaycan xalqının erkən çağlarda yaratdığı, inkişaf etdirdiyi, yaşatdığı bir çox ayin e`tiqad və mərasimlər müxtəlif görüşlərin nəticəsində meydana gəlmişdir. Onların bir çoxu sonradan insanın yaşayışını tə`min edən bolluq, firavanlıq arzuları ilə cilalanıb yaddaşlara həkk olunmuşdur. Xalqın Novruza qədər keçirdiyi mərasimlər və nəğmələr bu qəbildəndir. Bolluq idealı poetik təfəkkürdə elə qüdrətli, elə rəngarəng ifadə formaları yaradır ki, onlar bu gün qədim mədəniyyətimiz kimi ulu babalarımızın əməyi, taleyi, məişətini öyrənməyə zəngin material verir. Bu mərasim və nəğmələr xalqın Novruza qədərki psixologiyasını əks etdirərək, bayramı yeni əmək həyatının başlanması kimi qarşılamağa hazırlaşan adamların arzu və istəklərini, dünyagörüşünü və mə`nəvi aləmini dərk etmək baxımından əhəmiyyətlidir.

Novruz bayramının islamiyyətdən çox-çox qabaqlar meydana gəldiyini bir sıra başqa faktlar, həmçinin qədim dövrə və orta əsrlərə aid olan tarixi mənbələr və eləcə də bədii əsərəlrə sübut etməkdədir. Məsələn, antik dövr müəlliflərindən Plutarx (e-zın 46-126-cı illəri) göstərirdi ki, midiyalılar arasında taxılı müqəddəs bitki saymaq, ondan "Omami" hazırlamaq adəti geniş yayılmışdı və bu adət hər dəfə ilin başlanğıcında (yazda) icra edilirdi. Çox maraqlıdır ki, bu adət "Səməni" bişirmək adəti formasında bizim günlərədək gəlib çıxmışdır. Bu adətin baharın gəlməsi münasibətilə həyata keçirilməsi də göstərir ki, o, təbiətin və bitkilərin canlanmasını bayram və təntənə ilə qarşılamaq məqsədini daşıyırdı. Qədim azərilərin Novruz bayramını hələ eramızdan əvvəl keçirtdiklərini N.Gəncəvi də özünün "İsgəndərnamə" əsərində təsdiq edir.

Novruz bayramı sonrakı dövrdə nəinki İslam dininin prinsiplərinə uymamış, bəlkə də bu prinsiplərin ziddinə olmuşdur. Məsələn, İslam dini ilə əla-

qədar olan dini bayramlar: kədər və matəm günləri olduğu halda, Novruz şənlik, sevinc bayramıdır. Toy mərasimi çox vaxt Novruz günlərində keçirilirdi. Novruz bayramı eyni zamanda dostluq, xeyirxahlıq, mehribanlıq, xoş gün ən`ənələri kimi qeyd edilirdi. Bu fikirlərin doğruluğu üçün çoxlu faktlar göstərmək olar. Məsələn, bu bayram ərəfəsində yaşıl ağacların kəsilməsinə icazə verilməməsi kimi təbiətə münasibətdə bunu aydın görmək olar. Novruz bayramı xalqın həyata nikbin baxışı, özünün qurub-yaratmaq əzminə inamı, təbiətin qələbəsinə, yəni xeyirxah, zəhmətkeş insana bərəkət məhsul verən qüvvələrin (yazın-yayın) şər qüvvəsi üzərində (qış) qələbəsi üçün sevinməsi bayramıdır. Özünü təbiətin bir hissəsi sayan qədim insan bu bayramda ruhən, qəlbən təbiətlə qaynayıb qarışır, onun şə`ninə nəğmələr oxuyur, onun dirçəlməsi ilə özü də yeni qüvvə ilə dirçəlir və bu, onun qəlbini yaratmaq, əmək eşqi, zəhmətkeş insana hörmət hissləri ilə doldururdu. Elə buna görə də Novruz - "Yeni gün" deməkdir.



# *MÜNDƏRİCAT*

Məhəmməd Əmin Rəsulzadə. Novruz münasibətilə ................ 4
Qurtuluş ................ 6
Novruz bayramı ................ 8
Əzizə Jəfərzadə. İlin əziz günü ................ 12
Nizaməddin Şəmsizadə. Ünsiyyət bayramı ................ 18
Vaqif Sultanlı. Təlxəklik və təlxək obrazı ................ 20
Mübariz Süleymanlı. Novruz bayramı təbiət hadisəsi kimi ................ 22
İradə Məmmədbəyova. Təhvil saatının mahiyyəti haqqında ................ 25
İlqar Hüseynov. Əkinçilik ən`ənələri Novruz bayramının zəmini kimi ................ 27
Mehman Məmmədov. Novruz - yaz mərasimində mifoloci ünsürlər ................ 30
İradə Köçərli. Novruz bayramı və Azərbayjan professional musiqisi ................ 32
Minaxanım Əsədova. "Novruz" A.Şaiq yaradıjılığında ................ 34
Vüsal Bağırov. Heykəltəraşlığın inkişafında e`tiqad, ayin və mərasimlərin rolu ................ 37
Alim Süleymanov. Gənjlərə milli şüurun aşılanmasında adət-ən`ənələrin rolu ................ 41
Asifə Telmanqızı. Əzizə Jəfərzadə və folklor ................ 43
Nailə Qasımova. Novruz xalqımızın milli dəyəri kimi ................ 45
Namiq Abbasov. Hürriyyət və məhəbbət bayramı ................ 46
Rauf Əliyev. Mədəniyyət müəssisələri Novruz ən`ənəsinin keşikçisidir ................ 47
Yaşar Yusubov. Ünsiyyətdə informasiya mübadiləsi ................ 50
Gülər Pənahova. Hüseyn Arif və folklor ................ 51
Jəmilə Hüseynova. Sirli söz xəzinəsi ................ 53
Almaz Hüseynova. "Kitabi-Dədə Qorqud" və Azərbayjan mühajirət folklorşünaslığı ................ 54
Almaz Həsənqızı. "Lətif şah" dastanı: Ə.Jəfəroğlu və Ə.Axundov variantlarının müqayisəli təhlili ................ 56

Təhmasib Əcdərov. Müəssisələrin inkişafına vergi mexanizminin tə`siri ... 57
Günay Nəjəfova. Ən`ənəyə bağlı şair ... 63
Fərid Abdullayev. "Təsviri sənətdə birliyin itməsi" probleminə dair ... 65
Elmar Məmmədov. Novruz türk xalqlarının ortaq baryamı kimi .. 67
Rə`na Məlikova. Azərbayjan mədəniyyət tarixinin şanlı səhifələri ... 68
Samirə Sofiyeva. İ.Şıxlının "Dəli Kür" əsərində Novruz bayramının bədii in`ikası ... 72
Leyla Qarayeva. Novruz özünəqayıdış bayramıdır ... 73
Elşad Hajıyev. Novruz şənlik və sevinj bayramıdır ... 75
Gülsüm Salayeva. Novruz bayramı haqqında bə`zi mülahizələr..77
Emil Abdullayev. Novruz adətləri ... 78
Ramilə Qasımova. Ulularımızın əmanəti Novruz ... 79
Aytəkin Vəliyeva. Aşıq poeziyasının canrları ... 80
Natiq Şəkərəliyev. Recissor və müasirlik ... 82
Emin Nəsirli. Milli kinomuzun jəfakeşi ... 83
Zülfiyyə Əsədova. Kino tariximizin bə`zi məqamları ... 84
Elnarə Bağırova. Təbii obrazlar ustası ... 85
Xəyalə Quliyeva. Səhnə fədaisinin həyatından müəmmalı məqamlar ... 87
Leyla Zeynalova. Milli ruhlu sənətkar ... 88
Nailə İmanova. Səhnəyə bağlı ömür ... 90
Təranə Babayeva. Novruz müqəddəs baryamımızdır ... 91



**"N O V R U Z:**
**ƏN'ƏNƏ VƏ MÜASİRLİK"**

**Bakı, ADMİU, Nəşriyyat-Poliqrafiya Mərkəzi - 2001**

BURAXILIŞA MƏS`UL: *Pedaqoji elmlər namizədi, dosent İLQAR HÜSEYNOV*

RƏSSAM: *VÜSAL BAĞIROV*
KOMPÜTER DİZAYNI: *MƏTANƏT MƏMMƏDOVA*
KORREKTORLARI: *SƏADƏT ABBASOVA, NAİLƏ QASIMOVA*

*Yığılmağa verilib: 10.03.2001. Çapa imzalanıb: 15.03.2001.*
*Formatı 60x84 1/16. Həcmi:6 ç.v. Ofset kağızı 80 qr.*
*Sifariş* № 08. *Tirajı 500 (I buraxılış 100) nüsxə. Qiyməti müqavilə ilə*

*ÜNVAN: Bakı, Ə.Haqverdiyev küç-15*
*Tel: 39-49-17*